**Günün sözü**

## Prezident İlham Əliyev:

**Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.**

## Azərbaycanla Ermənistan sərhədində – Laçın yolunun girişində yaradılan nəzarət-buraxılış məntəqəsinin qarşısında məlumatverici lövhə quraşdırılıb




## BTC Qazaxıstan neftini dünya bazarına çıxarır

Səhifə ⇨ 11




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 84 (30200) 26 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri

## Sofiya şəhərinin hava limanında qarşılanma



**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Hristo Aleksiev və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Ramazan bayramı ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "İnsanları xeyirxahlığa, mərhəmətə və şəfqətə, ətrafındakılara, doğmalarına diqqət və qayğı göstərməyə sövq edən müqəddəs Ramazan bayramı münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm! Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin! Hər birinizə möhkəm cansağlığı, sevgi, sevinc və gözəl əhvali-ruhiyyə arzulayıram. Qoy bu bayram ürəklərdə saf niyyətlər və xoş duyğular oyatsın, hər bir ocağa xeyir, rahatlıq və xoşbəxtlik, hər bir ölkəyə sülh və əmin-amanlıq gətirsin!".

## Azərbaycan üçün fəth edilməyəcək zirvə yoxdur



Səhifə ⇨ 8

## Şuşa və Laçın şəhərlərində su təchizatı layihələri icra olunur

Səhifə ⇨ 7



# Qarabağa yol yalnız Bakıdan keçir!

Səhifə ⇨ 9

## Mir Cəlal – dəyişən dəyərlər müstəvisində

Səhifə ⇨ 10



## Paşinyan 1999-cu və 2016-cı illəri xatırlamaqla nə demək istəyir?

Səhifə ⇨ 12

## Dairə qapandı



Səhifə ⇨ 8

## Formula 1 pilotları Bakı yarışının həyəcanına kökləniblər

Səhifə ⇨ 13



## Rusiya BMT TŞ-nin 77-ci sessiyasına sədrlik edir

Səhifə ⇨ 14



## Vətən sərhəddən başlayır...



Səhifə ⇨ 12

## Amerikalı konqresmenin erməni tərəfkeşliyi



Səhifə ⇨ 8

## Sudanda 3 sutkalıq atəşkəs davam edir

Səhifə ⇨ 14

## Azərbaycan kinosu inkişaf yolları axtarışında



Səhifə ⇨ 15

# Türkiyə daha bir meqalayihəni uğurla gerçəkləşdirdi

Səhifə ⇨ 14

# Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumu imzalanıb

## Azərbaycan Prezidenti İlham Əliyev imzalanma mərasimində iştirak edib

**Aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev imzalanma mərasimində iştirak ediblər.

Anlaşma Memorandumunu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın Energetika naziri Rosen Hristov, Macarıstanın Xarici İşlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın Energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın İqtisadiyyat naziri Karel Hirman imzaladılar.

İmzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciəti dinlənildi. Xanım Kadri Simson imzalanmış Anlaşma Memorandumunun regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcəyini vurğuladı, bu məsələdə Azərbaycanın roluna toxunaraq dedi: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

Sonra çıxışlar oldu.

Azərbaycanın Energetika naziri Pərviz Şahbazov Anlaşma Memorandumunun əhəmiyyətinə toxundu, bunun "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük əhəmiyyət daşıdığını vurğulayaraq dedi: "Ölkələrimiz arasında məhsuldar münasibətlərin, yüksək həmrəyliyin və strateji tərəfdaşlığın təmin edilməsi məqsədini daşıyan liderlərimizin uzaqgörən siyasəti və yorulmaz səyləri nəticəsində bu gün biz Azərbaycandan Avropa İttifaqına təbii qazın təchiz edilməsinin yeni marşrutunun formalaşmasının şahidi oluruq. Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya ötürücü sistem operatorları ilə SOCAR arasında Memorandumun imzalanması "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük bir addımdır. Bu yeni layihə Cənub Qaz Dəhlizi sayəsində iki ildən də artıq müddət ərzində tərəfdaşlarımız üçün etibarlı və sabit enerji təchizatında strateji rol oynayan ölkədən – Azərbaycandan olan təbii qazın alternativ marşrut vasitəsilə əlavə bazarlara çıxışını təmin edəcək. "Həmrəylik Halqası" təşəbbüsü, həmçinin Cənub Qaz Dəhlizinin genişlənməsi vasitəsilə imkanlar təqdim edir və eyni zamanda, enerji sahəsində Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsinə töhfə verir. Mən bu yeni təşəbbüslə bağlı bizim səylərimizə uğurlar diləyirəm. Çox sağ olun".

Bolqarıstanın Energetika naziri Rosen Hristov Anlaşma Memorandumunun imzalanmasını Avropanın enerji təhlükəsizliyinə nail olmaq yolunda mühüm addım olduğunu vurğuladı. Bolqarıstanın Avropa İttifaqına, Mərkəzi və Cənub-Şərqi Avropaya təbii qaz tədarükünün təhlükəsizliyini yaxşılaşdırmaq məqsədi daşıyan "Həmrəylik Halqası" (STRING) layihəsinin təşəbbüskarlarından biri olduğunu vurğulayan nazir bildirdi ki, indi region ölkələri bu sahədə öz məqsədlərinə nail ola bilərlər. O, hazırda regionun digər ölkələrinin də bu təşəbbüsə qoşulması imkanları üzərində birgə iş aparıldığını diqqətə çatdırdı.

Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto Azərbaycandan Avropaya qazın idxalı məsələsini vurğulayaraq, bu marşrutun Avropa üçün önəmini qeyd edərək dedi: "Mərkəzi Avropada şaxələnmə məsələsinə gəldikdə ən yaxşı, ən real və ən səmərəli həll yolu qazı Azərbaycandan idxal etməkdir. Buna heç bir şübhəmiz yoxdur. Biz özümüzə, ən azından özümüzə düzünü deməliyik. "Həmrəylik Halqası" olmasa, Avropa maliyyələşməsi olmasa, onda Mərkəzi Avropanın həqiqətən də mərkəzində yerləşən bizlərin Azərbaycandan əhəmiyyətli qaz həcmini almağa heç bir imkanı olmayacaq. Bizə mütləq Türkiyə də lazım olacaq. Mərkəzi Avropanın gələcək enerji təchizatının mühüm bir hissəsini təşkil edəcək Azərbaycandan olan qaz həcminə güvənmək üçün ümid edirik ki, onlar da gələn dəfə təmsil olunaraq razılaşmanın bir hissəsi olacaqlar".

Rumıniyanın Energetika naziri Virgil-Daniel Popesku Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları ilə SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyətini xüsusi vurğulayaraq dedi ki, bu, layihədə iştirak edən ölkələr arasında uğurlu və sıx əməkdaşlığın qurulmasının göstəricisidir. Bu gün dünyanın enerji təchizatında ciddi böhran və enerji təhlükəsizliyi üçün böyük risklərlə üzləşdiyi bir zamanda bu əməkdaşlıq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Rumıniyalı nazir bu təşəbbüsün bütün regionun ümumi inkişafına töhfə verəcəyini vurğulayaraq ölkəsinin layihəyə fəal dəstək verdiyini qeyd etdi.

Slovakiyanın İqtisadiyyat naziri Karel Hirman isə Azərbaycanla əməkdaşlığın önəminə toxunaraq dedi: "Bu gün biz Anlaşma Memorandumunu imzalamaqla aydın siyasi mesaj göndəririk. Bu mesaj ondan ibarətdir ki, biz Avropaya təbii qazın idxalı üçün yeni dəhliz yaratmağa, tərəfdaşımız olan Azərbaycanla əməkdaşlıq etməyə və qaz təchizatının ümumi şaxələnməsinə töhfə verməyə hazırıq. Slovakiya Azərbaycandan əlavə qaz təchizatını təmin etmək üçün regionumuzdakı qazötürücü sistemi operatorlarının mövcud infrastrukturdan istifadə edilməsi və onun müasirləşdirilməsi çağırışını alqışlamışdır. Mən bizim qazötürücü sistem operatorlarının Azərbaycandan Mərkəzi və Şərqi Avropaya yeni dəhlizin yaradılması ilə bağlı təşəbbüsünün reallaşdırılmasına və SOCAR ilə əməkdaşlığa Slovakiya İqtisadiyyat Nazirliyinin tam dəstəyini ifadə etmək istəyirəm. Yekunda şəxsi fikrimi bildirmək istəyirəm. Mən neft və qaz mühəndisiyəm və Sovet İttifaqının dağılmasından sonrakı onilliyi xatırlayıram. Mən ittifaqın dağılmasından sonra neft hasilatı üzrə Azərbaycanın yeni neft layihələrini xatırlayıram. Mən Azərbaycanın nəhəng neft-qaz layihələrinin reallaşmasında cənab Prezident Heydər Əliyevin əvəzsiz xidmətlərini xatırlayıram. İnanıram ki, biz indi qaz idxalı sahəsində ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni fəslinə start verəcəyik. Çünki Azərbaycan və SOCAR enerji təchizi üçün uzunmüddətli, etibarlı və dürüst tərəfdaşdır. Hesab edirəm ki, növbəti onillikdə biz yaxşı tərəfdaş olacağıq və birlikdə ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni erasını yaradacağıq. Çox sağ olun".

***

Azərbaycan dövlətinin başçısı mərasimdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı




– Hörmətli Prezident Radev.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Əvvəlcə, mən bu təşəbbüsə görə Prezident Radevə təşəkkürümü bildirmək istərdim. Bu, enerji resurslarının daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addımdır. Altı ay əvvəl mən Bolqarıstana rəsmi səfər etdim. Beləliklə, altı ay keçdikdən sonra yenə buradayam. Həmin vaxt, biz Yunanıstan ilə Bolqarıstan arasında interkonnektor vasitəsilə inteqrasiya mərasimində iştirak etdik. Bu layihə Azərbaycanın təbii qaz təchizatının coğrafiyasını genişləndirmək imkanını yaratdı. Bu layihə Avropada enerji təhlükəsizliyinin gücləndirilməsinə artıq töhfə verir. Bir ay əvvəl Prezident Radev Azərbaycanda bizim qonağımız oldu. Bu, həqiqətən, ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini göstərir. O, siyasi dialoqun dinamikasını nümayiş etdirir və göstərir ki, Bolqarıstan və Azərbaycan nəinki strateji tərəfdaş, o cümlədən, əsl dost ölkələrdir.

Bu gün imzalanmış Anlaşma Memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə daha çox qazı ixrac etməyə fürsət yaradacaq. Bu gün Enerji Komissarı xanım Simsonun, Avropa Komissiyasının digər rəsmilərinin və dostlarımızın artıq qeyd etdiyi kimi, Azərbaycan Avropanın, mən deyərdim ki, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. Sizə məlumat vermək istəyirəm ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.

Əminəm ki, bu gün keçirilən mühüm mərasim əməkdaşlığımızın gücləndirilməsində atılan növbəti addım olacaq. Ötən ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nu imzaladılar. Onun əsasında, biz 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik. Beləliklə, həmin həcm bu il üçün planlaşdırdığımız 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracımızın, təxminən, yarısını təşkil edəcək. Təbii ki, qaz hasilatı və ixracımız artacaq. Çünki biz hasilatı mövcud qaz yataqlarında artıracağıq və gələn illərdə isə yeni yataqlarda təbii qazın hasilatını gözləyirik. Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq.

Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniyanın ərazisindən keçir. Eyni zamanda, Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi, əminəm ki, yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, "Həmrəylik Halqası" birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq.

Mən, həmçinin Sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. İyirmi ildən artıqdır ki, biz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşıq. Neft-kimya məhsulları və elektrik enerjisi, həmçinin ixracımızın bir hissəsidir. Mən, həmçinin enerji inkişaf yolunu xatırlatdığına görə Slovakiyanın nazirinə təşəkkürümü bildirmək istəyirəm. Tam həqiqətdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üç ildən az müddətdə, 1994-cü ildə müqavilə imzaladı. Sonradan həmin müqavilə "XX əsrin müqaviləsi" adlandırıldı. Ölkəmiz ilk dəfə olaraq Xəzər dənizində nefti hasil və ixrac etmək məqsədilə xarici neft şirkətlərini dəvət etdi. Bir sözlə, bu gün biz XXI əsrin layihəsini həyata keçiririk və onun miqyası genişlənir.

Enerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün bu istiqamətdə addımları davam etdirməyə birmənalı olaraq hazırdır. Eyni zamanda, mən sizə bildirmək istəyirəm ki, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra, yəni – iki neft boru kəməri – biri Xəzərdən Aralıq dənizinə, digəri isə Xəzərdən Qara dənizə gedən boru kəməri və uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizindən sonra, hazırda biz Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışırıq. Azərbaycan 25 qiqavatdan artıq bərpaolunan enerjinin istehsalı məqsədilə bərpaolunan enerji sahəsində aparıcı beynəlxalq şirkətlərlə müqavilələri və anlaşma memorandumlarını imzalayıb. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Azərbaycanda bərpaolunan enerjinin hesablanmış potensialı təxminən 200 qiqavatdır. Bu həcmə Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat da aiddir. Əlbəttə ki, yaşıl enerjinin əsas ixrac istiqaməti Avropadır.

Beləliklə, biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq.

Yekun olaraq, hamımızı Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik etmək istəyirəm və birgə planımızın ən yaxın vaxtlarda icrasına ümid edirəm. Sağ olun.

***

Sonra Bolqarıstan dövlətinin başçısı çıxış etdi.

### Prezident Rumen Radevin çıxışı

– Hörmətli Prezident Əliyev.

Hörmətli nazirlər.

Zati-aliləri, xanımlar və cənablar.

"Həmrəylik Halqası" təşəbbüsünə start verən Memorandumun imzalanma mərasimində qonaq qismində iştirak etmək mənim üçün şərəfdir. İlk növbədə, mənim bugünkü tədbirdə xüsusi qonaq qismində iştirak etməklə bağlı təklifimi qəbul etdiyinə görə Prezident Əliyevə minnətdarlığımı bildirmək istərdim. Deyə bilərəm ki, bugünkü uğur əhəmiyyətli dərəcədə Bolqarıstanla Azərbaycan arasında etibarlı, uzunmüddətli strateji əməkdaşlıqla əlaqədardır. Son bir ildə bu əməkdaşlıq çox uğurla inkişaf edib və hazırda artıq yeni müstəvidədir.

Prezident Əliyev Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut etdi. On ildən artıq müddət bundan əvvəl imzaladığımız müqaviləyə əsasən Bolqarıstanın artıq bir ildən çoxdur Azərbaycan tərəfindən etibarlı şəkildə təchiz olunduğu faktına əlavə etməli heç nə yoxdur. Bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir. Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. Bu, ötən ilin iyulunda, Azərbaycanın Avropa Komissiyası ilə enerji sektorunda strateji əməkdaşlığa və xüsusilə Avropa İttifaqına əlavə həcmdə qaz təchizatına dair Memorandum imzalaması ilə təsdiq olundu. Buna baxmayaraq, böyük sual qalmaqdadır. Bu həcmdə qaz Avropa İttifaqına konkret olaraq necə çatdırılacaq? Biz qazın qarşıdakı illərdə Avropaya çatdırılacağı barədə düşünürdük. İndi isə mən bu məsələ ilə bağlı təşkilatçılıqlarına və çevik reaksiyalarına görə nazirlərə minnətdarlığımı bildirməliyəm. Bu həll təkcə bizim ölkələrimiz üçün deyil, həm də bütün Mərkəzi və Cənub-Şərqi Avropaya ən sürətli, ən səmərəli və ən sərfəli şəkildə şaxələndirmə istiqamətində həlldir.

Mən Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenə, Avropa İttifaqının energetika




məsələləri üzrə komissarı xanım Kadri Simsona, Yunanıstan və Türkiyə tərəfinə minnətdarlığımı bildirmək istərdim. Onlar hamısı bu təşəbbüsü dəstəklədilər, çünki bu insanlar olmasaydı, bu təşəbbüs həyata keçirilə bilməzdi. Məhz bu səbəbdən biz bu təşəbbüsü "Həmrəylik Halqası" adlandırdıq. Çünki xüsusilə bizim tərəfdaşlarımızın etibarlı qaz təchizatına ehtiyacı olduğu bir zamanda, həmrəylik və əməkdaşlıq təməldir. Çünki Ukraynadakı müharibə bizi mehriban qonşuluq, həmrəylik və əməkdaşlıq anlayışlarının yeni ölçülərini axtarmağa vadar etdi. Bu, əsasən beynəlxalq logistika xəritəsinə dəyişikliklər etmək imkanına malik olmaq üçün bizdən yeni həllər, yeni marşrut və təchizat axtarmağı tələb edir. Bu təşəbbüs bu istiqamətdə uğurun nümunəsidir. Aydındır ki, bugünkü Memorandumun imzalanması bizim aramızda yeni əməkdaşlıq üçün çox güclü siqnaldır. Bu, ölkələrimizin qaz təchizatı şəbəkələrinin həcmini, həmçinin aramızdakı qarşılıqlı əlaqəni genişləndirəcək.

Daha bir mühüm məqam ondan ibarətdir ki, bu təşəbbüs bizim ambisiyalarımızın səviyyəsini artırır. İndi biz artıq digər daha mühüm layihələr barədə danışmağa başlamışıq. Biz gələcəyin enerjisi - yaşıl hidrogenin nəqli barədə danışmağa başlamalıyıq. Bir qədər sonra biz Prezident Əliyevlə SOCAR-ın Sofiyada yeni ofisinin açılışını edəcəyik. Mən cənab Prezident Əliyevə məlumat vermək istərdim ki, Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyasını təsdiqləyib. Cənab Prezident Əliyev, mən bu münasibətlə Sizi təbrik etmək istərdim və inanıram ki, biz gələcəkdə uğur qazanacağıq. Çünki geosiyasi vəziyyət, ilk növbədə, birlikdə olmağı və ən yaxşı həllər axtarmağı tələb edir. Sizin hamınıza uğurlar arzulayıram.

***

Qeyd edək ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

***AZƏRTAC***



# Sofiyada SOCAR-ın Bolqarıstandakı ofisinin açılışı olub

## Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev açılış mərasimində iştirak ediblər



Azərbaycan–Bolqarıstan əlaqələrində mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana sonuncu – 2022-ci il 30 sentyabr–1 oktyabr tarixli rəsmi səfəri və həmin səfər çərçivəsində Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun istismara verilməsi ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açdı. Dövlətimizin başçısının bugünkü səfəri zamanı Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması isə enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən, enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində

**Aprelin 25-də Sofiyada SOCAR-ın Bolqarıstan Respublikasındakı ofisinin açılışı olub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev açılış mərasimində iştirak ediblər.

Dövlət başçıları ofis binasının rəmzi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular.

Binada ofis əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, enerji sahəsində əməkdaşlıq sürətlə inkişaf edən



vaxtında atılan çox mühüm addımdır. Bütün bunlar SOCAR-ın Bolqarıstandakı fəaliyyətinin genişləndirilməsi zərurətini yaradır. Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyanı təsdiqləyib. SOCAR-ın Bolqarıstandakı ofisinin açılması şirkətin Avropa bazarında fəaliyyətinin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.

*AZƏRTAC*

# Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub



**Aprelin 25-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.**

Görüşdə ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd olundu.

Prezident Rumen Radev Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması tədbirində iştirak üçün Bolqarıstana səfər etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi və "Həmrəylik Halqası" STRİNG layihəsinin uğurla həyata keçiriləcəyinə ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev səfərə dəvətə görə Prezident Rumen Radevə minnətdarlığını bildirdi.

Görüşdə "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında əməkdaşlıq məsələləri müzakirə olundu, bu xüsusda Azərbaycanın etibarlı tərəfdaş kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfəsi vurğulandı.

Söhbət zamanı siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Azərbaycan və Bolqarıstan prezidentləri nahar ediblər

**Aprelin 25-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev nahar ediblər.**

*AZƏRTAC*

# Səfər başa çatdı



**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Hristo Aleksiev və digər rəsmi şəxslər yola saldılar.

*AZƏRTAC*

# İsrail Dövlətinin Prezidenti Zati-aliləri cənab İsxak Hersoqa

**Hörmətli cənab Prezident!**

İsrail Dövlətinin müstəqilliyinin 75-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ötən dövr ərzində İsrail bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş və dünyanın ən inkişaf etmiş ölkələri sırasında yer almışdır.

Azərbaycan-İsrail əlaqələrinin daim yüksələn xətlə inkişaf edərək bugünkü səviyyəyə çatması məmnunluq doğurur. Bunun təməlində xalqlarımızı birləşdirən çoxəsrlik möhkəm dostluq və qarşılıqlı rəğbət hissləri dayanır.

Bu gün siyasi dialoqumuzun yüksək səviyyəsi iqtisadiyyat, energetika, yüksək texnologiyalar, təhsil, hərbi-texniki və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin genişləndirilməsi və yeni məzmunla zənginləşməsi üçün əlverişli şərait yaradır. Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin açılmasının, bu il isə səfirliyinin fəaliyyətə başlamasının dövlətlərarası münasibətlərimizin daha da inkişafına vüsət verəcəyinə əminəm.

İnanıram ki, xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq Azərbaycan–İsrail dostluğu və əməkdaşlığının böyük potensialından daha dolğun istifadə etmək üçün qarşılıqlı səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə Bakıda görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost İsrail xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

# SOCAR Avropada "Həmrəylik halqası"nın əsas tərəfdaşıdır

**Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri çərçivəsində Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və ölkəmizin Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.**



Xatırladaq ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükünün "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur.

Bu anlaşma Azərbaycan ilə Avropa arasında yeni əməkdaşlıq səhifəsi olaraq respublikamızın regional geosiyasi və geoiqtisadi mövqeyini daha da möhkəmləndirəcək, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək.

Burada başqa bir məqamı da qeyd edək. Sözügedən Anlaşma Memorandumunun imzalanması ölkəmizin Balkan regionunda indiyədək mövcud olan nüfuzunun əsaslı şəkildə gücləndirilməsini şərtləndirəcək, həmçinin Bolqarıstanla əməkdaşlığın yeni mərhələyə daxil olmasını gerçəkləşdirəcək.

Yeri gəlmişkən, Azərbaycan–Bolqarıstan münasibətləri son illər dinamik inkişafı ilə xüsusi diqqət çəkib. Bu Prezident İlham Əliyevin 2015-ci ildə bu ölkəyə səfəri zamanı imzalanan Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə ilə yeni keyfiyyət müstəvisinə yüksəlib. Belə bir böyük əhəmiyyət daşıyan sənədlə Azərbaycan–Bolqarıstan əməkdaşlığı həm ikitərəfli formatda, həm də beynəlxalq səviyyədə müsbət nəticələrlə müşahidə olunub. Bütün bunlarla bərabər, 2022-ci ilin oktyabr ayında Yunanıstan–Bolqarıstan İnterkonnektorunun istifadəyə verilməsi ilə respublikamızın "Şahdəniz" yatağında hasil olunan 1 milyard kubmetr təbii qazın hər il Bolqarıstana nəqlinə əlverişli imkan yaradılıb.

Yuxarıda adıçəkilən qaz interkonnektoru dövlətimizin başçısının ötən ilin oktyabrında Bolqarıstana rəsmi səfəri çərçivəsində istifadəyə verilib. Şübhəsiz ki, bu məsələdə Azərbaycan tərəfindən başlanan və Avropa İttifaqının (Aİ), o cümlədən, ölkəmizin tərəfdaşlarının dəstəklədiyi enerji layihələri sırasında Cənub Qaz Dəhlizi layihəsi xüsusi yer tutub. Bu cür nəhəng layihə respublikamızın neft və qaz ehtiyatlarını tədarük etməklə təkcə regionda deyil, eyni zamanda, Aİ-nin cənubunda enerji təhlükəsizliyinin gerçəkləşməsini şərtləndirib.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il martın 11-də Bolqarıstan Prezidenti Rumen Radev ilə videokonfrans formatında keçirdiyi görüşdə dost dövlət başçısı çıxışında Yunanıstanla Bolqarıstan arasında interkonnektorun işə salındığı ilk gündən bu infrastrukturun mükəmməl və heç bir problem olmadan işlədiyini, ölkəsinin Azərbaycandan qaz aldığına görə, məmnun olduğunu vurğulayıb.

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP vasitəsilə hər il İtaliyaya səkkiz milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə bir milyard kubmetr həcmində qaz nəql olunur.

Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya nəqlinə 2020-ci il dekabrın 31-də başlanılıb. Həmin vaxt Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarıb. Eyni zamanda, təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan öz ixrac imkanlarını da şaxələndirməyə nail olub.

Onun da deyək ki, son illərdə Azərbaycanın Bolqarıstanla iqtisadi əlaqələrində enerji tədarükü ilə yanaşı, müxtəlif sahələrdə, o cümlədən, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və əczaçılığın inkişafı üçün müxtəlif layihələr gerçəkləşdirilib. Bütün bunlar statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Belə ki, təkcə 2022-ci ildə Bolqarıstan Azərbaycanın 28-ci xarici ticarət tərəfdaşı olub. Bu dövrdə iki dost ölkə arasında ticarət dövriyyəsi 325 milyon ABŞ dolları təşkil edib, ikitərəfli ticarətin saldosu 259 milyon ABŞ dolları ilə Azərbaycanın xeyrinə olub.

Beləliklə, 2015-ci ilin martında imzalanmış Bolqarıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin icrası əməkdaşlığın möhkəmlənməsini şərtləndirib, böyük potensiala və bu sahədə mövcud perspektivlərə uyğun olaraq münasibətlərin yüksək səviyyədə inkişafına önəmli təsir göstərib.

***"Xalq qəzeti"***

# Azərbaycan–Gürcüstan hərbi əməkdaşlığı uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.**

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən, hərbi sahədə uğurla inkişaf etdiyi vurğulandı.

Bu ilin aprelində Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə səfəri xatırlandı, səfər zamanı əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu.

Dövlətimizin başçısı və Gürcüstanın müdafiə naziri əməkdaşlığımızın perspektivlərini, regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.

***AZƏRTAC***

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 7 mart tarixli 837-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 7 mart tarixli 837-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2012, 2018 nömrəli, 4 fevral tarixli 2023 nömrəli, 3 mart tarixli 2055 nömrəli, 10 mart tarixli 2065 nömrəli və 30 mart tarixli 2079 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.51-ci bəndə "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi," sözləri əlavə edilsin;

1.2. 5.36-cı bənddə "384, 385" rəqəmləri "381.8 – 381.11, 381.14" rəqəmləri ilə, "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 5.36-1-ci bənd əlavə edilsin:

"5.36-1. həmin Məcəllənin 381.12 və 381.13-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə audiovizual media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Audiovizual Şurası, digər media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi baxır;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2018 nömrəli, 30 mart tarixli 2079 nömrəli və 8 aprel tarixli 2087 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13-cü hissədə "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

2.2. 13.0-cı bənddə "384, 385 və 428.11-ci" sözləri "381.8 – 381.11, 381.14 və 428.11-ci maddələrində, habelə audiovizual media subyektlərinə münasibətdə Məcəllənin 381.12 və 381.13-cü" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

"13-1. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi adından:

13-1. Məcəllənin 381.12 və 381.13-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (audiovizual media subyektləri istisna olmaqla, digər media subyektlərinə münasibətdə) – Agentliyin icraçı direktoru, onun müavini.".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2051 nömrəli, 30 mart tarixli 2079 nömrəli, 8 aprel tarixli 2087 nömrəli və 11 aprel tarixli 2098 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 27-ci hissədə "382" rəqəmləri "381.2, 381.3" rəqəmləri ilə əvəz edilsin;

3.2. 29-cu hissə üzrə:

3.2.1. birinci abzasda "381.1-ci maddəsində" sözləri "381.1, 381.4 və 381.6-cı maddələrində" sözləri ilə əvəz edilsin;

3.2.2. 29.1-ci bənddə "teleradio yayımlarına" sözləri "audiovizual media subyektlərinə" sözləri ilə, "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin və həmin bənddən "onun müavinləri," sözləri çıxarılsın;

3.2.3. 29.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"29.2. digər media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi adından – Agentliyin icraçı direktoru, onun müavini.";

3.3. 30-cu hissədə "383 və 387-ci" sözləri "381.5 və 381.7-ci" sözləri ilə və "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

3.4. 31-ci hissə üzrə:

3.4.1. 31.1-ci bənddə "teleradio yayımlarına münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio" sözləri "televiziya və radio yayımına münasibətdə Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

3.4.2. 31.2-ci bənddə "kütləvi informasiya vasitələrinə" sözləri "media məhsullarına" sözləri ilə əvəz edilsin;

3.4.3. 31.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"31.2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi adından – bu Siyahının 29.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

3.5. 31-6.1-ci və 31-9.1-ci bəndlərdə "teleradio" sözü "televiziya və radio" sözləri ilə, "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

3.6. 31-6.4.2-ci, 31-9.4.2-ci yarımbəndlərdə və 31-10.2-ci bənddə "Mətbuat Şurası" sözləri "Respublikasının Medianın İnkişafı Agentliyi" sözləri ilə, "31.2.2-ci yarımbəndində" sözləri "29.2-ci bəndində" sözləri ilə əvəz edilsin;

3.7. 31-7.1-ci bənddə və 31-8-ci hissədə "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

3.8. 60-1-ci hissə üzrə:

3.8.1. 60-1.1-ci bənddə "teleradio yayımlarına münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Milli Televiziya və Radio" sözləri "audiovizual media subyektlərinin media məhsullarına münasibətdə Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

3.8.2. 60-1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"60-1.2. digər media subyektlərinin media məhsullarına münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi adından – bu Siyahının 29.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin may ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 1,16 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 8,19,26 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 15,25 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 17,26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 19 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Muğam Müsabiqəsinin birinci turu başlanıb



**Azərbaycan Milli Konservatoriyasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə növbəti Milli Muğam Müsabiqəsinin birinci turunun seçimlərinə başlanılıb.**

Müsabiqə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi bildirib ki, muğam müsabiqəsinin təşkili azərbaycançılıq və Azərbaycan mənəviyyatının cəmiyyət arasında, gənclər arasında daha çox təbliğatına, onun sevilməyinə xidmət edir. Bu müsabiqənin təşkilində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkür edirik.

# Heydər Əliyev məhkəmə-hüquq islahatlarının müəllifidir



**Zəngin dövlətçilik ənənələrinə malik olan ölkəmizin tarixində ümummilli lider Heydər Əliyevin şəxsiyyəti, onun iradəsi, uzaqgörənliyi, siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Ulu öndərin ölkəyə rəhbərlik etdiyi illər Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Xalqımız tarix boyu xəyal etdiyi milli dövlətçiliklə bağlı arzularını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı, müstəqil, hüquqi Azərbaycan dövlətini qurdu.**

Yubiley ilində ümummilli liderin zəngin ictimai-siyasi fəaliyyətinin hərtərəfli öyrənilməsi və təbliği məqsədilə bütün bölgələrdə, idarə və müəssisələrdə, təhsil ocaqlarında yığıncaqlar, konfranslar, digər kütləvi tədbirlər keçirilir. Fəxr edirik ki, digər ölkə vətəndaşları kimi, biz hüquqşünaslar da ulu öndərin 100 illiyi münasibətilə təşkil edilən konfranslarda fəal iştirak edirik.

Heydər Əliyev hələ 1969–1982-ci illəri əhatə edən dövrdə respublikada Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

1993-cü ilin yayında ulu öndər xalqın təkidli tələbi ilə ölkəmizin siyasi rəhbərliyinə qayıtdı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlayan Heydər Əliyev sarsılmaz iradəsi və fenomenal idarəçilik qabiliyyəti ilə Azərbaycanda keçmiş sovetlər birliyindən miras qalmış totalitar rejim əvəzinə, demokratik hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Cərəyan edən hadisələri dərindən təhlil edən ulu öndər yaxşı bilirdi ki, ölkədə demokratik hüquqi dövlət qurmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquqi nizam-intizam təmin edilməlidir. "Dövlət dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyevin 1994-cü ildə imzaladığı xüsusi fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Ulu öndər Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanı tənəzzüldə olan dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihənin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu.

Böyük strateq, zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

"Konstitusiya yaratmaq üçün, şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma, eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" – deyən ulu öndər Heydər Əliyev yeni Konstitusiya layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə öz üzərinə götürdü.

Ulu öndər yeni Konstitusiyamıza əsaslanaraq mükəmməl hüquq sistemi formalaşdırmaq üçün qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutmaqla, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başladı və bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyasını yaratdı.

Hərtərəfli fəaliyyət, gərgin zəhmət nəticəsində "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və hüquq sisteminin mahiyyətini müəyyən edən digər qanun və bütün əsas məcəllələrin layihələri hazırlandı və nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edildi. İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırıldı.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulması, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi ulu öndər Heydər Əliyevin böyük qəlb və mənəviyyat sahibi olduğunu, humanizmini bir daha təsdiqləyir. Ölüm cəzasının ləğvi Azərbaycanın demokratik hüquqi dövlət quruculuğu yolunda olduğunu növbəti dəfə dünyaya sübut etdi.

Əfv və amnistiya institutlarının ulu öndər tərəfindən bərpası da mühüm əhəmiyyətə malikdir. Məhz bu humanist siyasətin nəticəsidir ki, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Minlərlə məhkumun əfv və amnistiya olunması ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə mənəvi dəyərlər, humanizm hissi aşılamışdır.

Azərbaycan üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş ümummilli liderimiz ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin forma-laşmasına da xüsusi diqqət yetirmişdir. Müstəqil məhkəmə hakimiyyəti yaratmadan mükəmməl siyasi sistem qurmaq mümkün olmazdı. Belə məhkəmə hakimiyyəti yaratmaq üçün isə ölkədə genişmiqyaslı məhkəmə-hüquq islahatları aparılmalı idi.

Ulu öndərin rəhbərliyi ilə aparılmış köklü məhkəmə-hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, üçpilləli müstəqil məhkəmə sistemi yaradıldı.

Bu sistemin üstünlüyü ondan ibarətdir ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, həmçinin məhkəmə qərarlarından şikayət vermək hüququ təmin edilir, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan verilir. Bu isə öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə zəmin yaradır.

İslahatların gedişində Ali Məhkəmənin də funksiya və səlahiyyətlərinə yenidən baxıldı və o, ümumi və ixtisaslaşmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə sırf kassasiya instansiyası məhkəməsinə çevrildi və beləliklə, aşağı məhkəmələrin qərarlarına nəzarət etməkdən, işlərə birinci instansiya məhkəməsi kimi baxmaqdan azad olundu. Bununla da Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu. Bu islahatın fəlsəfəsi ondan ibarət idi ki, insanın ən mühüm hüquqlarını məhdudlaşdıran tədbirlər cinayət təqibi orqanı tərəfindən deyil, müstəqil məhkəmə tərəfindən seçilir.

Həyata keçirilən yeniliklər nəticəsində 2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, test üsulu ilə hakim seçimi aparıldı və nəticədə hakim korpusu 60 faiz təzələndi.

Hüquqi dövlət quruculuğunun Azərbaycan modelini yaratmış ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu məhkəmə-hüquq islahatları bu gün də uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti seçildiyi gündən cənab İlham Əliyevin siyasi iradəsi ilə məhkəmə sisteminin daha da müasirləşdirilərək, Avropa standartlarına uyğunlaşdırılmasına başlanılmışdır.

Bu gün Azərbaycan ədliyyəsinin tarixinə nəzər salanda görürük ki, nazirliyin əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Həmin dövrdə ölkədə ədliyyə işinə böyük önəm verən dahi rəhbər tərəfindən Ədliyyə Nazirliyinin fəaliyyəti yenidən təşkil olunmuş və bununla da Azərbaycan ədliyyəsi tarixində yeni mərhələ başlanılmış, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyevin siyasi irsidir. Bu möhtəşəm sər-vətin öyrənilməsi üçün konfranslar təşkil olunur, Azərbaycan tarixinin Heydər Əliyev dönəmində əldə olunmuş nailiyyətlər, demokratk hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatlar barədə çıxışlar edilir və digər tədbirlər həyata keçirilir.

Bu gün hər birimiz Heydər Əliyevin dövlətçilik amallarını, yüksək ideyalarını ya-şatmaq və gələcək nəslə çatdırmaq, qloballaşan dünyada Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**Toğrul AXUNDOV,**
**Bakı Şəhər Yasamal Rayon Məhkəməsinin hakimi**

# Ulu öndər və sahibkarlığın inkişafı

**Dünən "Gülüstan" sarayında İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda konfrans keçirilib.**

Tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə bağlı 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması, bununla əlaqədar ölkəmizdə və xaricdə həyata keçirilən silsilə tədbirlər, ulu öndərin ölkəmizin inkişafı istiqamətində misilsiz xidmətləri barədə fikirlərini bölüşüb, iş adamlarını 25 Aprel Sahibkarlar Günü münasibətilə təbrik edib.





İqtisadiyyat naziri Mikayıl Cabbarov videomüraciətində ölkəmizdə bazar münasibətləri prinsipləri əsasında iqtisadiyyatın, o cümlədən, özəl sektorun formalaşması və inkişafında Ulu Öndərin rolu, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi barədə danışıb. Qeyd olunub ki, ölkəmizdə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşır, sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericilik bazası və dəstək alətləri müasir çağırışlar əsasında təkmilləşdirilir, sahibkar-dövlət münasibətləri inkişaf edir. Qarşıdakı dövrdə də sahibkarlığın inkişafı, biznesin stimullaşdırılması məqsədilə tədbirlər davam etdiriləcək.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi inkişaf strategiyasının sosialyönümlü olduğunu, sahibkarlığın bu strategiyaya uyğun olaraq sosial rifah və məşğulluqda mühüm rol oynadığını vurğulayıb. Nazir Sahil Babayev dövlətimizin başçısının sosial sahəyə xüsusi qayğısı nəticəsində vətəndaş rifahının təminatı istiqamətində atılan addımları, xüsusilə son 5 ildə 4 sosial islahat paketinin icra edilərək sosial ödənişlərdə ciddi artımlara nail olunduğunu diqqətə çatdırıb.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxardığını, qeyri-adi idarəçilik bacarığı və yüksək vətənpərvərliyi sayəsində ölkəmizdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafına nail olunduğunu bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Heydər Əliyevin cəmiyyətdə qadınların rolunu yüksək qiymətləndirdiyini, onların müxtəlif fəaliyyət sahələrində ön sıralarda olmasına dəstək göstərdiyini, Azərbaycanda lider və sahibkar qadınların yetişməsinin hazırda bu siyasətin uğurla davam etdirilməsinin nəticəsi olduğunu qeyd edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin (KOBİA) sədri Orxan Məmmədov ölkəmizdə KOB-ların iqtisadiyyatda rolunun artırılmasının prioritet istiqamətlərdən olduğunu vurğulayıb, bu sahədə görülən tədbirlər, Agentliyin fəaliyyəti və KOB-lara göstərilən dəstək və xidmətlər barədə məlumat verib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev çıxışında sahibkar və işçilər arasında düzgün münasibətlərin qurulması, bunun sahibkarlıq fəaliyyətinə müsbət təsiri barədə danışıb.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev dövlət dəstəyinə adekvat cavab verən ölkə sahibkarlarının Azərbaycanın inkişafına və çiçəklənməsinə öz müsbət töhfəsini verdiyini, pandemiya və 44 günlük Vətən müharibəsi zamanı sahibkarların göstərdiyi dəstəyin dövlət-özəl sektor tərəfdaşlığına gözəl nümunə olduğunu qeyd edib, ulu öndər Heydər Əliyevdən başlayaraq bu günə qədər dövlət-sahibkar əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində görülən işlərə dair fikirlərini bölüşüb.

"Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozal və Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev ümummilli lider Heydər Əliyevin sahibkarlara verdiyi tapşırıq və tövsiyələr, o cümlədən, 2002-ci ilin aprel və may aylarında sahibkarlarla görüşlərinə dair təəssüratlarını, özəl bölmənin inkişafı istiqamətində həyata keçirilən islahatlar barədə müsbət fikirlərini bölüşüblər.

Tədbirdə ulu öndərin həyat və fəaliyyətinə, Azərbaycanın inkişafı və çiçəklənməsi, o cümlədən, sahibkarlığın inkişafı sahəsində gördüyü işlərə həsr olunmuş "Əbədiyyətin ilk əsri. Heydər Əliyev 100" filmi nümayiş olunub.

Konfransın sonunda Prezident İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

Tədbir bədii hissə ilə başa çatıb.

Konfrans çərçivəsində "Gülüstan" sarayının foyesində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgi təşkil olunub.

# Azərbaycanda milli intibah dövrü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına müvafiq olaraq "Heydər Əliyev İli" çərçivəsində respublikamızda geniş proqramlı tədbirlər həyata keçirilir. Həmin tədbirlərdən biri də Mingəçevir şəhər İcra Hakimiyyəti və Mingəçevir Dövlət Universitetinin təşkilatçılığı ilə universitetin akt zalında keçirildi.**



"Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfransa Milli Məclisin sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Dilqəm Tağıyev, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov və digər rəsmi şəxslər dəvət olunmuşdular. Konfrans öncəsi iştirakçılar Heydər Əliyev Mərkəzinin önündə ulu öndərin abidəsi qarşısına gül dəstələri qoyaraq ehtiramlarını ifadə etmiş və Mərkəzdə ümummilli liderin anadan olmasının 100 illiyinə həsr edilmiş sərgi ilə tanış olmuşlar.

Konfrans iştirakçıları əvvəlcə torpaqlarımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etmiş, sonra Azərbaycanın Dövlət Himni səsləndirilmişdir. Açılış nitqi ilə Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxış etmişdir. Ulu öndərin hakimiyyətinin birinci və ikinci dövrlərindəki fəaliyyətindən geniş bəhs etdən icra başçısı Azərbaycanın aqrar dövlətdən sürətlə inkişaf edən, intibah dövrü keçirən bir ölkəyə çevirməsini konkret faktlarla şərh etmişdir.

Konfransda ulu öndərin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunduqdan sonra məruzələr dinlənilmişdir. Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli "Ulu öndər – Milli Müstəqillik uğrunda mübarizənin həqiqi carçısı" mövzusunda, Azərbaycan Mili Elmlər Akademiyasının vitse-prezidenti, akademik Dilqəm Tağıyev "Azərbaycanda elmin və alimin ən böyük himayədarı" mövzusunda, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov "Ümummilli lider və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası" mövzusunda, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov "Heydər Əliyevin milli təhsilimizin inkişafında misilsiz xidmətləri" mövzusunda məruzələrlə çıxış etmişlər.

Məruzələr böyük maraqla qarşılanmışdır.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Yubileyə publisist töhfəsi

**Azərbaycan, Gürcüstan və Qırğızıstan Yazıçılar birliklərinin üzvü, publisist Vüqar Sərdarovun ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr etdiyi "Əvəzsiz lider" kitabı Prezident İlham Əliyevin 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli sərəncamı ilə açılır.**




Siyasi publisistika janrında qələmə alınmış bu əsər Vüqar Sərdarlının ulu öndərinyubileyinə dəyərli töhfəsidir. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc nəşrə yazdığı "Ön söz"də bildirir: "Müəllif qarşısına qoyduğu məqsədə çatmış və oxucularını ümummillili lider Heydər Əliyevin fəaliyyəti ilə yaxından Bu kitabın özəlliyi ondan ibarətdir ki, sadə və oxunaqlı dillə qələmə alınıb, tarixi faktlarla, epoxal səciyyəli xronika ilə zəngindir".

Kitabda Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə, ali rəhbər fəaliyyətinin Moskva illərinə, Naxçıvanda və müstəqil Azərbaycanda xilaskarı missiyasına geniş nəzər salınır. Yubiley nəşrinin "Müstəqil Azərbaycan dövlətinin qurucusu", "Xarici siyasətin Heydər Əliyev modeli", "Müasir hüquqi sistemin banisi", "Daxili İşlər Nazirliyi Heydər Əliyevin dövründə", "İqtisadi islahatlar Heydər Əliyev siyasətinin prioriteti kimi", "Azərbaycan diasporunun formalaşması və inkişafında Heydər Əliyevin rolu" bölmələrində ulu öndərin xalq a xidmətdə keşmiş titanik faəaliyyətinin müxtəlif yönləri sistemli şərh olunur.

***"Xalq qəzeti"***

*Milli Məclisin plenar iclasında*

# Hesablama Palatası hesabat verdi



**Aprelin 25-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. S.Qafaraova nümayəndə heyəti ilə birlikdə Polşa Respublikasına səfəri və keçirilən görüşlər barədə məlumat verdi. Parlamentin sədri aprelin 20-də Varşava Universitetinin dəvəti ilə həmin təhsil ocağında məruzə ilə çıxış etdiyini xatırlatdı.**

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparıldı. Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Ziyafət Əsgərov, Zahid Oruc, komissiya sədri Eldar İbrahimov, deputatlar Fəzail Ağamalı, Razi Nurullayev, Hikmət Məmmədov, Kamran Bayramov, Elşən Musayev, İlham Məmmədov, Şahin İsmayılov, Nizami Səfərov, Aydın Mirzəzadə, Mahir Abbaszadə çıxış edərək deputat Vahid Əhmədovun son müsahibəsində söylədiyi fikirlərə münasibət bildirdilər. Onun müsahibədə yer almış bir sıra iddialarına, deputat həmkarlarının fəaliyyətinə qeyri-obyektiv yanaşmasına etiraz etdilər.

Deputatlar çıxışlarında aprelin 23-də Azərbaycan tərəfinin Laçın–Xankəndi yolunun başlanğıcında Azərbaycan–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin təsis olunmasını təqdir etdilər. Ölkəmizdə, xüsusilə, Qarabağ iqtisadi regionunda böyük layihələrin həyata keçirildiyini, beynəlxalq arenada dövlətimizin sülh müqaviləsinin imzalanmasına yönəlmiş səylərini yüksək qiymətləndirdilər. Hazırki şəraitdə ölkənin yeganə nüfuzlu aparıcı siyasi qüvvəsinin Yeni Azərbaycan Partiyasının olduğunu vurğuladılar. Bildirildi ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında qısa müddətdə xalqın rəğbətini qazanmış və hazırda sıralarında yüz minlərlə insanı birləşdirən bu partiya Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizi yeni, daha böyük uğurlara aparır. Yeni Azərbaycan Partiyası tarixi məsuliyyəti öz üzərinə götürərək, mütəşəkkil siyasi avanqard rolunu layiqincə icra edir, dövlətçilik maraqlarının təmsilçisi kimi fəaliyyətini müvəffəqiyyətlə həyata keçirir.

Müzakirələr zamanı məsələnin İntizam komissiyasına çıxarılması təklifləri səsləndirildi. Müzakirələrin yekununda Milli Məclisin sədri məsələyə parlamentin İntizam komissiyasında baxılacağını söylədi.

Sonra S.Qafarova iclasda 11 məsələnin müzakirə ediləcəyini və gündəliyin birinci məsələsinin Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatının olduğunu bildirdi.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2022-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim etdi. Palata sədrinin çıxışı slaydlar və diaqramlarla müşayiət olundu.

Məruzədə, habelə azad olunmuş ərazilərin bərpası üçün ayrılan vəsaitlərin auditi barədə məlumat verildi. Bildirildi ki, ötən il azad olmuş ərazilərdə dörd uyğunluq auditi aparılıb və bunun biri preaudit formasında həyata keçirilib. İki auditin nəticəsində 1,4 milyon manat vəsait bərpa edilib, bir audit üzrə isə görülən işlər tam və doğru sənədləşdirilmədiyi üçün təxirə salınıb.

Hesabat ətrafında gedən müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Hicran Hüseynova, deputatlar Vüqar Bayramov, İlham Məmmədov, Etibar Əliyev, Bəhruz Məhərrəmov çıxış etdilər. Deputatlar təqdim edilən hesabatın təqdirəlayiq olduğunu söylədilər. Onlar sənədin ətrafı tərtib edildiyini, Palatanın fəaliyyəti haqqında geniş məlumat verildiyini, şəffaflıq prinsiplərinə riayət olunduğunu qeyd etdilər, tətbiq edilən yenilikləri yüksək qiymətləndirdilər. Deputatlar sənədlə bağlı bəzi qeyd və təkliflərini də səsləndirdilər.

Müzakirələrin sonunda Azərbaycan Respublikası Hesablama Palatasının 2022-ci ildə fəaliyyəti haqqında hesabatının nəzərə alınması barədə Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edildi.

S.Qafarova bildirdi ki, gündəliyin bundan sonrakı 10 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Növbəti 4 məsələ isə cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Ona görə də təklif olundu ki, qanun layihələri ayrılıqda təqdim olunsun, müzakirələri birlikdə keçirilsin.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# İlham Əliyevin səfəri Bolqarıstan mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri bu ölkənin KİV-ləri tərəfindən geniş işıqlandırılıb.**

Bu ölkənin "Business.dir.bg", "BTA.bg", "24chasa.bg", "Focus News", "Novini.bg", "Manager.bg", "StandartNews.com", "Banker.bg", "Utroruse", "Novini247", "News.bg" kimi nüfuzlu xəbər portallarında və nəşrlərdə dərc olunan yazılarda aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan), "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasiminin keçirildiyi vurğulanıb. Qeyd olunub ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyənləşdirir. Vurğulanıb ki, əlavə qaz tədarükü "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

"BTA" milli xəbər agentliyi, "Utro-Ruse", "Novini247" saytları isə yazıb ki, Bolqarıstan və Azərbaycan prezidentləri Rumen Radev və İlham Əliyevin iştirakı ilə Sofiyada Avropa İttifaqına təbii qaz tədarükünün təhlükəsizliyinin artırılması məqsədilə anlaşma imzalanıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı Rumen Radevin dəvəti ilə Bolqarıstanda səfərdədir. Agentliyin xəbərində Bolqarıstan Prezidenti Rumen Radevin tədbirdə söylədiyi fikirlərə də yer verilib. Prezident deyib ki, Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. O qeyd edib ki, bu gün imzalanan memorandum iki ölkə arasında tərəfdaşlığı gücləndirir və yeni imkanların aşkarlanmasına yönəlib.




# Anti-Korrupsiya Fəaliyyət Planı üzrə növbəti dəyərləndirmə



**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Ekspertlər Qrupu ölkəmizə rəsmi səfərdə olub.**

Anti-Korrupsiya Fəaliyyət Planı üzrə V dəyərləndirmə mərhələsi çərçivəsində Azərbaycanda həyata keçirilən tədbirlərin beynəlxalq standartlara uyğunluğunun qiymətləndirilməsi ilə bağlı müzakirələrdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Baş Prokurorluğunun struktur qurumları, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, həmçinin Azərbaycan Respublikası Milli Məclisi və Nazirlər Kabineti, Ədliyyə, Daxili İşlər, İqtisadiyyat, Maliyyə Nazirlikləri, Dövlət Təhlükəsizlik Xidməti də daxil olmaqla 20-dən artıq dövlət qurumunun əməkdaşları iştirak etmişlər.

Dəyərləndirmə mərhələsinin ölkə missiyasının yekunlaşması ilə əlaqədar olaraq ekspert qrupunun üzvləri ilə qurumun Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində ölkəmiz üzrə Milli Koordinator – Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi heyət arasında görüş keçirilib.

Sonra Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin meneceri xanım Olqa Savran dəyərləndirmə missiyasının yüksək səviyyədə təşkil edilməsini qeyd edib. Ekspertlər Qrupunun rəhbəri xanım Jolita Vasiliaskuayte yaradılmış işgüzar şəraitə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Xatırladaq ki, səfər çərçivəsində əldə edilmiş məlumatlar əsasında yekun ölkə hesabatının hazırlanaraq cari ilin oktyabr ayında Parisdə keçiriləcək müzakirələrdən sonra qəbul edilməsi nəzərdə tutulur.

***"Xalq qəzeti"***

# Humanitar minatəmizləmə – çağırışlar və innovativ həllər

**BMT-nin Vyana Bölməsində Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü ilə əlaqədar beynəlxalq "Humanitar minatəmizləmə – çağırışlar və innovativ həllər" adlı dəyirmi masa təşkil edilib.**




Azərbaycanın Avstriyadakı səfirliyi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) təşkilatçılığı ilə keçirilən tədbirdə Avstriyada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, BMT-nin Vyana Bölməsindəki daimi nümayəndəliklərinin rəsmiləri və diplomatlar, eləcə də beynəlxalq qurumların nümayəndələri iştirak ediblər.

Dəyirmi masada çıxış edən səfir Rövşən Sadıqbəyli 30 il ərzində Ermənistan işğalı altında olan ərazilərimizin Ermənistan tərəfindən məqsədli şəkildə mina və partlamamış sursatlarla çirkləndirildiyini, bu xüsusda Azərbaycanın dünyada mina təhlükəsindən ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu vurğulayıb.

ANAMA-nın İdarə Heyəti sədrinin müavini Samir Poladov və Azərbaycan Respublikasının Azad edilmiş ərazilərin bərpa və yenidənqurması üzrə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev ölkəmizin işğaldan azad edilmiş ərazilərdə kütləvi şəkildə minalanma, çirklənmənin miqyası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında dayanıqlı və təhlükəsiz məskunlaşması məqsədilə hökumətin apardığı genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyəti, eləcə də əlaqəli şəkildə icra olunan bərpa və yenidənqurma işləri barədə geniş məlumat veriblər.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# XİN Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanat yayıb

**Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan Respublikası tərəfindən Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanat yayıb. Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, Azərbaycan Hökuməti Ermənistan tərəfinin Laçın–Xankəndi yolundan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd şəkildə sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadənin davam etdiyini və bundan qaynaqlanan təhlükəsizlik hədələrini nəzərə alaraq, Azərbaycan ilə Ermənistan arasında sərhəddə yolun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirib.

Məlum olduğu kimi, üçtərəfli Bəyanatın imzalanmasından keçən iki il yarım müddət ərzində Azərbaycan tərəfi davamlı şəkildə Laçın yolunun Ermənistan tərəfindən genişmiqyaslı sui-istifadə hallarına diqqəti cəlb edib. Bu cür sui-istifadə hallarına Azərbaycan ərazisində qalmaqda davam edən erməni silahlı qüvvələrinin şəxsi heyətinin rotasiyası, silah və sursatın daşınması, terrorçuların keçidi, habelə təbii sərvətlərin və mədəni mülkiyyətin qanunsuz daşınmasını misal göstərmək olar.

Yoldan minaların daşınaraq sonradan Azərbaycan Respublikasının suveren ərazilərində basdırılması xüsusilə ağır fəsadlar doğurur. 2022-ci ilin avqust ayından etibarən Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə mina aşkar edilib. Aydındır ki, bu minalar üçtərəfli Bəyanata zidd olaraq Azərbaycan ərazisinə məhz Laçın yolu vasitəsilə daşınıb. Sonuncu dəfə 2023-cü il aprelin 22-də Azərbaycan Ordusunun hərbi yük maşını ermənilər tərəfindən basdırılmış 2021-ci il istehsalı minaya düşərək partlayıb və 3 hərbi qulluqçumuz yaralanıb. Müharibənin sonundan etibarən 294 azərbaycanlı mina qurbanı olub.

Bununla yanaşı, aprelin 22-də Ermənistana məxsus yük avtomobilləri ilə iki ədəd hərbi məqsədlər üçün yaşayış konteynerlərinin və hərbi avtomobillər konvoyunun üçtərəfli Bəyanata və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan ərazisinə keçirildiyi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müşahidə kameraları tərəfindən qeydə alınıb. Daha sonra Ermənistan tərəfindən Laçın–Xankəndi yolunun başlanğıcında Azərbaycan ərazisinə ən yaxın məntəqədə hərbi yaşayış konteynerlərinin yerləşdirilməsi və hərbi infrastruktur qurmaq fəaliyyəti müşahidə edilib.

Qeyd edilən təhdidlər və təxribatlar nəzərə alınaraq Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcəkdir.

Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan Hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir.

Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq.

Yuxarıda qeyd edilən nəzarət mexanizmi Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirmə şəraitində həyata keçiriləcək.

Azərbaycan tərəfi Ermənistanla birgə sərhəddə nəzarət-sərhəd rejiminin şəffaf və təhlükəsiz fəaliyyəti naminə əməkdaşlığa hazır olduğunu bildirir.

ZƏRİFƏ ƏLİYEVA – 100

# Zərifə xanımın yetirmələri onu qədirbilənliklə xatırlayırlar



**Dünyasını dəyişən insan əməllərinə görə xatırlanır. Akademik Zərifə xanım Əliyeva haqqında danışarkən onun həkim, alim kimi geniş erudisiyasından, professionallığından, insan kimi xeyirxahlığından söz açmaq yerinə düşür. Çünki, bilik diapazonu geniş və çoxşaxəli olan Zərifə xanım qısa zamanda həm həkimliyin, həm alimliyin, həm də pedaqoqluğun ən yüksək zirvəsinə yüksələ bilmişdi.**

Fəaliyyəti müddətində hər zaman ciddi problemlərə toxunan, göz xəstəliklərinin qarşısını almaq və onları ən effektiv yolla müalicə etmək üçün çalışan Zərifə xanımın bu gün də aktual olan elmi araşdırmaları və əldə etdiyi nailiyyətlər onun uzaqgörənliyini, böyük hədəflərə nail olduğunun sübutudur. Akademikin rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların bu gün də fəaliyyət göstərən böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

1978-ci il idi. Zərifə xanım elmi təcrübəsini oftalmoloqlara öyrətmək, peşəkar mütəxəssis və alim kimi yetişdirmək üçün ətrafına gənc göz həkimlərini toplayırdı. Xoşbəxtlikdən onların arasında biri də mən idim. Onunla ilk tanışlığımda, məni oftalmologiyadan kiçik bir "imtahanla" sınadığını bu gün də xatırlayıram. "İmtahandan" uğurla keçdiyimə görə məni öz yanında işə götürdü. Bir müddət sonra isə diabetik retinopatiya ilə bağlı namizədlik mövzusunu müdafiə etməyi təklif etdi. Belə bir mövzu seçimini onunla əsaslandırdı ki, bu xəstəlik korluğun əsas səbəblərindəndir və 4 saylı Klinik Xəstəxananın endokrinologiya şöbəsində şəkərli diabetdən əziyyət çəkən xəstələr var ki, onları müşahidə etmək olar.

Şöbəyə Zərifə xanımın qardaşı, nəcib və mülayim insan, professor Tamerlan Əliyev rəhbərlik edirdi. Tamerlan müəllim elə şöbə müdirlərindən idi ki, ondan hər zaman məsləhət almaq mümkün idi. Həmin mövzuda hazırladığım referata Zərifə xanım geniş rəy yazdı. Onun imzası olan bu rəy hələ də kafedranın muzeyində saxlanılır.

Zərifə xanım, diabetik retinopatiyanın səbəbinin, əvvəllər düşünüldüyü kimi, qan damarlarının deyil, xüsusi retinal hüceyrələrin zədələnməsi ilə əlaqədar olması fərziyyəsini irəli sürmüşdü. 1982-ci ildə ilk dəfə olaraq, Azərbaycan Tibb Jurnalında bu mövzuda məqalə dərc edildi. Məqalədə deyilirdi ki, gələcəkdə diabetik retinopatiyanın gedişatını sabitləşdirmək üçün vitreotexnika üsullarından istifadə etmək mümkün olacaq. Əlavə araşdırmalar onun fərziyyələrini təsdiqlədi. Əslində, bu fərziyyələrin irəli sürülməsi ilə oftalmologiyada əsas vəzifələrdən biri öz həllini tapdı.

Onun fəaliyyəti çoxşaxəli idi. 70-ci illərin əvvəllərində yeni istiqamət axtarışında olan Zərifə xanım peşə göz patologiyasına üstünlük verdi. O, həmçinin professor N.B. Şulpina ilə birgə hazırlanmış "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri" monoqrafiyasında təqdim olunan gözün hidrodinamik sisteminin fizioloji əsaslarını öyrənmişdi. Zərifə Əliyevanın "Şəkərli diabetdə göz xəstəlikləri" monoqrafiyası böyük praktiki əhəmiyyətə malikdir. Ümumiyyətlə, akademik Z.Əliyevanın elmi fəaliyyətinin nəticələri nəzərəçarpandır. O, 14 monoqrafiyanın və 160-dan çox elmi məqalənin və təlimatın müəllifi olmuşdur.

Zərifə xanımın insani keyfiyyətləri onun xəstələrə münasibətində özünü göstərirdi. O, həmişə bu fikirdə idi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. Xəstələrdən söz düşəndə "həkim xəstənin ən doğma adamıdır,"– deyirdi.

Bir dəfə 4 saylı xəstəxanada xəstələrə baxış keçirilirdi. Xəstələri necə müayinə edirdi, onlarla necə danışırdı, bunu yalnız görmək lazım idi. Bu şöbədə tez-tez yaşlı, xəstə qadınlar müalicə alırdılar. Zərifə xanım səbirlə onları dinləyir, başlarına sığal çəkir, öpür, qucaqlayırdı. Onlar çox vaxt öz problemlərindən söhbət açır, bəzən ona məktublar verirdilər. Onu heç vaxt cangüdənlər müşayiət etməzdi. Sadəcə olaraq, Volodya adlı sürücüsü gələr və onu evə aparardı.

Onun xeyirxahlığı haqqında indiyə qədər unuda bilmədiyim bir xatirə də var. Bir dəfə gözləmədiyim halda mənə xəbər verdilər ki, Zərifə xanım məni namizədlik dissertasiyamın "qaralama variantı" ilə birlikdə görmək istəyir. Kondisioner zavodunun laboratoriyasında gözləyirdi. Rəhmətlik professor Məmməd Yusufoviç və Nazim Tağızadə də orada idi. Zərifə xanım dissertasiyalarımızı nəzərdən keçirdi, xeyli dəyərli məsləhətlər verdi və təəssüf ki, bu görüşdən sonra onu bir daha görmədik...

Az sonra onun dünyasını dəyişdiyini eşitdik. Bu xəbər, bizim üçün böyük zərbə oldu, sanki yetim qaldıq. Sonra anladıq ki, son görüşümüzdə o, xəstə olduğunu bilsə də, işlərimizin müdafiyəyə hazır və layiq olduğuna əmin olmaq üçün xüsusi olaraq bizi çağırıbmış. Amma, biz həmin gün onun zahiri görünüşündən heç nə başa düşməmişdik.

Ölümündən sonra bizə xəbər verdilər ki, Zərifə xanımın sonuncu vəsiyyəti o olub ki, onun yetirmələri olan biz namizədlik dissertasiyamızı Moskvada Helmqolts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edək. Onun bu xahişini bizə o zaman Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev çatdırmışdı. Biz Moskvaya getdik və namizədlik dissertasiyamızı uğurla müdafiə etdik. Ölümündən sonra da Zərifə xanımın qayğısını hiss etmişik. İllər keçməsinə baxmayaraq, xeyirxah insan, böyük alim Zərifə Əziz qızı Əliyevanın nurlu xatirəsi qəlbimizdə yaşayır və ömrümüzün sonunadək yaşayacaqdır.

***Rasim HACIYEV,***
***Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin şöbə rəhbəri, tibb elmləri doktoru, professor***

# Görkəmli oftalmoloqun yubiley tədbirləri davam edir



**Qərbi Azərbaycan İcmasında görkəmli oftalmoloq alim, ictimai xadim akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş "Zərifə Əliyeva: mənəvi ucalıqdan doğan işıq" mövzusunda konfrans keçirilib.**

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanov Zərifə xanım Əliyevanın həyatının böyük bir hissəsini Azərbaycanda geniş yayılan göz xəstəliklərinin müalicə və profilaktikasına həsr etdiyini, oftalmologiya elminin inkişafına dəyərli töhfələr verdiyini, yüksəkixtisaslı kadrların yetişdirilməsində böyük əməyinin olduğunu bildirib.

İcmanın Qadınlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Zərifə Əliyevanı bütün ömrü boyu xalqı üçün çalışan həkim, alim olmaqla yanaşı, həm də bir qadın və ana kimi xarakterizə edib. Bildirib ki, Zərifə xanım nəcib Azərbaycan qadını, vəfalı ömürgün yoldaşı, fədakar ana obrazının parlaq təcəssümüdür. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın xarakterinin əsas cizgiləridir.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı, professor Paşa Qəlbinur akademik Zərifə xanım Əliyevanın şərəfli həyat yolundan, elmi nailiyyətlərindən, ictimai xadim kimi əvəzsiz fəaliyyətlərindən söz açıblar.



**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində də akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Agentliyin icraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri, agentliyin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Aparat rəhbəri Tural Babayev, Respublika Veteranlar Təşkilatının sədri, Prezident təqaüdçüsü Fatma Səttarova və digərləri çıxış edərək akademik Zərifə Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçdiyini, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verdiyini bildiriblər.

***"Xalq qəzeti"***

# Şuşa və Laçın şəhərlərində su təchizatı layihələri icra olunur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə su təchizatı və kanalizasiya sistemlərinin bərpası və yenidən qurulması işləri uğurla davam etdirilir.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşa və Laçın şəhərlərində layihələrin icrası ilə tanış olub. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəliyində keçirilən təqdimatda Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülən və planlaşdırılan işlər geniş müzakirə olunub. Bildirilib ki, Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra "Azərsu" ASC-nin mütəxəssislərindən ibarət qrup su mənbələrinin, magistral xətlərin, anbarların və paylayıcı şəbəkələrin vəziyyətini araşdırıb. Şəhərin əsas su mənbəyi olan Kiçik Kirs mənbəyi və Kiçik Kirs–Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub, bərpa işləri aparılaraq şəhərə suyun verilişi təmin edilib.

2021-ci ildə Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin yenidən qurulması layihəsi üzrə işlərə başlanılıb. Layihə çərçivəsində Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsi polad borularla yenilənib. Şuşa şəhərinin perspektiv inkişafı nəzərə alınaraq alternativ mənbənin yaradılmasına başlanılıb. Bu məqsədlə Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı bənd, nasos stansiyası və 2,6 kilometr uzunluğunda yeni kəmər inşa edilib. 2022-ci ilin dekabrında mənbədən şəhərə suyun verilməsi təmin edilib. Hazırda şəhərin relyef baxımından hündür nöqtələrində mərkəzi su anbarlarının tikintisi davam etdirilir. Növbəti mərhələdə şəhərdaxili su, kanalizasiya və yağış suları şəbəkələrinin, içməli və tullantı sutəmizləyici qurğularının, nasos stansiyasının inşası nəzərdə tutulur.



Laçın şəhərində işlərin gedişi ilə tanış olan agentliyin sədri Zaur Mikayılova məlumat verilib ki, layihə perspektiv inkişaf nəzərə alınmaqla 18 min nəfərin içməli su və kanalizasiya xidmətlərdən istifadəsinə hesablanıb. Şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi ərazisində 6 subartezian quyusu bərpa edilir, quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu inşa olunur. Su mənbəyindən 426-114 mm diametrli polad borularla 10 kilometr uzunluğunda yüksəktəzyiqli magistral su kəmərinin, nasos stansiyasının, ümumi tutumu 4 min kubmetr olan 9 anbarın tikintisi və bərpası işləri davam etdirilir. İndiyə qədər inşası planlaşdırılan 58 kilometr içməli su və 49 kilometr tullantı su şəbəkəsinin böyük hissəsinin tikintisi yekunlaşıb.

Səfər çərçivəsində Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Zarıslı çayı üzərində tikilmiş sutoplayıcı bəndə, Həkəri çayı üzərindəki sugötürücü qurğuya, həmçinin Şuşa və Laçın şəhərlərində tikinti sahələrinə baş çəkərək layihələrin icra vəziyyəti ilə yerində tanış olub, müvafiq tapşırıqlar verib.

***"Xalq qəzeti"***

# Azərbaycan üçün fəth edilməyəcək zirvə yoxdur

## Buna səbrimiz də yetər, iradəmiz də, gücümüz də



*Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq, bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən, hərbi quruculuq sahəsində.*

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin xalqa müraciətindən**
**9 oktyabr 2020-ci il**

**Dünən "Facebook" dostlarımızdan birinin maraqlı ifadəsini oxudum: "Aman Allah, İlham Əliyevdə nə qədər səbr və təmkin var imiş..." Ötən həftə isə Türkiyənin "Haber qlobal" telekanalında Azərbaycanın uğurları barədə danışan ekspert demişdi ki, tükənməz səbr möhkəm iradə və gücə malik liderlərdə olur. Yəni həm Azərbaycanda, həm də qardaş ölkə Türkiyədə insanlar bu fikirdədirlər ki, bizim çoxsaylı uğurlarımızın təməlində dövlət başçımızın səbri, iradəsi və gücü dayanır.**

Biz bu səbrin, iradənin və gücün təsdiqini son günlər növbəti dəfə gördük. Xatırladaq ki, son iki-üç ayda ermənilərin dövri olaraq törətdikləri təxribatlara münasibət bildirən hərbi ekspertlər, politoloq və konfliktoloqlar israrla deyirdilər ki, İrəvandan Xankəndiyə silah-sursat, hərbi ləvazimat və xüsusən, minaların daşınmasının qarşısını almaq üçün mütləq ölkəmizə girişdə nəzarət-buraxılış məntəqəsi yaradılmalıdır. Hamı bunu deyir və sanki, kimisə tələsdirməyə çalışırdı.

Ancaq cənab Prezident hər zaman, hansısa qərarın verilməsinə tələsmədiyi kimi, bu istiqamətdə atılacaq addımların da vaxtını dəqiq müəyyən etmişdi. Nəhayət, aprelin 23-də Xarici İşlər Nazirliyimizin Azərbaycan tərəfindən Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanatını oxuduq. Bildirilirdi ki, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcək:

"Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir. Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq". Vəssalam! Hamı tələssə də, dövlət başçımız bu məsələnin həllinə də ənənəvi səbr və təmkini ilə nail oldu.

Cənab Prezidentin özü isə Salyanda Azərbaycan Televiziyasına verdiyi müsahibədə dedi ki, bizim iradə və gücümüzü təkcə Azərbaycanda və Türkiyədə deyil, başqa ünvanlarda da yaxşı görüblər: "Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər. Mən indi sadalamaq istəmirəm, bu iki il yarım ərzində bir çox önəmli hadisələr baş vermişdir, həm Azərbaycan–Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri biz və heç kimə imkan verməri ki, bizim ərazimizdə kimsə at oynatsın".

Ancaq, çox təəssüf ki, yeni revanşist şüarlarla münaqişənin tam bitməsini əngəlləməyə çalışan, bununla isə öz maddi-maraqlarını təmin etmək istəyən siyasi qüvvələr Ermənistanı dinc oturmağa qoymurlar. Onlar ciddi-cəhdlə çalışırlar ki, kimsə Azərbaycan ərazisində "at oynatmağa" çalışsın, bizim səbrimiz tarıma çəkilsin və İrəvan rəhbərliyi yeni silah bazarları axtarsın. Bu zaman, başqa bir məqsəd də güdülür: "Onsuz da çökmüş Ermənistan iqtisadiyyatı hansısa kənar qüvvələrdən asılı vəziyyətdə qalsın. Bu faktı dünyanın hər yerində, hamı məhz bu şəkildə qəbul etsə də, Ermənistan katolikosu II Qaregin başda olmaqla bir sıra xəyalpərəstlər həqiqəti olduğu kimi qəbul etmək istəmirlər".

Ancaq Prezident İlham Əliyev həmin təxribatçı çağırışlara da polad kimi möhkəm səbri ilə cavab verir: "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur".

Prezidentin fikrincə, bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün Azərbaycanın hərəkətləri onu göstərir və rəsmi Bakının niyyəti ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun. Yəni, yenə də səbr və təmkin nümayişi.

... Bəli, son onilliklərdə şahidi olduğumuz fakt, arqument və hadisələr göstərir ki, Azərbaycan üçün fəth edilməyəcək zirvə yoxdur. Çünki ölkəmizdə xalq-iqtidar birliyi mövcuddur, güclü ordumuz, qətiyyətli liderimiz, səbr və təmkinli dövlət başçımız və bütün bunlarla yanaşı, çoxsaylı sadiq, sınanmış, etibarlı dostlarımız var. Bu sərvətlərə malik olan dövlət isə təbii ki, istənilən zirvəni fəth etmək iqtidarındadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Amerikalı konqresmenin erməni tərəfkeşliyi

**Azərbaycan dövlətinin son iki il yarımda Qarabağda öz ərazi bütövlüyünün təmin olunması istiqamətində beynəlxalq hüququn qanun və tələblərinə uyğun olaraq atdığı qətiyyətli addımlar təkcə təcavüzkar Ermənistanda deyil, bir çox Qərb dövlətlərində, xüsusilə də ABŞ-da Azərbaycan xalqına, bütövlükdə, türk dünyasına qarşı pozuculuq fəaliyyəti ilə məşğul olan erməni lobbisini və onun diktəsi ilə hərəkət edən bəzi siyasətçiləri bərk narahat edir.**



Konkret misal çəkə bilərik. İki gün əvvəl məlum olub ki, ermənipərəst konqresmen Adam Şiff qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması barədə qanun layihəsi hazırlayıb və sənədi Konqresin müzakirəsinə təqdim etməyə hazırlaşır. Bu barədə "Turan" agentliyi Vaşinqtondakı etibarlı mənbələrə istinadən məlumat yayıb. Yuxarıda qeyd etdiyimiz kimi, bu dəfə də bu qərəzli layihənin arxasında erməni lobbisinin dayandığı hər kəsə gün kimi bəllidir.

Təəssüf və təəccüb doğuran həm də budur ki, ABŞ kimi oturuşmuş demokratik ənənələrə malik olan bir dövlətin ali qanunverici orqanında təmsil olunan şəxslərə, yəni konqresmenlər və senatorlara müxtəlif ölkələrdən olan lobbiçilərlə "işgüzar əlaqələr" qurmağa qanunla icazə verilir. Təbbi ki, qanundakı bu boşluq erməni lobbisi üçün geniş meydan açır. Ermənilərin ABŞ mediasındakı "dostları" vasitəsilə də ictimai fikrə müəyyən təsir və təzyiq göstərmək imkanları da az deyil.

Xatırladaq ki, A.Şiffin hazırladığı qanun layihəsinin ilkin müzakirələri Konqresin müvafiq komitələrində keçirilməlidir. Həmin mərhələdə layihə təsdiq olunarsa, sənəd Konqresin Nümayəndələr Palatasının geniş müzakirəsinə çıxarılacaq. Ümid etmək istərdik ki, Konqresin müvafiq komitələrində müzakirələr zamanı sağlam məntiq və düşüncə üstün gələcək, yəni haqq-ədalət yalan və saxtakarlıq üzərində zəfər çalacaq.

Görünən budur ki, erməni lobbisi uzun illərdir hər vəchlə ABŞ-da xalqımıza və dövlətimizə qarşı öz məkrli siyasətini həyata keçirmək üçün hiyləyə, şərə və böhtana əl atır. Ermənilər Azərbaycana, Türkiyəyə, bütün türk dünyasına qara yaxmaqla məşğuldurlar.

Təəssüf ki, ABŞ Konqresində A. Şiff tək deyil, onun müəllifi olduğu bu qərəzli layihənin qatı anti-Azərbaycan, anti-Türkiyə mövqeləri ilə seçilən nüfuzlu konqresmenlər – Bob Menendes, Nensi Pelosi və başqaları tərəfindən də dəstəklərəcəyi gözlənilir. Tanış soyadlardır, deyilmi? Haqlısınız, onlar Azərbaycanın və Türkiyənin ziyanına olan hər bir layihəyə "okey" deyirlər.

*(ardı 9-cu səhifədə)*

**Bu yol 200 il bundan əvvəl Rusiya və İran, bir əsrdən çox İrəvanla Qarabağ arasında separatçı birliyə, dağıdıcı müharibələrə səbəb olan yol idi. Aprelin 23-də Ermənistanla şərti sərhədi nəzarət-buraxılış məntəqəmizlə rəsmiləşdirməyimiz dövlətin, xalqın və ordunun dəyişməz mövqeyinin, qəti iradəsinin nəticəsi oldu. Bundan sonra "qapımız" yerli və əcnəbi separatçılardan, bölgəmizi təxribat ocağına, "qaynar nöqtəyə" çevirmək istəyənlərdən savayı, ölkəmizə xoş niyyətlə gələn bütün qonaqların üzünə açıqdır.**

# Dairə qapandı

## Bircə yol qaldı...



2022-ci ilin dekabrın 12-də Laçın yolunda başlayan ekofəalların, qeyri-hökumət təşkilatları nümayəndələrinin dinc aksiyası bütün çətinliklərə sinə gərdi, qətiyyət nümayiş etdirdi və bunun sayəsində məntiqi sonluğa nail oldu. 2023-cü il aprelin 23-də, aksiyanın 133-cü günündə Laçın yolunun girişində Azərbaycan Sərhəd Xidməti özünün nəzarət-buraxılış məntəqəsini qurdu, Qarabağ iqtisadi rayonuna giriş-çıxışa nəzarəti tam təmin etdi! Amma ekofəalların təbii sərvətlərimizi talayanlara qarşı etiraz alsiyası davam edəcək.

Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel Azərbaycanın Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi qurmasına münasibətini açıqlayıb. Cənab Borrel Bakının bu qərarının Aİ-nin mövqeyi ilə ziddiyyət təşkil etdiyini bildirib. O, Aİ Şurasının ekstern toplantısının yekunlarına dair mətbuat konfransındakı çıxışında aşağıdakıları söyləyib: "Biz Azərbaycanın birtərəfli qaydada Laçın yolunda nəzarət-buraxılış məntəqəsini qurmasını qınayırıq və hesab edirik ki, bu addım bizim bölgədə gərginliyi azaltmaqla bağlı çağırışımızla ziddiyyət təşkil edir". Aİ-nin baş diplomatı bölgədə vəziyyətin nizama salınmasında Ermənistana və Azərbaycana kömək etməyə hazır olduğunu bildirib, bu məqsədlə Ermənistan ərazisində qurumun mülki missiyasının yerləşdirildiyinə diqqəti çəkib.

Xeyr, cənab Borrel! Otuz il kifayətdir. Daha Bakıya qarşı "yastıq diplomatiyası" keçmir və siz ən azından Ermənistana göndərdiyiniz mülki missiyanızın məxfi raportlarından yaxşı bilirdiniz ki, hay separatçıları bu yoldan Azərbaycan ərazisinə silah-sursat, mina, eləcə də hərbi qüvvə daşınması üçün yararlanırdı. Həmin missiyanın "uzaqvuran" məqsədlərinin nədən ibarət olduğunu da siz bizdən daha yaxşı bilirsiniz. İndi ermənipərəst Qərbin və onların körüklədiyi revanşist daşnakların bütün planları pozuldu. Onlar güman edirdilər ki, Bakı xarici təzyiqlərin qarşısında geri çəkiləcək, Qarabağda nə hərb nə sülh vəziyyəti uzun müddət davam edəcək və Rusiya sülhməramlılarının "nəzarət etdiyi" Laçın yolu ilə haylar qanunsuz yüklərin daşınmasını həyata keçirəcəklər. Alınmadı!

Diqqətinizi maraqlı bir detala yönəltmək istərdik. Cəmi bir həftə əvvəl Nikol Paşinyanı Qarabağ siyasətinə, İrəvanın Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq niyyətinə görə tənqid edən, cavabında Hayastanın baş nazirindən sərt cavab alan bütün ermənilərin katolikosu II Qaregin bu dəfə Laçın yolunda Azərbaycanın nəzarət-buraxılış məntəqəsini quraşdırmasını pisləyib. Qondarma soyqırımın saxta abidəsini ziyarət edən katolikos "Bakının əsl məqsədi erməniləri Dağlıq Qarabağdan qovmaq və ona sahib olmaqdır", – kimi məsuliyyətsiz bəyanat verib.

***

Diqqətli oxucumuzun xatirində olar. 13 il bundan əvvəl, aprelin 26-da həmin Qaregin beynəlxalq dini Sammitdə iştirak etmək üçün Allahşükür Paşazadənin dəvətilə Bakıya gəlmişdi. O, çıxışında dünyadakı müharibələrin və terrorizmin əleyhinə olduğunu bildirdi. "Din xadimlərinin borcu dünyada, eləcə də bölgədə mövcud ekoloji və milli münaqişələrin həllinə yardım etməkdir" – deyən katolikos Qarabağın gələcəyi ilə bağlı bunları söylədi: "Bölgədə bütün sərhədlərin açılacağı, münaqişələrin həll olunacağı gün dünyanın ən xoşbəxt günü olacaq".

İndi bəzi erməni ekspertləri iddia edirlər ki, Laçın yolunda Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin qoyulması Bakı və Moskva arasında "gizli sövdələşmə"nin nəticəsində mümkün olub. Yəni, haylar bir tərəfdən aciz duruma düşdüklərini gizlətmək, digər tərəfdən, Rusiya ilə Azərbaycanın "işbirliyini" dünyaya "faş etmək"lə aranı vurmaq, Bakını beynəlxalq güclərin nişangahına gətirmək üçün əllərindən gələni edirlər.

...Üç gündür ki, Qarabağ separatçılarının başçısı Araik Arutyunyan Laçın–Xankəndi yolunun girişində quraşdırılan yeni nəzarət-buraxılış məntəqəsi ilə bağlı İrəvandan açıqlama gözləyir. "Hraparak" qəzeti yazır ki, ötən gün çağırılan "DQR"-ın "təhlükəsizlik şurası"nın iclasında Arutyunyan sülhməramlı qoşunların rəhbərliyi ilə danışdığını deyib. Onun sözlərinə görə, yaxın günlərdə Ermənistan baş naziri Nikol Paşinyanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığının baş tutacağı gözləniyir. "Paşinyan yalnız həmin telefon danışığından sonra ona Kremlin rəsmi mövqeyini çatdıracaq", – nəşr qeyd edib.

Bu gün İrəvanda, Parisdə, Kaliforniyada oturub "DQR"-ın müstəqilliyindən dəm vuran hayların başbilənləri Ermənistanın sərhəd bütövlüyünü də əllərində bayraq edə bilməzlər. Çünki, Hayastanın sərhədini Bakı deyil, Avropa İttifaqının silahlı-silahsız mülki missiyası, məxfi qrupları, xəfiyyələri pozub. Öz sərhədlərini Gümrüdə Rusiyaya, cənubda İrana, Göyçə dağlarında isə alman-fransız jandarmlarına həvalə edən dövlət suverenlikdən danışmasın gərək. Əgər İrəvan realist düşüncə sahibi olsaydı, bu gün onun üçün ən təhlükəsiz ölkələrin Azərbaycan və Türkiyə olduğunu anlayardı.

Bundan sonra Qarabağ ermənilərinin üzünə sadəcə bir yol deyil, həmçinin Zəngilan, Qazax, Kəlbəcər və ya Naxçıvan nəzarət-buraxılış məntəqələri də açıq olacaq. Onlardan tələb olunan yeganə şey Azərbaycan vətəndaşlığını qəbul etmələridir. Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması hayların Xankəndi və ətrafındakı hərbi kontingentinin bölgəni tərk etməsinə səbəb olacaq. Çünki onların başqa variantları qalmır.

Sonda tam əminliklə deyə bilərik ki, ekofəalların 135 günlük mübarizəsi özünün məntiqi sonluğunu qazandı. Onlar bu nəticəni silahsız, dinc aksiya vasitəsilə əldə etdilər. Bunu, həmçinin, ictimai diplomatiyanın yeni forması, mini-zəfər də adlandlrmaq olar.

Bakının Laçın yolunda quraşdırdığı nəzarət-buraxılış məntəqəsi separatçı haylardan daha çox, Azərbaycanın ərazi bütövlüyünü tanımayan, Qarabağımıza Bakıdan xəbərsiz, həm də saymazcasına gəlib-gedənlərin qarşısına qoyulan qanuni şlaqbaumdur. İrəvandan Xankəndiyə gəlmək istəyənlərin istəyi isə Zəngəzurdan Naxçıvana gedən azərbaycanlıların arzusu ilə düz mütənasib həll ediləcək. Bu baxımdan Laçın yolu indən belə ən qanuni, ən şəffaf və hamı üçün sülh yolu olacaq.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**politoloq:**

– Laçın yolunda nəzarət-buraxılış məntəqisinin (NBM) qurulması Qarabağ erməniləri arasında parçalanmanı daha da sürətləndirəcək. Artıq dairə qapanıb və Qarabağdakı hərbi-separatçı tör-töküntülər əhalinin suallarına cavab verə bilməyəcək, çünki artıq onlar təhlükəsizliyin təminatçısı sayıla bilməzlər. Sərhəddə NBM-ın qurulması ilə Rusiya sülhməramlılarına bəslənən son ümidlər də puça çıxdı. İndiki vəziyyətdə Qarabağdakı silahlı haylar müxtəlif insidentlərə, eləcə də məqsədyönlü təxribatlara əl ata bilərlər. Onların hətta dinc sakinlərdən bir neçəsini güllələyib, günahı Azərbaycanın üzərinə yıxmağa çalışmalarını istisna etmək olmaz. Buradakı hərbi diktatura daha da qəddarlaşacaq. Böyük ehtimalla yaxın vaxtlarda reinteqrasiyanın müzakirəsi üçün Qarabağ erməniləri icmasının üçüncü dəfə Bakıya dəvət olunmasının, hətta onları Rusiya sülhməramlılarının müşayiət etməsinin şahidi olacağıq.

NBM-ın fəaliyyət reqlamenti müəyyən edildikdən sonra Ermənistandan çağırılmış hərbi qulluqçuların geriyə axını başlayacaq. Burada özünüqoruma instinktini də yaddan çıxarmaq olmaz. Qarabağın ermənidilli əhalisi daha heç bir variantlarının qalmadığını anlayır və onları "sona qədər mübarizəyə çağıranlara" elə bunun son olduğunu söyləməyin vaxtının çatdığını bilir. Qarşılarında iki yol görünür: ya hərbi xuntanın girovluğunda qalmaq, ya da Azərbaycan vətəndaşlığını qəbul edib, ölkənin bərabərhüquqlu sakini kimi yaşamaq.

# Qarabağa yol yalnız Bakıdan keçir!



**Çoxdan gözlənilən hadisə baş verdi. Aprelin 23-ü saat 12:00-da Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazisində, Ermənistanla sərhəddə – Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi quruldu.**

Bununla bağlı Dövlət Sərhəd Xidmətinin, Müdafiə Nazirliyinin və Xarici İşlər Nazirliyinin ayrı-ayrılıqda yaydığı bəyanatlarda Azərbaycan və Ermənistan arasında sərhəddə yolun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini şərtləndirən amillər sadalanıb. Bəyanatda bu addımın Ermənistanın Laçın–Xankəndi yolundan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq, sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadəsinin davam etməsinin və bundan qaynaqlanan təhlükəsizlik hədələrinin nəzərə alınaraq atıldığı bildirilib. Ancaq həmişəki kimi, öz amplualarında olan bəzi beynəlxalq dairələr Azərbaycanın gerçəkləşdirdiyi bu fəaliyyətdən əndişələniblər. Bunların arasında ənənəvi anti-Azərbaycan dairələrlə yanaşı, həlledici anda Ermənistanın tərəfini saxlayanlar da var.

***

İlk bəyanat elə rəsmi İrəvandan gəlib. Ermənistan Xarici İşlər nazirliyi Azərbaycan tərəfindən Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasını qanunsuz (?) adlandırıb. Bildirilib ki, Azərbaycan, guya, Laçın yolunu artıq rəsmən bağlayıb.

Ermənistan XİN-in bəyanatında diqqət çəkən məqam Rusiyaya ünvanlanan çağırışla bağlıdır. Rəsmi İrəvan Moskvanı öhdəliklərini yerinə yetirməyə çağırıb: "Biz Rusiya Federasiyasını yolun qeyri-qanuni blokadasını aradan qaldırmaq və Azərbaycan qüvvələrinin Laçın yolunun bütün təhlükəsizlik zonasından çıxarılmasını təmin etməklə üçtərəfli Bəyanatın 6-cı bəndində nəzərdə tutulmuş öhdəliyi, nəhayət, yerinə yetirməyə və bunu BMT-yə açıq şəkildə bildirməyə çağırırıq".

Ermənistanın ardınca onun "bacısı" olan Fransa Azərbaycan tərəfindən Laçın yolunun yeni marşrutunun girişində sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılmasından təəssüfləndib.

ABŞ Dövlət Departamentinin mətbuat katibinin birinci müavini Vedant Patel bəyan edib ki, Vaşinqton baş vermiş hadisədən dərin narahatdır: "Bir daha deyirik ki, Laçın yolu insanların sərbəst hərəkəti və ticarət məqsədləri üçün açıq olmalıdır. Biz tərəfləri sülh danışıqlarını bərpa etməyə, sərhəddə təxribatlardan və düşmənçilik hərəkətlərindən çəkinməyə çağırırıq".

Avropa İttifaqının (Aİ) da mövqeyi özünü çox gözlətməyib. Aprelin 24-də Aİ Şurasının iclasının yekunlarına dair mətbuat konfransında çıxış edən qurumun xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel Azərbaycanın Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmaq qərarını şərh edib. Borrel bunu Azərbaycanın birtərəfli qərarı adlandırıb və gərginliyin azaldılması çağırışına uyğun olmadığını deyib. O, Aİ-nin regionda vəziyyətin nizamlanmasında Ermənistan və Azərbaycana dəstək verməyə hazır olduğunu qeyd edib və Aİ-nin Ermənistan ərazisində missiya yerləşdirdiyini xatırladıb.

Rusiya XİN-in bəyanatı isə məsələlərə zılaşmalara qayıtmağa çağırılıb. Rusiya XİN hesab edir ki, yaranan problemlərin bir çoxu uzunmüddətli dalana dirənmiş vəziyyətlə və üçtərəfli sazişlərin əsas istiqamətləri üzrə danışıqlar prosesində irəliləyişin olmaması ilə bağlıdır: "Biz gözləyirik ki, Bakı və İrəvan siyasi iradə nümayiş etdirəcək və yaxın gələcəkdə bu mənfi dinamikanı aradan qaldıra biləcək. Rusiya tərəfi sülhməramlı kontingentin komandanlığının iştirakı ilə həm siyasi səviyyədə, həm də yerdə Azərbaycan və Ermənistana lazımi dəstəyi göstərməyə hazırdır".

Bəyanatda daha çox maraq doğuran isə sözsüz ki, sonuncu cümlədir: "Biz, həmçinin xarici Qərb oyunçularına və öz fürsətçi gündəmləri ilə işləyən yerli anti-Rusiya elementlərinə xəbərdarlıq edirik ki, Rusiyaya qarşı qarayaxma kampaniyası da daxil olmaqla, vəziyyəti gərginləşdirmək cəhdlərindən çəkinsinlər".

***

Göründüyü kimi, adları yuxarıda qeyd olunan dairələr üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinə canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələr daşınmasına səssiz qaldıqları halda, indi ölkəmizin Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi qurması ilə bağlı bülbül kimi ötürlər. Halbuki Azərbaycan bu addımı zərurətdən atıb. Rəsmi Bakının bu addımı ilə bağlı verilmiş bəyanatlar tamamilə əsassızdır. Öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etməsi ölkəmizin legitim hüququdur. Bu addım bütün beynəlxalq hüquq prinsiplərinə və normalara uyğundur. Onu tənqid edənlər isə Ermənistanın 30 illik işğal rejiminə səssiz qalanlardır. Hər dəfə bu cür hallar onları daha yaxından tanımağımıza səbəb olur.

***

44 günlük Vətən müharibəsindən öncə Qarabağa dünyanın istənilən ölkəsindən istənilən şəxsin daxil olması çox asanlıqla həyata keçirilirdi. Necə deyərlər, açıq qapı idi, kim gəldi keçirdi. Azərbaycanın Zəfəri ilə başa çatan müharibədən sonra bu kimi halların sayında əhəmiyyətli azalma baş verdi. Bununla belə, xaricdən erməniseverlər və Ermənistandan müəyyən vəzifəli şəxslər yenə də Qarabağa gəlib-gedirdilər. İndi bu ərazilərə daxil olmaq istəyən əcnəbilər pasportlarını yoxlanış üçün verməyə və Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının göstərişlərinə əməl etməyə hazır olmalıdırlar. Onlar qaydalara əməl etməli və Azərbaycan qanunlarına hörmətlə yanaşmalıdırlar. Beləliklə, Azərbaycan öz əraziləri üzərində suverenliyini bərpa etmək yolunda daha bir inamlı addım atdı. Sözü imzası qədər keçərli olan ölkəmizin rəhbərliyi bütün dünyaya sübüt edir ki, Qarabağa gedən yol yalnız Bakının iradəsinə əsaslanır!

**Səxavət HƏMİD,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*



**Rasim MUSABƏYOV, politoloq**

– Ermənilər ənənəvi olaraq zarıyıb dünyanı ayağa qaldırmağa çalışacaqlar. Onlara himayədarlıq edən qüvvələrdən də bəyanatlar səslənir. Bizim sinir sistemimiz möhkəmdir, bu cür hadisələrlə dəfələrlə üzləşmişik. Bütün bu çığır-bağırın heç bir praktiki əhəmiyyəti olmayacaq.

Onlar konkret məsələləri müzakirə etmək istəyirlərsə, buyurub masa arxasına əyləşsinlər. Biz Qarabağ ermənilərini Bakıya görüşə dəvət etmişik. Buyursunlar, problemləri müzakirə edək, ancaq çığır-bağır salmaq, "yol açıq olmalıdır, kim istəyir gəlib-getsin, nə daşınır-daşınsın" deməklə olmayacaq.

Fransada, ABŞ-da Rusiyada hesab edirlərsə ki, bu, belə də olmalıdır, buyurub öz sərhədlərini açsınlar. Kim istəyirsə onların ərazisinə gəlsin-getsin, nə istəyirlərsə onların ərazisinə daşısınlar. Sonra gəlib Azərbaycana tövsiyə versinlər.

Qarabağ Azərbaycanın suveren ərazisidir. Azərbaycanın sərhədidir. Bura daxil olmağa ölkəmiz özü nəzarət edəcək. Bundan sonra Azərbaycan nə orada hərbi heyətin rotasiyasına, nə də hansısa silah-sursatın, minaların daşınmasına imkan verəcək. Bizim icazəmiz olmadan o ərazilərə daxil olmaq dövrü başa çatdı. Nə qədər bəyanat verirlərsə versinlər, özləri bilərlər. Azərbaycan hakimiyyəti özünün hüquqi imkanlarından istifadə edərək sərhəd nəzarət-buraxılış məntəqəsində lazımi qayda-qanunu təmin edəcək.

daha kompleks yanaşma baxımından diqqət çəkir. Rəsmi Moskva Rusiya sülhməramlı kontingentinin Qarabağdakı məsuliyyəti, Ermənistan–Azərbaycan təmas xəttindəki vəziyyət, habelə Bakı ilə İrəvan arasında rəsmi dialoqla bağlı ciddi narahatlığını ifadə edib. 23 aprel hadisələrinin inkişafı kontekstində Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatının əsas müddəalarını pozan bütün birtərəfli addımların yolverilməzliyinin qeyd edildiyi bəyanatda tərəflər dərhal mövcud ra-

# Amerikalı konqresmenin erməni tərəfkeşliyi

(əvvəli 8-ci səhifədə)

Bəli, Birləşmiş Ştatların ali qanunvericilik orqanında təmsil olunaraq uzun illər ermənilərin ölkəmizə qarşı işğalçılıq siyasətini dilucu belə pisləməyən həmin konqresmenlər bu dəfə də beynəlxalq hüquqa məhəl qoymadan sözügedən ədalətsiz qanun layihəsini dəstəkləyəcəklər. Təəssüf ki, ağa qara demək onlar üçün bu qədər asandır.

Məlumat üçün bildirək ki, A.Şiff ABŞ Konqresinin Nümayəndələr Palatasının nəzdində illər öncə erməni və məramları tamam başqadır. Bu, Şiffin özünə də yaxşı məlumdur. Amma erməni lobbisinə əsl həqiqət lazım deyil.

Yeri gəlmişkən, A.Şiff hazırladığı saxta qanun layihəsi ilə bağlı videomüraciətində onu da bəyan edib ki, əgər sənəd Konqresdə qəbul olunarsa, guya, bu, ABŞ hökumətinin qondarma "Dağlıq Qarabağ Respublikası"nın öz müqəddəratını təyinetmə hüququnu tanıması anlamına gələcək. Beləliklə, onun sözlərinə görə, düzü əyri kimi göstərmək mümkün lobbisinin səyləri ilə yaradılmış erməni məsələsi üzrə qrupun sədr müavinidir. Hər dəfə qondarma erməni soyqırımı gündəmə gələndə bu qrupun üzvlərinin, eləcə də A.Şiffin "erməni təəssübkeşliyi" özünü xüsusi olaraq biruzə verir.

Azərbaycanın Qarabağda qazandığı parlaq uğurlar, son həftələrdə isə Laçın–Xankəndi yolunda ekofəallarımızın keçirdikləri haqlı etiraz aksiyaları A.Şiffi çox rəncidə salıb. O, dəfələrlə bu ekoloji aksiyanın nəticəsində Xankəndi və onun ətrafında yaşayan ermənilərin, guya, fundamental hüquqlarının pozulduğu barədə əsassız bəyanatlar səsləndirib. Halbuki, ekofəalların məqsəd olacaq! Və buna görə də konqresmen A.Şiff erməni lobbisindən təşəkkür alacaq.

Yox, cənab Şiff! Sizin və xidmət etdiyiniz erməni lobbisinin bu niyyəti həyata keçməyəcək. Ona görə ki, ədalətli olmadığınız kimi, haqlı da deyilsiniz. Beynəlxalq qanunları pozursunuz! Azərbaycan dövləti öz milli maraqlarına uyğun olaraq, qanun və normalar çərçivəsində hərəkət edir. Rəsmi Bakı heç bir xarici qüvvənin təsiri və təzyiqi ilə öz ədalətli mövqeyindən geri çəkilməyəcək!

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*



**Fikrət SADIQOV, siyasi icmalçı, professor**

Qeyd etmək lazımdır ki, konqresmen Adam Şiff tərəfindən hazırlanan bu qanun layihəsi ABŞ Konqresinin Nümayəndələr Palatasının müvafiq komitəsindən keçməlidir. Orada bu sənədi müzakirə edərək rəy verməlidirlər. Sonra bunu Nümayəndələr Palatasının üzvləri səs çoxluğu ilə qəbul etməlidirlər.

Məsələ bununla da bitmir. Bundan sonra layihəni Konqresin yuxarı palatası – ABŞ Senatı təsdiq etməlidir. Bütün bu prosedurlardan sonra isə Birləşmiş Ştatların hazırkı dövlət başçısı Co Bayden bunu təsdiqləməlidir.

Mən düşünmürəm ki, belə qərəzli qanun layihəsi bütün bu müzakirələrdən keçə biləcək. Çünki Ağ evin hazırkı rəhbəri Co Bayden Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktublarda və səsləndirdiyi bəyanatlarda dəfələrlə ABŞ hökumətinin birmənalı olaraq müstəqil Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıdığını bildirib.

Buna görə də ABŞ dövlətinin qondarma "Dağlıq Qarabağ Respublikası"nı müstəqil dövlət kimi tanıyacağına böyük şübhə ilə yanaşıram. Belə bir kökündən yanlış qərar Azərbaycan–ABŞ münasibətlərinə ciddi zərbə vurmuş olar.

Eyni zamanda ABŞ hökuməti və bu ölkənin Dövlət Departamenti Ermənistan və Azərbaycan rəsmilərinin bir araya gələrək onların regionda davamlı sülhün bərqərar olunması naminə konstruktiv müzakirələr aparmaları üçün dəfələrlə təşəbbüslər irəli sürüb, Vaşinqtona dəvət edibdir.

Deməli, rəsmi Vaşinqton münaqişə ilə bağlı vasitəçilik etmək istəyir. Belə bir şəraitdə Konqresin ermənipərəst A.Şiffin hazırladığı qərəzli qanun layihəsini qəbul edərək təsdiq etməsi və sənədin dövlət başçısı tərəfindən imzalanması ABŞ-ın Cənubi Qafqaz siyasətini fiaskoya çevirə bilər. O zaman rəsmi Vaşinqtonun tərəflər arsında vasitəçilik etməyə nə hüquqi, nə mənəvi haqqı olacaq.

# Raket və Artilleriya Qoşunlarında təlimlər davam edir

**Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının bölmələri ilə gecə və gündüz vaxtı keçirilən döyüş atışlı taktiki təlimlər davam edir.**

Plana uyğun olaraq daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan artilleriya divizionlarının tədris-maddi bazası, şəxsi heyətin təchizatı, fərdi və qrup halında normativlərin icra səviyyəsi yoxlanılıb.

Daha sonra bölmələr atəş mövqelərini tutaraq reaktiv yaylım atəşi sistemi və artilleriya qurğularından döyüş atışları icra ediblər.

Bölmələrin praktiki vərdişlərinin təkmilləşdirilməsi və şəxsi heyətin döyüş qabiliyyətinin artırılması məqsədilə keçirilən təlimlərdə şərti düşmən hədəfləri dəqiq atəş zərbələri ilə məhv edilib.

**"Xalq qəzeti"**

# Bayraqlarımızın yandırılması hayların acizliyini göstərdi

**Müharibədə sarsıdıcı məğlubiyyətin üzərindən 2 il 5 ay keçməsinə baxmayaraq, Hayastanda ehtiraslar soyumaq, sular isə durulmaq bilmir.**



Bu ölkədə nə baş verirsə, hamısı layiq olduqları məğlubiyyətin acısından, üzləşdikləri problemlər burulğanından qurtulmaq uğrunda çarpışmaların fəsadlarıdır. Bu çarpışmalar bəzən isterik həddə çatır, hətta apatik xarakter alır. Bəzən yerli narazı kütlənin hansı şərti düşməndən – daxildəkindən, yoxsa xaricdəkindən "qisas" almağa çalışdığını müəyyənləşdirmək belə çətin olur. Son vaxtlar mövcud iqtidara qarşı etirazlar qızışmaqdadır. Məğlubiyyətlə barışmayan, sülhə gəlməyən revanşist qüvvələr həyəcan və hisslərini ən qatı formada büruzə verməkdən belə çəkinmirlər. Azğınlaşmış kütlə bu dəfə etiraz aksiyasında Azərbaycan və Türkiyə bayraqlarını yandırıb. Sağalmaz xəstəliyə mübtəla olmuş daşnak tör-töküntüləri aprelin 24-də "soyqırımı ildönümündə" Türkiyənin və Azərbaycanın bir-birinə bağlanmış bayraqlarına od vurub yandırıblar. "Əzabkeş" hayların miskin xislətini, eyni zamanda acizliyini əks etdirən fotoşəkillər sosial şəbəkələrdə tirajlanmaqdadır.

* * *

"Bayraq yandırmaqla onlar ancaq öz çirkin xislətlərini bütün dünyaya nümayiş etdiriblər". Bu sözləri aprelin 18-də Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində deyib. Onda bir erməni vandalının İrəvanda Ağır Atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycanın bayrağını yandırmasına dövlət başçımızın münasibəti belə olmuşdu: "Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksək səviyyəli şəxsləri ilə birbaşa təmasdadır".

* * *

İndi isə Laçın yolunda nəzarət-buraxılış məntəqəmizin qurulmasına hayların reaksiyası sərhəd tanımır. Bunu erməni mediasına ötəri nəzər saldıqda aydınca görmək mümkündür: "İlham Əliyev və Paşinyan bəzi məsələlərdə razılığa gəliblər". Bunu Ermənistan Respublikaçılar Partiyası sədrinin müavini Eduard Şarmazanov deyib. "Mənim şəxsi qənaətimə görə, İlham Əliyevlə Nikol Paşinyan bu barədə əvvəlcədən razılaşıblar", – deyən Şarmazanovun qarşıda nələrin baş verəcəyi ilə bağlı proqnozları heç də gerçəklikdən uzaq görünmür. O, mülahizələrini aşağıdakı kimi təsnifatlandırıb:

* Qarabağ Azərbaycanın tərkibində tanınacaq;

* Ermənistan–Azərbaycan sərhədindəki bütün strateji yüksəkliklər Azərbaycanın nəzarətinə veriləcək;

* Azərbaycana Laçın, Sus və Zabux, Gorus–Qafan yolundan sonra bütün anklavlar, o cümlədən Kərki veriləcək;

* Rusiya sülhməramlıları Laçından çıxarılacaq;

* Ermənistan Türkiyənin tam nəzarətinə veriləcək.

Respublikaçılar Partiyasının sədr müavini E.Şarmazanov bütün bunların qarşısını yalnız Paşinyanın istefasının ala biləcəyi versiyasını irəli sürür. Amma o, prosesə yeganə geosiyasi manеə kimi Rusiya və İranın adını çəkir. "Əgər Nikol hakimiyyətdə qalsa, Ermənistan türk hipermarketi olacaq", – kimi baş naziri aşağılayıcı ifadələri dilə gətirməkdən çəkinməyən erməninin durumunu apatiya kimi dəyərləndirmək olar.

Hayların qəzəb və etirazlarının sonuncu ifadə üsulu bayraqlarımızı yandırmaq oldu. Düşmən əlində alovlanan bayraqlarımız isə məhz hayların miskinliyinin və acizliyinin əlamətinə çevrildi.

**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

# Son sutkada 18 yoluxma qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 18 yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib.

İndiyədək ölkədə, ümumilikdə, 831 min 128 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 689 nəfər müalicə olunaraq sağalıb, 10 min 230 nəfər vəfat edib. Aktiv xəstə sayı 209 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 913, bu günə qədər isə, ümumilikdə 7 milyon 584 min 235 test icra olunub.

**"Xalq qəzeti"**

# Mir Cəlal – dəyişən dəyərlər müstəvisində

## *Ədəbi kimliyi, elmi-nəzəri düşüncəsinin miqyası...*

***XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev, eyni zamanda, görkəmli tədqiqatçı alim olmuşdur.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



**Bizdə milli dövlətçilik ideyasının tarixi uzağa getməsə də, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənir. XIX əsrin sonu, XX əsrin əvvəlləri milli oyanış dövrü kimi səciyyəvidir. Qərbə inteqrasiya, Şərqi geri salan səbəblər, azad və milli düşüncənin hasilə gəlməsi və s. Bu dövrdə bütün diqqət milli təfəkkürün və məfkurə istiqamətinin düşüncədə və əməldə ifadəsinə nail olmağa yönəlmişdi. Bu mənada, Azərbaycan Xalq Cümhuriyyəti bir tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu deyil, XIX əsrin sonu XX əsrin əvvəlləri boyu davam edən milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsidir. O dövrdə, sanki hədəflər də, tədqiq predmetləri də eyni idi. Diqqət edək, Axundzadənin "Kəmalüddövlə məktubları", Hüseynzadənin "Siyasəti fürusət", Ağaoğlunun "Üç mədəniyyət" əsərlərinin hər birində milli oyanış amili, Şərqin məzlumluğunun kökündə duran məsələlər, Qərbin hansı cəhətlərindən yararlanmağın konturları dəqiq göstərilirdi.**

Sonra sovet dövrü hakim oldu. İdeoloji təhriflər, faktın bilərəkdən yanlış yozumu, tarixi yaddaşın pozulmasına cəhdlər, milli-mənəvi dəyərlərin sıradan çıxarılması və s. Bu dövrdə ziyalılardan az bir qismi öz ədəbi kimlikləri ilə sənətin yaradıcı impulsunu qoruyub saxlamağa müvəffəq oldu, həm yeni dövr, həm də özü ilə mübarizədən qalib çıxdılar. Onların arasında görkəmli yazıçı, alim Mir Cəlalın yeri və mövqeyi ayrıca qeyd olunmalıdır.

1920-30-cu illərdən başlayaraq ədəbiyyat cəmiyyət həyatına təsiri baxımından aktiv fazaya daxil oldu. Öndə gedən ziyalıların əsas qismi ədəbiyyatın cəmiyyətə, daha çox alt qatlara, onların fikrinə, düşüncəsinə təsir eləmək imkanını duyaraq, bundan faydalanmağa çalışdı. Bu faydalanmada şəxsi mənfəətə xidmət etmək amili də vardı, xalq mənafeyi, ümumi dəyərlərin qorunması, onların gələcəyə bütöv və sağlam şəkildə ötürülməsi niyyəti də. Mir Cəlal ikincilərdən idi. O, publisistikası vasitəsilə mətbuatda çevikliyi, cariliyi təmin edirsə də, nəsri ilə duyğuları, emosionallığı, bədiiliyi öz gücündə saxlayır, əsərləri ictimai-siyasi ab-hava ilə bağlı ən aktual prosesləri cəmiyyətin dərinliklərinə apara bilirdi.

Bu kontekstdə görkəmli ədibin elmi-nəzəri araşdırmalarının də rolu az deyil. İstər klassik irslə bağlı meydana qoyduğu fundamental əsərlər, istərsə də dövrün cari ədəbi prosesinə verdiyi operativ reaksiyalarının yer aldığı məqalələri onun təkcə ədəbiyyatın dərin bilicisi olduğunu meydana qoymur, eyni zamanda, milli təəssübkeşlik hissinin aliliyinə dəlalət edir. Mir Cəlalın nəsr və poeziya ilə bağlı yanaşmaları bu gün bizə sovet dövrünün mənzərəsini bütün mürəkkəbliyi ilə anlatmaqla bərabər, həm də məlum bir həqiqətin üzərinə işıq salır: əsl sənətkar bütün hallarda öz doğma xalqının oğludur, onun dəyərlərini və meyarlarını zamanın sərt sınaqlarından, aşınmalarından bütöv və zədəsiz çıxara bilərdir.

Azərbaycan nəsrinin tarixini, təkamülünü araşdıran, tədqiq edən alimlərin cərgəsində Mir Cəlalın özünəməxsus yeri var. Onun elmi-nəzəri yaradıcılığında əldə etdiyi qənaətlər nəsrin təkamül yolu və qazandığı poetik xüsusiyyətlərin, apardığı poetik axtarışların nəsr nümayəndələrinin yaradıcılığında müxtəlif təzahürləridir ki, bu gün ətraflı araşdırılmağa, tədqiq edilməyə imkan verir.

Mir Cəlal nəsrimizin inkişaf yolunu müxtəlif yazıçıların (İ.Qutqaşınlı, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, M.Hüseyn və s.) yaradıcılıqları əsasında təhlil edən tədqiqatçı kimi bununla bağlı çox əhəmiyyətli qənaətlər əldə etmişdir. Bu qənaətlərə müxtəlif elmi məqalələrində də, tənqidi yazılarında da rast gəlmək olar. Məsələn, onun "Klassik nəsrimiz haqqında" məqaləsində qeyd edilir ki, "daha qədim zamanlarda, Nizami dövrünə aid elimizdə heç bir yazılı nəsr əsəri yoxdursa, XVI əsrdə dahi Füzulinin qüvvətli nəsr əsərləri göstərir ki, Füzuli zamanında Azərbaycanda işlənmiş, bədii və ədəbi cəhətdən formalaşmış, original stil qəbul etmiş bədii nəsr var imiş".

Bu fakt ədəbiyyatşünaslıq tariximizdə dəfələrlə təsdiqini tapıbdır. Belə ki, Mir Cəlal kimi nəsrimizin tarixini Füzuli dövrü ilə əlaqələndirən digər alimlərimiz də vardır. Məsələn, Hidayət Əfəndiyev də "Azərbaycan bədii nəsrinin tarixindən" kitabında nəsrin tarixinin yazılı ədəbiyyatda Füzulinin əsərləri ilə bağlanıldığını qeyd edir və ilk nəsr nümunələri kimi onun "Həqiqətüs-süeda" və "Şikayətnamə"sini təhlilə çəkir. Lakin bu zaman obyektiv olaraq ortaya çıxan bir suala – "nə üçün nəsrin ilk nümunələrinin yarandığı bu tarixi dövrdən sonra bu qədər boşluq olub" sualına Mir Cəlalın gəldiyi qənaət əsaslı bir cavab kimi səslənməkdədir.

O, nəsrin orta əsrlərdə və ondan sonra hələ uzun müddət inkişaf etməməsinin səbəbi tək Şərqdə nəsrə "əsl ədəbiyyat" kimi baxılmadığını, "söz sənətində ancaq şeir yazmağın hünər sayıldığını" qeyd edirdi. Bu fikirlər, həqiqətən də, məntiqlidir. Hər halda, Şərq ədəbiyyatında poeziyanın, Qərb ədəbiyyatında isə nəsrin uzun əsrlər boyu hakim mövqedə olması, ədəbiyyat tariximizdə poeziyanın bu qədər şaxələnmiş, dərinlərə kök atmış bir şəkildə mövcudluğu, hətta şifahi xalq ədəbiyyatında da şeir formalarının daha rəngarəng olması faktı belə bu müddəanın təsdiqi kimi çıxış edə bilər.

Orta əsrlərdə inkişaf edə bilməyən, hətta XIX əsrdə belə çox müraciət edilən forma olmayan nəsr XX əsrin əvvəllərindən başlayaraq ədəbiyyatımıza əsaslı şəkildə, çoxjanrlı formada daxil oldu və öz yerini illər keçdikcə daha da möhkəmləndirməyə başladı. Hərçənd ki, əsrin ilk onilliklərində "ən çox inkişaf etmiş, ən geniş yayılmış ədəbi janrları publisistika və dramaturgiyadır", – yazan Nizami Cəfərov milli, yaxud ənənəvi janrları sürətlə sıxışdıran, arxa plana keçirən bu "qeyri-milli mənşəli" janrların Azərbaycan təfəkkürünə çoxdan deyil, XIX əsrin ortalarında gəlməsi faktını xüsusi olaraq vurğulayır və dramaturgiya ilə publisistikanın əsrin əvvəllərində yaşarılığının və qoşa addımlamasının səbəblərindən biri kimi bir faktı qeyd edirdi: "Onu da nəzərə almaq lazımdır ki, haqqında söhbət gedən mərhələnin dramaturqlarının əksəriyyəti həm də publisist idi: Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Hüseyn Cavid…".

Beləliklə də, nəsrin tarixini izləyən bütün tədqiqatçılar müasir nəsr anlamına yaxın ilk nümunələri arasında İ.Qutqaşınlının, A.Bakıxanovun, M.F.Axundovun əsərlərini xüsusi olaraq qeyd edirlər, lakin, bu, bir faktı dəyişmir ki, onun təkamül prosesi, inkişaf mərhələsi məhz XX əsrin ilk illərindən başlayır.

Bu baxımdan XX əsrin nəsrinin müxtəlif mərhələləri, ideoloji təsirləri adlayaraq, müxtəlif poetik dəyişikliklərə uğrayaraq bu günümüzə qədər gəlib çatdığını qətiyyətlə söyləmək olar. Onun təşəkkül dövrünün böyük bir hissəsini "sovet ədəbiyyatı" dövrü kimi təhlil etməli olsaq belə, bu fakt nəsrin əldə etdiyi nə ideya-estetik xüsusiyyətləri, nə də poetik çalarları dəyişmir.

Mir Cəlalın elmi-nəzəri irsində XX əsr nəsrinin təhlili, dəyərləndirilməsi, realist nəsr nümunələrinə xüsusi olaraq diqqət yetirilməsi əsas əhəmiyyət kəsb edən istiqamətlərdəndir. Onun elmi araşdırmalarında Cəlil Məmmədquluzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Məmməd Səid Ordubadinin, Abdulla bəy Divanbəyoğlunun, Abdulla Şaiqin, Süleyman Sani Axundovun nəsrinin poetik xüsusiyyətləri, nəsr nümunələri vasitəsilə XX əsr nəsrinin əldə etdiyi poetik yeniliklərin geniş təhlili aparılmış, əsaslı elmi qənaətlər əldə edilmişdir. Ümumiləşdirmə aparmalı olsaq, qeyd etməliyik ki, Mir Cəlalın elmi-nəzəri irsində XX əsrin nəsri iki mərhələdə – 30-cu illərə qədər və 30-cu illərdən sonrakı mərhələdə tədqiq edilibdir. Bu tədqiqatların elmi-nəzəri sanbalı, əhatə genişliyi, əldə edilmiş elmi nəticələrin obyektivliyi və elmi dəyəri bu günün prizmasından dövrü xarakterizə etməyə imkan verir, amma ondan daha çox alimin özünün obrazına layiqli status qazandırır. İlk növbədə o səbəbdən ki, Mir Cəlalın elmi-nəzəri dəyərləndirməsində nə dərəcədə siyasi ideologiyaya əsaslanma faktı olsa da, onun tədqiqatlarında konkret ədəbi mətnin, ədəbi-tarixi prosesin, konkret olaraq hansısa tədqiqat predmetinin, problemin təhlili daha əsaslı yeri tutur.

Ümumilikdə, Azərbaycan nəsri və onun poetik axtarışlarından danışarkən Mir Cəlalın elmi-nəzəri yaradıcılığında 30-cu illərə qədər yaranmış nümunələr, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, A.Şaiq, S.S.Axundov kimi yazıçıların yaradıcılıqları və bu irsin əsasında nəsrin meydana çıxan poetik xüsusiyyətləri daha obyektiv şəkildə təhlilə çəkilə bilir. O, "Mirzə Cəlil qısa, mənalı, psixoloji hekayənin böyük ustasıdır", – yazanda da, "Mirzə Cəlilin hekayələrində bir bitkinlik, müxtəsərlik, yığcamlıq vardır ki, bütün klassik nəsrimizdə davam və inkişaf etdirilməkdədir. Bu hekayələr bəzən böyük bir roman qədər mənalı, əhatəedici və güclüdür", – qənaətinə gələndə də, Mirzə Cəlilin bədii təsvirdə hadisə, fakt və insanları müqayisə üsulundan istifadə etməyini çox sevdiyini yazaraq "Kontraslı lövhələr realizm üçün çox məqbul, münasib üsuldur. Rənglər, səslər, münasibət və görüşlər öz-özündən aşkara çıxır, aydınlaşır. …Bu yaradıcılıq üsulundan ədib bütün janlarda (dram, nəsr, felyeton) istifadə etmişdir", – qənaətini verəndə də tək "Molla Nəsrəddin" məktəbinin yaradıcısının deyil, ümumilikdə, nəsrimizin poetik axtarışlarını təhlilə çəkir, bu problemə məhz bir yaradıcılığın sferasından yanaşaraq ümumiləşdirmələr aparırdı. C.Məmmədquluzadə həm öz əsrinin "səciyyəvi tiplər silsiləsini yaratmış" nümayəndəsi kimi təhlil edilir, həm də bu cür tip yaradıcılığının, satiranın, tənqidin XX əsr nəsri üçün xarakterik bir xüsusiyyət olduğu göstərilirdi. Çünki eyni tip yaradıcılığı Ə.Haqverdiyevdə də vardı. Əsas olan isə bu idi ki, həmin "tip"ləri ədəbiyyata ötürən real şərait, real zəmin – o tipləri yetişdirən problemlərə dolu cəmiyyət və canlandırılması üçün qısmən də olsa, azadlıq var idi.

Realist hekayə janrını Azərbaycan ədəbiyyatında "təzə hadisə" adlandıran Mir Cəlal onun cəmi bir əsrlik tarixi olduğunu yazaraq, janr etibarilə də nəsrin formalaşma prosesini təhlilə çəkirdi: "…İyirminci əsrin əvvəllərində bizdə hekayə, xüsusilə realizmi təmsil və təcəssüm etdirən janr olmaq etibarilə əhəmiyyətli yer tuturdu".

Mir Cəlal C.Məmmədquluzadənin hekayələrini məzmununa görə iki yerə bölərək – portret və hadisə hekayəsi kimi təhlil edir və bununla da XX əsr hekayəsinin poetik imkanlarını dəyərləndirmiş olurdu. Yaxud Haqverdiyevin nəsri ilə bağlı təhlillər aparırkən onun simvolizm tərəfdarı olduğunu qeyd edir, lakin "sənət sənət üçündür" meylinə uymadığını vurğulayırdı: "Ədib simvoldan bir ədəbi məcaz, bir işarə, vasitə kimi istifadə etmişdir". Bununla belə, öz elmi-nəzəri mülahizələrində bu cür qeydləri etməklə, əslində, Mir Cəlal o zaman mövcud olan bir fikri – realizmdən başqa heç bir cərəyanın, meyilin olmadığı düşüncəsini bilərəkdən və ya bilməyərəkdən dağıtmış olurdu. Bu isə ədəbiyyat tarixində ədəbi məktəbləri və ədəbi cərəyanları araşdıran tədqiqatçılar üçün əhəmiyyətli bir təkan, impuls idi.

Mir Cəlalın apardığı bütün bu təhlillərdən bəlli olur ki, XX əsr nəsri əsrin əvvəllərində hekayə janrı ilə ədəbi təfəkkürdə özünə yer etməyə başlasa da, sonrakı mərhələ, 30-cu illərdən başlayaraq, artıq roman yaradıcılığı üçün şərait yaradırdı. Amma bu şərait təəssüf ki, təbii təkamül prosesinin deyil, "kənar"dan diktə edilən, "sosialist realizmi"ni yaradan, "hakim ideoloji" basqının tələbatı idi. "Sovet ədəbiyyat" nəsri "yerlərdə" mütləq roman janrına adlamalı idi.

Mir Cəlal nəsrimizə yeni ayaq açmaqda olan roman janrını xarakterizə edərək "müasir və mütərəqqi ideyaların cürətlə təbliği, bədii forma gözəlliyi, maraqlı, sadə və təbii hekayə üsulu, hadisələrin müstəqim və sürətli inkişafı, tam və bitkin süjet, aydın xarakteristikalar, sağlam lirika, dildə canlılıq – romanın əsas bədii keyfiyyəti bunlardan ibarətdir", – yazır, roman janrını yazıçılardan tələb edən ictimai-siyasi "sifariş"in yerinə yetirilməsi üçün yazıçılara "ipucu" verirdi.

O, Nəriman Nərimanovun yaradıcılığını dəyərləndirərkən onun məhz romanını təhlil edir, ədibin realist ədəbiyyatın inkişafı tarixində əhəmiyyətli yer tutduğunu bildirir, əsərlərinin az olmasına baxmayaraq, məzmun və dəyər etibarilə önəmliliyini vurğulayırdı. Mir Cəlal "Bahadır və Sona"nı Azərbaycan roman janrının ilk nümunələrindən biri kimi dəyərləndirərək, məhəbbət mövzusunda yazılmış əsərin zahirən Şərq ənənəvi sevgi dastanlarına ("Əsli və Kərəm", "Tahir və Zöhrə", "Xumar və Sənan", "Abbas və Gülgəz") yaxın olduğunu söyləyir və onu "keçmiş cəmiyyət üçün çox səciyyəvi bir faciə" kimi xarakterizə edirdi.

Yaxud XX əsr nəsrinin poetik axtarışlarını M.S.Ordubadinin yaradıcılığı əsasında dəyərləndirərək "Bu dövrdə Ordubadinin ən dolğun bədii əsəri, şübhəsiz ki, "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab" romanıdır", – yazır və əsərin qələmə alındığı dövrdə roman janrının Azərbaycan ədəbiyyatında yeni bir forma olduğunu söyləməklə onu bu sahədə ilk qələm təcrübələrindən biri kimi dəyərləndirməyin vacibliyini xatırladırdı.

"Bədii nəsrimiz yeni mərhələdə" məqaləsində Mir Cəlal "müasir ədəbiyyatımızın ən qabaqcıl sahəsi bədii nəsr sayılırsa, bədii nəsrin də qabaqcıl sahəsi roman və povest sayılır. Bədii nəsrimiz gəncdirsə, bu epik şəkillərimiz ondan da gəncdir", – yazaraq o dövr üçün yeni olan, bədii təfəkkürün hələ tam mənada qavramadığı, qəbul etmədiyi janrla bağlı təhlillər aparır, çıxardığı qənaətləri belə ümumiləşdirirdi: "Roman geniş xalq həyatını geniş əhatə etməli, nəinki şəxsin, ailənin, hətta nəsillərin də taleyini verməli olan böyük ədəbi şəkildir. Roman həm əsri, həm də günü, həm xalqın, həm də fərdin taleyini əks etdirir. Müəyyən dövrdə roman qəhrəmanının, hətta nəslin mükəmməl sərgüzəşti, tərcümeyi-halı deməkdir".

Məqalələrində Mir Cəlal dil məsələsini, dövrün meydana çıxardığı əsərlərdə dəyərləndirilməli olan əsas xüsusiyyət kimi qabardır və "indi ən mühüm məsələlərdən biri yalnız dil mədəniyyəti deyil, ümumən, sənətkarlıq məsələsini bütün kəskinliyi ilə qoymaq, yazıçılarımızın diqqətini buna cəlb etməkdən ibarətdir", – yazır. Bir zamanlar xalqımızı, mədəniyyət adamlarını narahat edən və Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Cəfər Cabbarlı və Səməd Vurğun kimi qələm sahiblərinin "ömürlərinin çox hissəsini uğrunda mübarizəsinə sərf etdikləri" dil, xalq ruhu, xalq dili məsələsinin "indi ədəbiyyatımızda ən böyük tələb kimi qoyulur və həll olunur", – qənaətinə istinad nöqtəsi kimi yanaşmalı olurdu.

Mir Cəlalın yaradıcılığını təhlil etdiyi, üzərində dayandığı yazıçılardan biri Mehdi Hüseyndir. O, Mehdi Hüseynin yaradıcılığının təhlilinə ayrılıqda bir məqalə həsr edib. Lakin ümumi dəyərləndirmə apardığı "Bədii nəsrimiz yeni mərhələdə" məqaləsində o, "Abşeron" romanının müəllifi Mehdi Hüseynin yeni əsərindən– "Qara daşlar"dan danışır. "Romanda sürətlə inkişaf etdirilən kəskin bir münaqişə" olduğunu qeyd edir, Bakı yaxınlığında neft kəşfiyyatı üzərində gedən və bütün diqqətləri toplayan əsas münaqişənin kolxoz kəndi ilə, ziyalıların həyatı ilə bağlandığını, "yalnız vətəndaşlıq duyğularını yox, həm də adamların fərdi həyatını, ailə-məişət və məhəbbət səhnələrini əhatə etdiyini" vurğulayır. Müxtəlif səhnələrin təsviri üçün iri həcmli parçalar sitat gətirməklə yenə də "Mehdi Hüseynin əsərində həyat həqiqətini qabarıq əks etdirən gərgin səhnələr çoxdur", – kimi qənaətlər səsləndirir.

Bir məqama diqqət çəkməyə dəyər. Mir Cəlalın üzərində dayandığı və təhlil etdiyi əsərlər ədibə nisbətən söz demək imkanı verən mətnlər idi. Məsələn, o, müasir kəndimizin təsvirinə həsr olunmuş görkəmli əsərlərdən biri – Mirzə İbrahimovun "Böyük dayaq" romanı haqqında da qənaətlərini qeyd edirdi. "Burada yalnız təsərrüfat məsələləri deyil, xalq həyatı, ailə, ənənə, əxlaq, ümumən köhnəlik ilə yenilik arasındakı barışmaz mübarizə verilir. Romanda bir neçə xətt üzrə inkişaf etdirilən əhvalat bu mərkəzi sima ətrafında dolanır", – yazan tədqiqatçının yazı intonasiyasından, təhlil istiqamətindən də görünür ki, Mir Cəlal sovet dövrünün sərt qayda-qanunlarının işlək olduğu dövrlərdə belə mümkün qədər ədəbiyyat, sənətlə bağlı obyektiv elmi-nəzəri qanunauyğunluqlardan çıxış etməyə çalışıb. Axı dövr mürəkkəb idi, yazılan mətnlər adətən "sosialist realizmi"nin tələbləri çərçivəsində meydana qoyulduğundan tədqiqatçının səmimi fikir söyləməsini əngəlləyirdi. Lakin Mir Cəlal İsmayıl Şıxlının "Ayrılan yollar", Həsən Seyidbəylinin "Telefonçu qız", Əli Vəliyevin "Turaclıya gedən yol", Əyyub Abbasovun "Zəngəzur" əsərlərini təhlil predmetinə çevirəndə belə konkret qənaətlərdən çıxış edir, "bədii nəsrimizin yarıtmaz cəhətlərindən biri satira və yumorun zəifliyidir", – kimi cəsarətli qənaətlər səsləndirməkdən çəkinmirdi.

Akademik Nizami Cəfərovun qənaətlərinə istinad etsək, "yaddan çıxarmaq olmaz ki, 30–50-ci illər azərbaycançılıq dünyagörüşünün formalaşması tarixində mühüm mərhələ olmuş, ədəbiyyat həmin dünyagörüşünü çox fəal şəkildə təbliğ etmişdir. Haqqında söhbət gedən tarixi şəraitdə Azərbaycanın mənəvi müstəqilliyi barədə düşünmək belə az şey deyildi".

Dil amili, sənət ucalığı, klassik irsə və ənənəyə bağlılıq, təqlidçilikdən qaçmaq, dövrün yenilikçi ruhunu duymaq səriştəsi və s. Mir Cəlalın dəqiq meyarlar sistemində ədəbi fakta, ədəbi prosesə yanaşmanın ahəngi dəyişməzdir. Sənət kredosu bu ali ölçüləri meyara çevirdiyi üçün yaşarıdır. Ona görə istər bədii, istərsə də elmi-nəzəri irsi zamanla səsləşir, milli düşüncə tariximizin bugünündə inamla iştirak edir, əsrlərlə yol gedə, yol ola bilir.

***Elnarə AKİMOVA,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru***

# Sahibkarlığın milli iqtisadiyyata töhfəsi artır

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun məlumatına görə, bu ilin ötən 3 ayı ərzində sahibkarlığın təşviqi və biznes mühitinin təkmilləşdirilməsi nəticəsində investisiyaların həcmində əsaslı artıma nail olunub, qeyri-neft-qaz sektoruna investisiya qoyuluşu ötən ilin müvafiq dövrünə nisbətən 51,7 faiz artaraq 2 milyard 251,7 milyon manata çatıb.**




Dövlət Vergi Xidmətinin bu göstəricilərlə bağlı səsləşən informasiyasında isə bildirilir ki, ölkədə sahibkarlar üçün biznes mühitinin təkmilləşdirilməsi, leqal fəaliyyətin gücləndirilməsi, yeni yanaşmalar, vergiödəyiciləri ilə təmassız münasibətlər və rəqəmsal xidmətlərin əhatəsinin genişləndirilməsi büdcə gəlirlərinin artmasına müsbət təsir göstərib. Belə ki, cari ilin yanvar–mart ayları ərzində adıçəkilən bu qurumun xətti ilə dövlət büdcəsinə 4 milyard 899,5 milyon manat həcmində vergi daxil olub. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 74,8 faiz və ya 2,1 milyard manat artım deməkdir.

Qeyri–neft–qaz sektorunda daxilolmalar 2 milyard 618 milyon manat təşkil edib. Keçən ilin I rübü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 16,4 faiz çox olub. Dövlət Vergi Xidmətinin xətti ilə cari ilin üç ayı ərzində proqnozdan əlavə 1,1 milyard manatdan çox vəsait toplanıb.

Burada bir məqamı da xüsusi vurğulamaq istərdik. Vergi daxilolmaları həcminin yüksəlməsində fərdi sahibkarların sayının getdikcə artması da mühüm rol oynayıb. Respublikada biznes mühitinin təkmilləşdirilməsi, biznesin leqal fəaliyyətinin genişlənməsi iş adamlarının fəaliyyətini daha da canlandırıb. Bu, eyni zamanda, özəl sektorun əhatə dairəsini genişləndirib. Belə bir fikri konkret rəqəmlə ifadə etsək, deyə bilərik ki, respublikamızda cari il aprel ayının 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 54 mindən çox artaraq 1 milyon 248 min 929 nəfər təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, keçən ilin müvafiq dövrü ilə müqayisədə fərdi sahibkarların sayı 4,5 faiz və ya 53 min 748 nəfər artıb.

Məlumat üçün deyək ki, hesabat dövründə fərdi sahibkarların əsas hissəsi Bakıda (27,2 faiz), Lənkəran–Astara (10,2 faiz), Qazax–Tovuz (7,7 faiz) və Mərkəzi Aran (6,9 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən danışarkən, Sahibkarlığın İnkişafı Fondunun (SİF) fəaliyyətinə də nəzər salmaq istərdik. İqtisadiyyat Nazirliyinin tabeliyindəki bu fondun 2022-ci ilin yekunlarına əsasən, əməliyyat gəlirləri 14 milyon 375 min manat təşkil edib. Eyni zamanda SİF hesabat dövrünü 15 milyon 509 min manat mənfəətlə başa vurub.

Yeri gəlmişkən, son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azaldılmasına səbəb olmaqla onların büdcəyə vergi ödənişlərinin həcmini də artırıb.

Sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması vacib şərtlərdir. Ona görə də daim sahibkarların hamisi kimi qətiyyətli qərarlar qəbul edən dövlətimizin başçısının müvafiq tapşırığı əsasında həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır, dövlət strukturları, ayrı-ayrı nazirliklər fəaliyyətlərində bu məqama mühüm önəm verirlər.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## *Ekspert rəyi*



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Sahibkarlığın inkişafı istiqamətində görülən işlərdən danışarkən diqqəti, ilk növbədə, dövlət-özəl tərəfdaşlığına yönəltmək istərdim. Qeyd edim ki, bu sahədə infrastruktur və xidmətlərin yüksək səviyyədə reallaşdırılması məsələsi mühüm önəm daşıyır. Belə ki, bu zaman özəl bölmənin idarəetmə məsuliyyətinə xüsusi əhəmiyyət verilməklə, onun fəaliyyəti qarşı tərəfin-dövlətin mülkiyyət və ya nəzarət mexanizmləri, həmçinin maliyyəsi əsasında qurulur. Nəticədə isə dövlət əvvəlcədən müəyyənləşdirdiyi tələblərə uyğun müasir, yüksək səviyyəli infrastruktura, əhali isə keyfiyyətli xidmətə sahib olur.

Ümumiyyətlə, dövlət-özəl tərəfdaşlığı dövlətin özəl sektor resurslarından və təcrübəsindən yararlanaraq dövlət infrastrukturunun, yaxud xidmətlərinin satınalmasını gerçəkləşdirmək mexanizmidir. Bu mexanizm dövlətin özəl sektorla tərəfdaşlığı əsasında yeni həllərin təşviqini və maliyyə vəsaitlərinin cəlb olunmasını gerçəkləşdirir.

Yeri gəlmişkən, bu tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi məqsədilə Milli Məclis tərəfindən "Dövlət-özəl tərəfdaşlığı haqqında" 8 fəsil, 40 maddədən ibarət yeni qanun qəbul edilib. "İnvestisiya fəaliyyəti haqqında" qanunda nəzərdə tutulan təşviq tədbirləri, habelə vergi və digər dövlət ödənişləri üzrə güzəştlər, əlavə maliyyə dəstəyi, təminatlar, azadolmalar və kompensasiyalar mövcud sənədlə dövlət-özəl tərəfdaşlığına da şamil olunub.

Sonda bir məqama da toxunmaq istərdim. Azərbaycanda sahibkarlar maliyyələşmə mənbəyi kimi daha çox banklara üstünlük verir. Bankların kredit portfeli geniş olsa da, kreditləşmədə regionların payı təxminən 23 faiz, Bakı üzrə isə 77 faizdir. Aparılan sorğuların təhlili, həmçinin beynəlxalq inkişaf təşkilatlarının hesabatlarına əsasən kiçik və orta biznes subyektlərinin maliyyə mənbələrinə çıxışı sahəsində üzləşdikləri əsas çətinliklər yüksək faiz dərəcəsi, sərt girov şərtləri, risklərin bölüşdürmə və kreditlərə zəmanət mexanizmlərinin əlyetərli olmamasıdır.

Kredit zəmanət mexanizmi kiçik və orta sahibkarların maliyyə məhdudiyyətlərini aşmasına imkan yaradır, biznes layihələrin maliyyələşdirilməsi üçün sahibkarların uzun müddətli kreditlərlə təmin edilməsini dəstəkləyir. Həmçinin bankların yeni və daha geniş müştəri şəbəkəsinə çıxışını asanlaşdırır, risklərin minimallaşdırılmasını təmin edir. Ölkəmizdə kredit zəmanət mexanizminin formalaşması təqdirəlayiqdir, lakin kiçik və orta biznes sektoruna yönələn təminat sisteminin daha da təkmilləşməsinə ehtiyac var.

# BTC Qazaxıstan neftini dünya bazarına çıxarır

**Bu il aprelin 22-də Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri ilə nəql edilən Qazaxıstan neftinin birinci partiyası Türkiyənin Ceyhan limanından tankerə yüklənərək dünya bazarına göndərilib. Qazaxıstan neftinin ilk partiyasının Ceyhan limanından yola salınması SOCAR və "KazMunayQaz" arasında tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində önəmli nailiyyətdir. Bu hadisə Xəzər neftinin dünya bazarlarına nəqli üçün əsas marşrut kimi BTC boru kəmərinin strateji rolunu göstərərək regional enerji əməkdaşlığının əhəmiyyətini bir daha sübut edir.**



SOCAR-ın törəmə müəssisəsi olan "SOCAR Midstream Operations" MMC-nin bununla bağlı yaydığı məlumatda bildirilib ki, "Tengiz" yatağından hasil edilən 83,2 min ton (665 min barel) neft Ceyhan limanında "Alatau" tankerinə yüklənib. Yükləmə mərasimində SOCAR, "KazMunayQaz", "Tengizşevroil", "Kazmortransflot" və onların törəmə şirkətlərinin nümayəndə heyətləri iştirak ediblər.

Xatırladaq ki, Qazaxıstan neftinin BTC ilə nəqli SOCAR və Qazaxıstanın "KazMunayQaz" şirkəti arasında hər il 1,5 milyon ton neftin tranzitini nəzərdə tutan saziş çərçivəsində həyata keçirilir. SOCAR Qazaxıstan neftini BTC boru kəmərinə qəbul etmək üçün 2022-ci ildə Səngəçal terminalının ərazisi və ətrafında toplayıcı boru kəmərləri şəbəkəsinin yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirib. Bu layihələr BTC-nin ötürmə gücündən istifadə səviyyəsini xeyli artırıb.

Qazaxıstan neftinin BTC ilə nəqlinə isə 2023-cü ilin mart ayında başlanılıb. Belə ki, "Tengiz" yatağından hasil edilən Qazaxıstan neftinin ilk partiyası "Prezident Heydər Əliyev" tankeri ilə ötən ayın 23-də Aktau limanından Səngəçal terminalına çatdırılıb. Həmin vaxtdan etibarən Aktau limanından Səngəçal terminalına neft tədarükü davamlı şəkildə həyata keçirilib. Yeri gəlmişkən, Ceyhan limanında Qazaxıstan neftinin növbəti partiyasının tankerə yüklənməsi 2023-cü ilin may ayının sonuna planlaşdırılır.

Ötən həftə, həmçinin Qazaxıstan neftinin Ceyhandan Rumıniyaya nəqlinə başlanılıb. Bu barədə Qazaxıstanın "Kazinform" informasiya agentliyi məlumat yayıb. Məlumatda bildirilir ki, "KazMunayQaz" ASC-nin rəhbəri Maqzum Mirzəqaliyev Qazaxıstan neftinin Rumıniya istiqamətində daşınmasına başlanması ilə əlaqədar Ceyhan limanında olub. Şirkət rəhbəri Rumıniyada yerləşən və "KazMunayQaz"a məxsus "Petomidia" neft emalı zavodu üçün Qazaxıstan neftinin daşınması prosesini izləyib. "Bu gün biz yerli neft-qaz sənayesi üçün əlamətdar tədbirdə iştirak edirik. Axı, təsadüfi deyil ki, dövlət başçısı Qazaxıstan neftinin tədarükü üçün yeni marşrutların yaradılmasına bu qədər diqqət yetirir. Bu mənada sevindirici haldır ki, Azərbaycanın SOCAR şirkəti ilə müqavilələrimiz praktiki icra müstəvisinə keçib. Bu, əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərdən xəbər verir", – deyə Maqzum Mirzəqaliyev bildirib.

Məlumatda, həmçinin qeyd olunur ki, "KazMunayQaz"ın rəhbəri tədbirdə iştirak edən "Tengizchevroil" şirkətinin rəhbərliyinə Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə nəqlin şərtləri ilə bağlı uğurlu danışıqlar üçün təşəkkür edib.

Qeyd edək ki, Ceyhan terminalından həcmi 80 min ton olan ilk neft partiyası "NMSK Kazmortransflot" MMC-yə (KMQ-nin törəmə müəssisəsi) məxsus "Alatau" yerli tankeri ilə daşınır. Aprelin 20-dək Aktau limanından BTC ilə Azərbaycan ərazisindən daşınması üçün 86 min ton neft Qazaxıstan nefti yola salınıb. Bütövlükdə isə, 2023-cü ilin sonunadək Xəzər dənizi ilə ayda 12–14 tanker reysinin həyata keçirilməsi planlaşdırılır.

Bununla belə, Qazaxıstan yaxın gələcəkdə Bakı-Tbilisi-Ceyhan kəmərinin potensialından daha geniş şəkildə yararlanmağı hədəfləyir. Xatırladaq ki, bu il aprelin 10-da Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin mühüm tərkib hissəsi sayılan energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, eləcə də Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı ətraflı müzakirə olunmuşdu. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hazırda enerji resurslarının dünya bazarlarına çatdırılmasının daha da şaxələndirilməsinin ölkəsi üçün prioritet vəzifə olduğunu diqqətə çatdıraraq qazax neftinin ilk partiyasının Azərbaycandan keçməklə göndərildiyini bildirmiş, növbəti addımın tədarük həcminin artırılması və bu işlərə uzunmüddətli sabit xarakter verilməsi ilə bağlı olduğunu vurğulamışdı.

Ondan bir qədər əvvəl, aprelin 7-də Bakıda keçirilən Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 19-cu iclasının nəticələri ilə bağlı imzalanmış protokolda da Azərbaycanın öz ərazisi vasitəsilə Qazaxıstan neftinin dünya bazarlarına daşınmasının həcmini artırmağa hazır olduğu qeyd olunmuşdu.

Qazaxıstan Baş nazirinin müavini–ticarət və inteqrasiya naziri Serik Jumanqarin isə Bakıda jurnalistlərlə söhbət zamanı Bakı–Tbilisi–Ceyhan boru kəmərinin 40 faiz yükləndiyini diqqətə çatdıraraq demişdi ki, orada hələ də təxminən 20 milyon ton mümkün ötürmə gücü qalmaqdadır. Baş nazirin müavini ölkəsinin bunu birgə əməkdaşlıq çərçivəsində hədəflədiyi həcm kimi dəyərləndirmişdi.

Yeri gəlmişkən, bu ilin yanvar-mart aylarında Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə Türkiyə ərazisindən 54 milyon 810 min barel neft nəql edilib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,94 faiz çoxdur. Bu barədə məlumatı Türkiyənin borularla nəqletmə operatoru olan "BOTAŞ" şirkəti yayıb. Məlumata görə, ötən ilin müvafiq dövründə BTC kəmərilə Türkiyə üzərindən 50 milyon 778 min barel neft nəql edilib.

Qeyd edək ki, ildə təqribən 60 milyon ton neft nəql etmə imkanına malik olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə Türkmənistan nefti də nəql olunur. Ekspertlər isə hesab edirlər ki, Xəzəryanı ölkələrin neftnin BTC vasitəsilə nəqli tranzit ölkə kimi Azərbaycana yüksək gəlirlər vəd edir. Göründüyü kimi, ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində həyata vəsiqə alaraq real fəaliyyət sahəsinə çevrilmiş Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin regional və beynəlxalq əhəmiyyəti ildən ilə artır. Elə ölkəmizlə enerji sahəsində əməkdaşlığa xüsusi önəm verən Qazaxıstan da yaxın illərdə öz neftini dünya bazarına çıxarmaq üçün BTC-yə daha çox ümid bəsləyir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# "Taman" kran gəmisi dənizə qayıtdı

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasının "Taman" kran gəmisinin əsaslı təmiri başa çatdırılıb.**



ASCO-nun bu barədə yaydığı məlumatda bildirilib ki, "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılan işlər çərçivəsində 25 ton yükqaldırma qabiliyyətinə malik kran, baş və köməkçi mühərriklər, braşpil və şpil qurğuları, nasoslar, CO2 və hava balonları, boru sistemləri, lyuk qapaqları, havalandırıcı başlıqlar, su keçirməyən qapılar və illüminatorlar təmir edilib. Bundan əlavə, kran gəmisinin avtomatika, naviqasiya avadanlıqları və elektrik hissələrində də bütün zəruri yoxlama və təmir işləri həyata keçirilib, xilasedici avadanlıqlar və salların oturacaqları təmir olunub. Dənizçilərin yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxanalarda da zəruri işlər yerinə yetirilib.

Təmir işləri çərçivəsində, həmçinin gəmi tərsanəyə qaldırılaraq sualtı və suüstü hissələri rənglənib. Gövdənin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib, hər iki bortda qoruyucu təkərlər yenilənib. Kran gəmisinin hərəkət-sükan kompleksi, dib-yan armaturları, protektor qurğuları da təmir olunub.

Sonda gəmi dəniz sınağından keçirilərək yenidən istismara qaytarılıb.

***"Xalq qəzeti"***

# Ötən ay iqtisadiyyata 2 milyard manata yaxın kredit qoyulub

**Bu ilin mart ayı ərzində Azərbaycanda kredit təşkilatları tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının həcmi 1 milyard 915 milyon manata bərabər olub.**

Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,9 faiz və ya 440.4 milyon manat çoxdur.

Qeyd edək ki, ötən ay verilən kreditlərin 1 milyard 705,2 milyon manatı milli valyutada, 210 milyon manatı isə xarici valyutada olub.

# Tullantılardan elektrik enerjisi...

**Ötən il ölkəmizdə 3 milyon 984,1 min ton və ya əvvəlki illə müqayisədə 5,4 faiz çox tullantı əmələ gəlib və onun 66,7 faizini bərk məişət tullantıları, 33,3 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranan müxtəlif növ tullantılar təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il yaranmış 2 milyon 658,3 min ton bərk məişət tullantılarının 21,2 faizi enerji əldə edilməsi məqsədilə istifadə olunub. Nəticədə, 205,3 milyon kVt saat və ya 2021-ci illə müqayisədə 6,3 faiz çox elektrik enerjisi istehsal edilib.

***"Xalq qəzeti"***

# Vətən sərhəddən başlayır...

## Laçın yolundakı nəzarət-buraxılış məntəqəsinin siyasi əhəmiyyətinə baxış



**Laçın–Xankəndi yolunda Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ölkəmizin böyük uğurudur. Bu uğurun həm siyasi, həm hərbi, həm də mənəvi tərəfləri var. Mənəvi tərəfi budur ki, Azərbaycan dövləti özünün sərhəd zolağına nəzarətini tamlaşdırır. Necə deyərlər, Vətən sərhəddən başlayır.**

Hərbi tərəfi ondan ibarətdir ki, Azərbaycan 44 günlük müharibədən sonra bir yerdə dayanmadı, qələbə eyforiyasına qapılmadı, daha da inkişaf etdi, gücləndi və gücləndikcə də öz şərtlərini diktə etməyi bacardı. Əlbəttə, hərbi baxımdan güclənmək siyasi anlamda da demarş xəttinin götürülməsini şərtləndirməyə bilməzdi. Biz də bu qeydlərimizdə Laçın–Xankəndi yolunda sərhəd məntəqəsinin qurulmasının daha çox siyasi tərəfləri üzərində dayanacağıq.

**Əvvəla,** ondan başlayaq ki, Azərbaycan 44 günlük müharibə ilə qələbə qazansa da və zəfərin ayrı-ayrı üstünlükləri 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərində əksini tapsa da, sənəd mahiyyət etibarilə böyük reallığa aydınlıq gətirmirdi. Diqqət yetirək, Ermənistan tərəfi Laçın–Xankəndi yolunda sərhəd məntəqəsinin qurulmasını bəyanatın müddəalarına zidd sayır. Əlbəttə, sənəddə sərhəd məntəqəsinin qurulması əksini tapmayıb. Ancaq, bu, o demək deyil ki, həmin ərazidə sərhəd olmamalı idi. Yəni, üçtərəfli Bəyanatı ehkam kimi qəbul etmək düzgün deyildi. Sənəd yalnız Azərbaycan–Ermənistan tənzimlənməsinin ilkin şərtlərin yer aldığı çıxış nöqtəsi sayıla bilərdi. O şərtlərin ki, onlara Ermənistan əməl etmədi. Məsələn, Qarabağda hələ də erməni silahlıları qalıb, bölgədə separatçılıq saxlanılır. Hələ başqa vurğulanmalı məqamlar da var. Başqa sözlə desək, çıxış nöqtəsi daha fundamental əhəmiyyət daşıyan məsələlərin reallaşmasına vəsilə olmadı.

İrəvan nəinki bəyanata əməl etmədi, yeni reallıqlar formalaşdırmağa çalışdı. İstədi ki, 44 günlük müharibə ilə əldə etdiyimiz zəfərin nəticələri minimuma ensin. Əlbəttə, Azərbaycan bunu qəbul edə bilməzdi. Məsələyə mövcud kontekstdən yanaşsaq, Laçın–Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması onu göstərdi ki, Bakı öz qanuni ərazilərində nəzarətin tam bərpasında israrlıdır və mövcud istiqamətdəki hər hansı siyasi və hərbi manipulyasiyalara meydan verməyəcəkdir.

**İkinci məqam.** Söhbət Azərbaycanın öz reallığını özünün formalaşdırmasından gedir. Üçtərəfli Bəyanatı əbəs yerə xatırlamadıq. Bakı həmin sənədin Azərbaycanın zəfərinə dair mənəvi preambulasından irəli gələn və gerçəkləşməsi məntiqi görünən prosesləri özü həyata keçirir. Vaxtilə BMT-nin Ermənistan silahlılarının Azərbaycan torpaqlarından çıxmasını tələb edən dörd qətnaməsi olmuşdur. 30 ilə yaxın müddətdə həmin qətnamələrə əməl olunmamışdır. Nəhayət, vaxt gəldi və ölkəmiz güc yolu ilə ədaləti bərpa etdi. İndi Laçın–Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması zahirən birbaşa gücün təntənəsi olmasa da, üçtərəfli Bəyanatın ruhunun ifadəsi kimi, müstəsna əhəmiyyətə malikdir. Bakı sənədin adi kağız parçasına çevrilmək təhlükəsini aradan qaldırdı. Çünki onun ruhu Azərbaycanın Qələbəsini təsdiqləyir. Qələbə isə tam olmalıdır.

**Üçüncü məqam.** Qeyd etdik ki, Ermənistan müharibədən sonra bölgədə yeni reallıqlar yaratmaq üçün çalışırdı və bu gün də çalışmaqdadır. Ölkənin xaricdən də dəstəkçilərinin olduğunu vurğulayaq. Xaricdəki anti-Azərbaycan qüvvələrdən, erməni lobbi və diaspor təşkilatlarından və ermənipərəst dairələrdən ibarət həmin dəstəkçilər qrupu müxtəlif siyasi detallarla manevr yolu tutaraq, Azərbaycanın qanuni ərazilərində tam hakimiyyətinin qərarlaşmasına maneçilik törətmək cəhdlərinə baş vurdular. Onlar özlərinin kiçik haqlarını Bakının böyük haqqına alternativ kimi irəli sürməklə, uğur qazanacaqlarına ümid bəslədilər. Laçın–Xankəndi yolunda sərhəd məntəqəsinin qurulması həm də belələrinin ümidlərini puça çıxardı.

**Dördüncü məqam.** 44 günlük müharibədən sonra Ermənistanın xarici siyasət industriyasının regional amillər üzərində Azərbaycana təzyiq rıçaqlarını işə saldığını da gördük. Nəticə etibarilə biz Rusiya ilə müəyyən məqamlarda sərinləşmələrin, İranla soyuqlaşmaların şahidi olduq və demək olmaz ki, hazırda bu diskomfort sayılacaq durum aradan qalxıb. Ancaq yekun nəticə yenə Bakı ilədir. Soyuqlaşma və sərinləşmələrə rəğmən ortadakı narahatlıq dolu növbəti bəyanatların fonunda hər iki tərəfin Azərbaycana məxsus haqqı tanıdıqlarını görürük. Onların heç birindən – həm İrandan, həm də Rusiyadan gerçək reaksiya yoxdur. Laçın–Xankəndi yolunda sərhəd-keçid məntəqəsinin qurulması bu səssizliyi də ortaya çıxardı ki, mövcud mənzərə isə heç şübhəsiz, Azərbaycan diplomatiyasının böyük uğurudur.

Onu da nəzərə alaq ki, Tehranın və Moskvanın Qarabağ məsələsini, ümumən, Azərbaycan–Ermənistan münasibətlərindəki durumu özlərinin regional xarici siyasətləri prizmasından görmələri amili adi bir iş sayılmamalıdır. Axı 30 ilə yaxın davam edən işğal həm də bu iki qüvvənin iradəsinin "məhsulu" idi. Ölkəmiz öz iradəsini formalaşdırmağı və tutarlı alternativ kimi irəli sürməyi bacardı.

**Beşinci məqam.** Bu xüsusda, bilavasitə, Qarabağdakı separatçılıqdan söz açacağıq. 44 günlük müharibədən sonra biz Ermənistanın hakim siyasi dairələrinin, eləcə də müxtəlif xarici qüvvələrin bölgədəki separatçılığı "Qarabağ xalqı"nın iradəsi qismində ortaya qoymağa, beynəlxalq ictimaiyyətə sırımağa çalışdığının şahidi olduq. Xankəndidə mitinqlərin təşkili, Ruben Vardanyan kimi "qəlbi xalqı ilə döyünənlərin" bölgəyə gətirilməsi və sair bu sayaq gedişləri, pafos və populizm səhnələrini gördük. Bizi öz qanuni ərazilərimizə buraxmadıqlarını da həmçinin. Laçın–Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi Azərbaycanı ərazinin tam hakiminə çevirir. Artıq ora kimin buraxılıb, kimin buraxılmayacağına qərarı ölkəmiz verəcəkdir.

**Altıncı məqama keçid alaq.** Azərbaycan dəfələrlə Qarabağ ermənilərinin bölgədə yaşamalarının mümkünlüyünü, onların hüquq və azadlıqlarının ölkəmizin qanunvericiliyi ilə qorunacağını bəyan edib. Neçə dəfə də onlarla təmas yaradılması istiqamətində təklif və təşəbbüslər qaldırıb. Bütün bunlar, şübhəsiz, xoş niyyətin ifadəsi kimi meydana çıxıb. Ancaq qarşılıq heç nə görməmişik. Əlbəttə, mövcud istiqamətdə tərəfimizdən prinsipial yanaşma da olub. Təxminən belə: kim istəsə, Qarabağda qalsın və yaşasın, istəməyənlər gedə bilər. Ancaq zaman göstərdi ki, Qarabağ erməniləri, daha doğrusu, onların həyatını zəhərə çevirmiş separatçı rejim bunu seçim kimi görmür, çağırışımıza məhəl qoymur. Hesab edirik ki, Laçın–Xankəndi yolunda sərhəd keçid məntəqəsinin qurulması seçimi, necə deyərlər, asanlaşdıracaqdır. Qərar versinlər – qalırlar, ya gedirlər!

Əlbəttə, Laçın–Xankəndi yolunda Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının digər siyasi tərəflərinə də diqqət çəkmək, fikir və mülahizələr yürütmək mümkündür.

**Sonda əvvəldə haqqında söz açdığımız uğurun üzərində dayanaq.** Uğur qətiyyətin, prinsipiallığın və möhkəm iradənin məhsuludur. Uğur həm də düşünülmüş siyasətin nəticəsidir. Yazımızın bu yerində Prezident İlham Əliyevin bir fikrini yada salmaqla fikrimizi tamamlayaq: "Biz nə vaxt, nəyi edəcəyimizi yaxşı bilirik. Ona görə bu gün də bizim uğurlu əməliyyatımız artıq böyük nəticələrə gətirib çıxarıb və nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır və mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm. Ölkəmizi inamla idarə edirəm".

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

---

# Paşinyan 1999-cu və 2016-cı illəri xatırlamaqla nə demək istəyir?

## Ermənistan baş naziri, nədənsə, 2018-ci ili və 2020-ci ildən sonranı unudur...

**Baş nazir Nikol Paşinyanın aprelin 21-də Ermənistan parlamentindəki çıxışı, əsasən, ölkənin təhlükəsizliyi məsələləri üzərində quruldu. O, müxalifətin təzyiqlərini özündən uzaqlaşdırmaq, bir növ, müqavimət yaratmaq xəttinə sadiq qalaraq, bir sıra məqamlara toxundu. Təbii, Nikol, həmişəki kimi, ölkənin hazırkı ağır durumunun səbəbini keçmişdə axtardı. Yada salaq ki, baş nazir bir müddət öncə də bildirmişdi ki, Ermənistanın o zamankı hakimiyyəti 2007-ci ildə "Madrid prinsipləri"nə imza atmaqla, faktiki olaraq, Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb. İndiki çıxışında isə o, zaman baxımından həm 2007-ci ildən əvvələ, həm də ondan bir qədər də irəli ekskurs edib.**

Nikolun 1999-cu ilə gedib çıxmasında da, ardınca 2016-cı ilə qayıtmasında da məntiq var. Əlbəttə, Paşinyan ölkənin təhlükəsizliyindən söz açırsa, gərək, 2018-ci ildən sonraya da diqqət yetirə. Amma bu barədə danışmır. Danışmasın, həmin dövrü biz yada salacağıq. Hələlik isə Nikolun üzərində dayandığı məqamlardan söz açaq.

***

Beləliklə, Paşinyan ölkəsindəki təhlükəsizlik böhranına toxunaraq qeyd edib: "Bu, müstəqilliyimiz dövründə yaradılmış təhlükəsizlik arxitekturasının böhranıdır. 27 oktyabr hadisəsini də qeyd etmək olar ki, bu, bizim təhlükəsizlik arxitekturamızda dərin və ciddi böhranın ifadəsi idi".

Bəli, baş nazir 27 oktyabr 1999-cu ildə Ermənistanda törədilmiş parlament qətliamını nəzərdə tutur. Xatırladaq ki, həmin gün Nairi Hunanyan və onunla əlbir olan bir neçə şəxs (qardaşı Karen Hunanyan, dayısı Vram Qalstyan, həmçinin Derenik Becanyan, Edik Qriqoryan və Aşot Knyazyan) Ermənistan Milli Assambleyasına daxil olaraq baş nazir Vazgen Sarkisyanı güllələyiblər. Onlar, həmçinin, parlamentin spikeri Karen Dəmirçyanı, sədr müavinləri Yuri Baxşyanı və Ruben Miroyanı, əməliyyat məsələləri üzrə nazir Leonard Petrosyanı, deputatlar Armenak Armenakyanı, Henrix Abramyanı və Mikayel Kotanyanı qətlə yetiriblər.

Bir məqamı da xatırladaq ki, 2005-ci il aprel ayının sonlarında Rusiyanın sabiq məxfi xidmət agenti Aleksandr Litvinenko Azərbaycan qəzeti olan "Realni Azerbaijan"a müsahibəsində Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş Kəşfiyyat İdarəsini Dağlıq Qarabağ münaqişəsini həll edəcək sülh prosesini təxirə salmaq üçün Ermənistan parlamentində terror aktını təşkil etməkdə suçlamışdı.

Qeyd edək ki, 1997-ci ilin sentyabrında ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin "mərhələli həlli"nə əsaslanan yeni təklif təqdim etmişdilər. Bu təkliflər ilk mərhələdə Dağlıq Qarabağın ətrafındakı rayonların işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlamasını, köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə Laçın yolu və Şuşa şəhəri, həmçinin Dağlıq Qarabağın statusu məsələləri həll olunmalı və nəticədə ATƏT-in Minsk konfransı çağırılmalı idi.

1997-ci il oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanatla çıxış edərək, həmsədrlərin son təkliflərinin Minsk qrupu çərçivəsində danışıqların bərpası üçün ümidverici baza olduğunu bildirmişdilər. Lakin 1998-ci ilin fevralında Ermənistan prezidenti Levon Ter-Petrosyanın istefası və 1998-ci ilin martında Robert Köçəryanın hakimiyyətə gəlişindən sonra həmsədrlərin bölgəyə növbəti səfəri zamanı Ermənistan rəsmi olaraq, münaqişənin "mərhələli həll" təkliflərinə dair razılığını geri götürdü.

1999-cu il mayın 30-da Ermənistanda parlament seçkiləri keçirildi. Parlamentdəki 130 yerdən 62-sini qazanan "Birlik Bloku" seçkilərdə qalib gəldi. Həmin il iyunun əvvəlindən oktyabrın sonuna qədər Ermənistandakı siyasi sistem hərbi, qanunverici və icra hakimiyyətlərinə nəzarət edən Dəmirçyan-Sarkisyan tandeminə əsaslanırdı.

Baş nazir Sarkisyan və spiker Dəmirçyanın islahata meyilli koalisiyası 1998-ci ildə prezident postuna yiyələnmiş Robert Koçaryanı siyasi səhnədən kənarlaşdırdılar. Bu tandem, faktiki olaraq, Azərbaycanla münasibətlərin normallaşması xəttini əsas götürürdü və mövcud xüsusda çox böyük ümid var idi ki, 1999-cu ilin noyabrında keçiriləcək ATƏT-in İstanbul sammitində Bakı ilə İrəvan arasında sülh müqaviləsi imzalanacaqdır.

Lakin 27 oktyabr parlament terroru ölkədəki siyasi tarazlığı pozdu. Adları çəkilən iki şəxsin fiziki cəhətdən məhvi siyasi mənzərədə ciddi dəyişikliklərə səbəb oldu. 1999-2001-ci illərdə Azərbaycan və Ermənistan prezidentləri arasında 20 görüş keçirildi ki, bu görüşlər nəticəsiz qaldı. Beləcə Qarabağ danışıqları dalana dirəndi.

Bəli, məhz buna görə də Paşinyan 27 oktyabr parlament terrorunu xatırladır və agah edir ki, həmin terror aktı baş verməsəydi, Ermənistan hazırkı acınacaqlı vəziyyətə düşməzdi.

***

Qeyd etdiyimiz kimi, N.Paşinyan ölkəsindəki böhranın səbəblərindən bəhs edərkən, 2016-cı ili də xatırlayır. Bu xatırlama heç də əbəs deyil. Əgər 1999-cu ildə baş verənlər Qarabağ mövzusunda siyasi çürüklüyün mənzərəsini ortaya qoymuşdusa, 2016-cı ilin "Aprel müharibəsi" çürüklüyün hərbi tərəflərinin aşkar nümayişinə çevrildi ki, bundan dərs çıxarılmalı idi.

Onu da yada salaq ki, 2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan yenə hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı ərazilərə, o cümlədən, məktəblərə, xəstəxanalara və ibadət yerlərinə atəş zərbələri endirdi.

Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla, 6 nəfər həlak oldu, 33 nəfər isə ağır yaralandı. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verdi, əks-həmlə nəticəsində Füzuli, Cəbrayıl və keçmiş Ağdərə rayonunun işğal altında olan 2 min hektardan çox ərazisi azad edildi. Aprel hadisələri bir tərəfdən Azərbaycan Ordusunun gücünü göstərdisə, digər tərəfdən status-kvonun saxlanmasının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun münaqişə bölgəsində gərginliyin əsas səbəbi olduğunu vurğuladı. Bakı heç vaxt işğalla barışmayacağını da növbəti dəfə nümayiş etdirdi.

Bəs burada Nikolun üzərindən keçdiyi hansı məqam var. Axı, o, "Aprel müharibəsi"ndən iki il sonra, yəni 2018-ci ildə hakimiyyətə gəlmişdi. Olmazdımı ki, o, parlament terrorunu və "Aprel müharibəsi"ni əvvəldən yada salaydı? Görünür olmazmış.

***

Bəli, Ermənistandakı hazırkı siyasi böhranın günahkarı həm də N.Paşinyanın özüdür. O, hakimiyyətə gələndə ölkədəki anti-Azərbaycan ab-havasını cilovlamaq imkanına malik idi. O cümlədən, Azərbaycanla sülh bağlamaq şansına da. Yəni, Nikol dərhal sülh üzərinə gəlməli idi. Paşinyan isə əvvəl Azərbaycan tərəfinə bununla bağlı müsbət mesajlar verdi, sonra məlum oldu ki, belə mesajlar yalnız müəyyən vaxt qazanıb hakimiyyətdə möhkəmlənmək məqsədi daşımaqdadır. Bir sözlə, baş nazir siyasi riyakarlıq xətti götürdü.

N.Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etdi. Buna qədər Ermənistan hərbi işğal və anneksiya siyasətinin beynəlxalq siyasi-hüquqi və mənəvi məsuliyyətini dərk edərək, işğalçılıq siyasətini pərdələməyə və onu Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək hüququ kimi göstərməyə çalışırdı. N.Paşinyanın bu bəyanatı Ermənistanın əsil məqsədinin qəsbkarlıq olduğunu aydın şəkildə göstərdi. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırış ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atdı, beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlik nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına cavab verdi: "...bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Paşinyanlı Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmaq, işğalla bağlı mövcud status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaq üçün məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıtdı. 2020-ci ilin iyulunda Ermənistanın baş nazirinin münaqişənin həlli ilə bağlı qəbuledilməz "yeddi şərti" irəli sürməsi işğalçı dövlətin əsl məqsədini açıq-aydın nümayiş etdirdi. Bununla əlaqədar Prezident İlham Əliyev bildirib: "Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Həmin ilin avqustunda İrəvan növbəti hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Avqustun 23-də həmin qrup zərərsizləşdirildi, onun rəhbəri saxlanıldı.

Paşinyanın təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul etməsi, ölkədə Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak edəcək mülki vətəndaşlardan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılması, habelə, Ermənistanın o zamankı müdafiə nazirinin "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırışı, bu ölkənin rəsmi şəxslərinin Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna zərbə endirmək hədələri İrəvanın yeni müharibəyə hazırlaşdığını açıq şəkildə nümayiş etdirdi.

2020-ci il sentyabrın 21-də Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda çıxışı zamanı bəyan etdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını göstərir: "Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan–Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir".

2020-ci il sentyabrın 24-də dövlətimizin başçısı BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı da İrəvanın Bakıya qarşı yeni müharibəyə hazırlaşdığını növbəti dəfə bəyan etdi. Bundan bir gün sonra Azərbaycan Prezidenti Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edərkən də kəşfiyyat məlumatlarına əsasən Ermənistanda Azərbaycana qarşı çox ciddi hərbi hazırlıqların getdiyini, onların hərbi qüvvələrinin təmas xəttində, dövlət sərhədində cəmləşdiyini vurğuladı: "Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm".

Lakin, təəssüf ki, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün dünya birliyi tərəfindən heç bir praktiki addım atılmadı. Buna Paşinyanın "demokratiya qladiatorluğunu" davam etdirməsinə meydan verilməsi də demək mümkündür. Bundan daha da ürəklənən Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi. Beləcə 44 günlük müharibə başladı ki, N.Paşinyanın aprelin 21-dəki çıxışı zamanı haqqında bəhs etdiyi siyasi böhran da məhz həmin müharibədəki rüsvayçı və acınacaqlı məğlubiyyətin nəticəsi kimi meydandadır.

***

İndi, gəlin görək, Ermənistan bütün bunlardan dərs çıxarırmı? Belə görünür, ölkədə nisbətən dərs çıxaran bir adam varsa, o da Paşinyandır. Ancaq demək olmaz ki, onun mövqeyi sabitdir. Çünki 44 günlük müharibədən sonra yaşanan proseslər onu göstərir ki, Nikol, loru dildə desək, nala-mıxa vurmaqla məşğuldur. Ancaq onun siyasi manevrləri keçmir.

Artıq Azərbaycan Laçın yolunda sərhəd məntəqəsi qurub. Paşinyan tarixə müraciət edib kimlərisə günahlandırmaqdansa, indiki məqamda sırf öz üzərinə düşəni etməlidir. Özü də vaxt itirmədən. Bu isə Azərbaycanla sülhə razılaşmaq və Ermənistanı, erməni cəmiyyətini mövcud istiqamətdə hazırlamaqdır.

Nəzərə alınmalıdır ki, artıq Laçın yolunda Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsi varsa, onun həndəvərində hər hansı təxribat əməli Azərbaycanın ərazi bütövlüyünə qəsd olaraq qiymətləndiriləcək və zəruri tədbirlər görüləcəkdir.

Onu da nəzərə alaq ki, təxribat nöqtələrinin susdurulması üçün sərhədin əks tərəfinə keçmək də legitimdir. Yəni, Azərbaycanın təhlükəsizliyi baxımından vacibdir. Paşinyan siyasi konspriologiyada var-gəl etməkdənsə, bunu açıq şəkildə başıpozuq erməni cəmiyyətinə bildirməlidir.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Formula 1 pilotları Bakı yarışının həyəcanına köklənibləR

**Bakı Şəhər Halqasında dünyanın ən nüfuzlu avtomobil yarışı olan Formula 1-in başlanmasına cəmi iki gün qalır. Builki yarış “Gözlənilməzə hazır ol” şüarı ilə keçiriləcək. Çünki Azərbaycan Qran-Prisi ilin ən dramatik və gözlənilməz Formula 1 yarışlarından biri kimi tanınır. Bakı Səhər Halqasında indiyədək keçirilən 6 yarışın hamısında fərqli pilotlar fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.**

Paytaxt trası 2016-cı ildən bu yana 306 yarış dövrəsi boyu çoxlu hadisələrə şahidlik edib. Dramatik hadisələrlə yanaşı, trekdə baş vermiş qəzalar, partlayan təkərlər, eyni zamanda, bəzən aqressiya ilə müşahidə olunan qalibiyyət və məğlubiyyətlər Bakı treki üçün xarakterikdir.

Formula 1 Azərbaycan Qran-Prisi, həm də mövsümün ilk sprint yarışının təşkili ilə əlamətdar olacaq. Builki sprint yarışı cari mövsümdə keçiriləcək altı sprint yarışından birincisidir. Sprint yarışları üç gündən ibarət yarış həftəsonunun daha rəqabətli keçməsinə şərait yaratmaqla yanaşı, avtoidman həvəskarlarına daha çox həyəcan yaşadacaq. Bu yarışlar ötmələrin və yüksək sürətli həmlələrin əlverişli



olduğu treklərdə təşkil edilməklə xüsusi dramatikliyi ilə yadda qalır, geniş azarkeş auditoriyası cəlb edir. Təsadüfi deyil ki, ən sürətli şəhər yarışlarından hesab olunan Bakı yarışı da bu sıradadır. Sprint yarışı cümə günü keçirilən sıralanma turunun nəticələrinə əsasən, şənbə günləri baş tutur. Buna müvafiq olaraq, Bakıdakı sprint yarışı şənbə günü, aprelin 29-na təsadüf edəcək.

Bütün tribuna biletlərinin satılması ölkəmizdə yeddinci dəfə keçiriləcək yarışa böyük maraqdan xəbər verir. Deməli builki yarışlar daha möhtəşəm və maraqlı olacaq. Bakı trasında keçirilən yarışın qlobal auditoriyasının xeyli genişlənməsini, bir çox ölkələrdə izləyici sayının ötən illə müqayisədə əhəmiyyətli dərəcədə artmasını nəzərə alsaq, ölkəmizdə təşkil olunan “kral yarışlarına” marağın xeyli artdığını demək olar. Belə ki, ötən il Azərbaycan Qran-Prisini Formula 1-in rəsmi veb səhifəsi və mobil tətbiqi vasitəsilə 8 milyondan çox unikal istifadəçi izləyib. Bu rəqəm 2021-ci illə müqayisədə 9, 2019-cu illə müqayisədə isə 111 faiz artıb. Bakı yarışının sosial media (feysbuk, instaqram, tviter, yutub) izləyicilərinin sayının 116 faiz artması daha bir yüksək göstəricidir. Formula 1 azarkeşləri arasında keçirilən sorğuya əsasən, respondentlərin 74 faizi Formula 1 Azərbaycan Qran Prisinin davamlı keçirilməsini istəyib. Ümumilikdə sorğuya cəlb olunanların 62 faizi Bakı yarışının Formula 1 təqvimində ən sevimli yarışlardan biri olduğunu bildirib.

**BŞH-nin baş direktoru Maqsud Fərzullayev** ötən illərlə müqayisədə rekord sayda azarkeşi qarşılayaraq, bu yarışı daha da yaddaqalan şəkildə keçirməyi hədəflədiklərini deyib. Qeyd edib ki, Formula 1 yarışının paytaxtımıza qayıtmasına son günlər qalmış əsas məqsəd hər kəsə unudulmaz bir təcrübə yaşatmaqdır: “Bakı Şəhər Halqası olaraq biz bu yarışa tam hazırıq və yarış həftəsonunda bütün azarkeşləri səbirsizliklə gözləyirik!”.

Artıq Formula 1 pilotları Bakı yarışının həyəcanına köklənibləR. **“Aston Martin F1” komandasının rəhbəri Mayk Krak** qarşıdakı Bakı uik-endinin proqramına şənbə sprintinin daxil olmasından bir qədər əsəbləşdiyini etiraf etsə də, onları yaxşı şounun gözlədiyini də bildirib. O qeyd edib ki, əgər Bakıda maşın ciddi zədə alarsa, onu təmir etməyə sadəcə vaxt olmayacaq. Biz sprintdən dərhal sonra bolidlərin üstünü örtməliyik, bundan sonra əgər texnika zədələnibsə, səhər təmir işləri üçün bizim 3-4 saat vaxtımız olacaq. Yəni bütün bunlar yüksək risklərlə bir-birinə bağlıdır.

**“Haas” komandasının rəhbəri Günter Ştayner** Formula 1 çempionatının sprint yürüşləri və yarış uik-endinin formatına edilən dəyişikliklər barədə fikrini bildirib: “Mən hər yürüş uik-endində sprintləri keçirib-keçirməyəcəyimizi bilmirəm. Ola bilər ki, bir neçə sprint də əlavə olunsun və ya uik-endlərin yarısı sprinterli olsun. Hazırda yürüşlərə tələbat bizim təsəvvür etdiyimizdən daha yüksəkdir. Biz 24-dən çox mərhələ keçirə bilmərik, lakin sprintlərin köməyi ilə daha çox yürüş və mübarizə əldə edə bilərik. Bəli, sadəcə olaraq, mərhələləri ikiqat etmək mümkündür”.

**“Ferrari” komandasının rəhbəri Frederik Vasser** isə qarşıdakı Azərbaycan Qran Prisi zamanı komandasının əsas diqqəti hansı məsələlər üzərində cəmləşdirməyi planlaşdırmasını izah edib. Bildirib ki, əsas diqqəti “Red Bull”, “Mercedes” və ya “Aston Martin” üzərində cəmləşdirmək səhv olardı: “Bakı çox mühüm mərhələ olacaq, çünki bizi orada iki təsnifat və iki yürüş gözləyir. Komanda olaraq biz daha yaxşı fəaliyyət göstərməliyik. Bakıda trasın sxemi hər şeydən xeyli fərqlənir. Ən başlıcası, fikrimizi digərləri üzərində yox, öz üzərimizdə cəmləşdirməli və ən maksimal nəticəyə nail olmalıyıq”.

Bakı yarışında qalibin kim olacağı barədə proqnozlar da maraqlıdır. Belə ki, “William Hill” bukmeker kontoru Formula 1 çempionatının Azərbaycan Qran-Prisində qələbəyə qoyulan mərclərin məzənnəsini dərc edib. Bukmekerlər hazırkı dünya çempionu Maks Ferstappeni Bakıda favorit hesab edirlər. Onun qələbə şansı ortağı Serxio Peres ilə müqayisədə dörd dəfədən çox dəyərləndirilir. Cari mövsümün ilk yürüşlərində üç dəfə finiş xəttinə üçüncü çatmış Fernando Alonso reytinqdə üçüncü yeri tutur.

Qələbəyə qoyulan mərcdə Maks Ferstappen şəksiz favoritdir. Bukmekerlər praktik olaraq şübhə etmirlər ki, “Red Bull Racing” komandasının pilotu mövsümün yekunlarına görə üçqat dünya çempionu olacaq. Serxio Peresin Maksa rəqib olacağı ehtimalı bukmekerlərin fikrincə olduqca aşağıdır. Digər pilotların titul almaq şansları demək olar ki, yalnız nəzəri cəhətdən mümkündür.

“Red Bull Racing” – Konstruktorlar kubokunda qələbəyə favoritdir. “Mercedes”in şansı “Aston Martin” və “Ferrari” komandalarından yüksək dəyərləndirilir.

### *Ekspert rəyi*

**Xalid KƏRİMLİ,
iqtisadçı ekspert**



Dünyanın ən populyar idman növlərindən biri olan avtoidman, həm də ən bahalılardan sayılır. Avtoidman yarışlarının zirvəsi olan Formula 1 isə ən geniş auditoriyaya malik turnirlərdəndir. Bu yarışlara, dünya əhalisinin orta və daha yüksək gəlirli təbəqəsi böyük maraq göstərir, onu canlı izləməyə üstünlük verir. Bu il Bakı trekində yarışı izləmək üçün paytaxtımıza əvvəlkilərdən çox – rekord sayda xarici ölkədən azarkeş gələcək. Formula 1 zamanı əcnəbi yarış iştirakçıları və tamaşaçılar orta hesabla 1 000 -1 500 ABŞ dollarına qədər vəsait xərcləyirlər ki, bu da ölkə iqtisadiyyatına öz töhfəsini verir. Hesablamalara görə, Bakıda keçirilmiş ilk dörd yarış Azərbaycan iqtisadiyyatına ümumilikdə, 500 milyon dollardan çox gəlir gətirib.

Yarışlara hazırlıqla bağlı ölkəmizin xərclərinin ildən-ilə azalmasını da xüsusi qeyd etməliyik. İlk yarışlarda infrastrukturun qurulması, eyni zamanda asfalt örtüyünün çəkilməsi böyük xərc tələb edirdi. Artıq yarışların yüksək səviyyədə təşkili üçün yalnız cari əməliyyat xərcləri tələb olunur ki, bu da üstünlükdür.

Bu kütləvi idman tədbirinin iştirakçıları böyük avtomobil konsernləridir ki, bu da rəqabəti gərginləşdirir. Büdcələri 100 milyonlarla dollarla ölçülən “Ferrari”, “Mersedes”, “Renault” və “Red Bull”, “Haas”, “Aston Martin” kimi avtomobil şirkətlərinin yarışda iştirak etməsi ona böyük maraq yaradır.

Ölkəmizdə müasir infrastrukturun qurulması, yeni otellərin inşası, nəqliyyat sektorundakı son yeniliklər, ictimai-iaşə obyektlərinin miqyasının artması, turizm sektorunun genişlənməsi öz bəhrəsini verir. Budəfəki yarışları canlı izləyən xarici azarkeşlərin sayında böyük artımın olması da bu amillərlə sıx bağlıdır. Digər tərəfdən ölkəmizə hədsiz marağın artması Formula 1 Azərbaycan Qran-Prisinin auditoriyasına da təsirini göstərib. Ötənilki Bakı yarışının qlobal auditoriyası 60 milyona yaxın olub.

Onu da qeyd edim ki, Formula 1-dən ölkəmizə gələn, həm birbaşa, həm də dolayı gəlirlər artır. Birbaşa gəlirlər deyəndə, yarışlar zamanı bilet alıb gələn turistlərin biletlərə, nəqliyyat, o cümlədən təyyarəyə, eləcə də yarışlar zamanı iaşə xidmətlərindən istifadəyə və s. xərclədikləri gəlirlər nəzərdə tutulur. Bütün bunlardan sahibkarlarımız faydalanır. Eyni zamanda, dövlət iqtisadi fəallığını artırır ki, bu aktivlik və xərcləmələr nəticəsində büdcəyə vergi daxil olur.

Ümumiyyətlə, diqqət etsək görərik ki, Formula 1 yarışlarının təşkili ilə bağlı dünyanın ən qabaqcıl ölkələri arasında gərgin rəqabət gedir. Təbii ki, ölkələrin diqqətini cəlb edən, həm də yarışın təşkilindən əldə edilən böyük iqtisadi gəlirlərdir.

Beləliklə, yarış həftəsonunda azarkeşləri Bakı trasında möhtəşəm mübarizə gözləyir. Bu mübarizəyə aprelin 28-də birinci məşqlə (13:30-14:30) start veriləcək. Həmin günü 17:00-18:00-dək təsnifat mərhələsi keçiriləcək. Növbəti günü ikinci məşq və ya sprint üçün təsnifat (13:30-14:30), 15:30-da isə sprint yarışları olacaq. Bazar günü isə 15:00-da yürüş başlayacaq.

***Leyla SABİRQIZI,
“Xalq qəzeti”***

**İndi Formula 1 haqqında eşitməyən adam tapmaq çətindir. Çünki, o, hazırda planetin ən nüfuzlu və populyar idman növlərindən biridir. İnsanları bu yarışlara cəlb edən bir çox amillər də var. Bahalı bolidlərin asfalt üzərində şütümələri, adları və rəsmləri məşhur jurnal və qəzetlərin birinci səhifələrindən düşməyən pilotların mübarizəsi, tribunaların sadiq azarkeşlərlə dolması Formula 1 yarışlarına marağı durmadan artırır. Bütün bunları hər il təkcə televiziyada deyil, həm də canlı izləmək də olar. Bu idman növünün ən sadiq pərəstişkarları yarışları öz gözləri ilə görmək və sevimli komandalarını dəstəkləmək üçün minlərlə kilometr məsafə qət edirlər. Havanı titrədən mühərrikin gurultusu, trekin qəribə döngələri boyunca uçan bolidlərin çılğın sürəti və minlərlə azarkeş kütləsinin həvəsləndirici qışqırıqları “kral yarışları”nı əvəzsiz edir.**

# “Kral yarışları”: Formula 1 niyə belə sevilir?



Formula 1-in yaranması üçün ilkin şərtlər hələ 1920-30-cu illərdə meydana çıxmışdı. Məhz o zaman müxtəlif avtomobil yarışlarında iştirak edən komandalar ilk dünya çempionatının reqlamentini qəbul etmişdilər. Çempionatın 1941-ci ildə keçirilməsi nəzərdə tutulmuşdu, lakin İkinci dünya müharibəsinin başlanması səbəbindən yarış təxirə salınmışdı. Yalnız 1947-ci ildə Beynəlxalq Avtomobil Federasiyası (FIA) yekun reqlamenti qəbul etmişdi.

Keçən əsrin ortalarının yarış avtomobilləri müasir avtomobillərə çox az bənzəyirdi. Yeniliklər tədricən ortaya çıxmağa başladı. Məsələn, 1959-cu ildə “Cooper” komandasının mühəndisləri mühərriki arxada yerləşən avtomobili ictimaiyyətə təqdim etdilər. Yeni avtomobil yaxşı idarə olunurdu və yarışlarda yüksək nəticələr göstərirdi. Tezliklə bütün yarış avtomobilləri də arxa mühərrikə keçdi. Sonra mühəndislər aviasiyadan ilham almağa başladılar və 1960-cı illərin əvvəllərində “Lotus” komandası ilk dəfə yeni avtomobil-bolidi nümayiş etdirdi.

1958-ci ildə Formula 1-də ikinci titul meydana çıxdı: onlar təkcə pilotu deyil, həm də ən sürətli avtomobili yaradan komandanı mükafatlandırmağa başladılar. Sonradan fəxri mükafat Konstruktorlar Kuboku kimi tanındı. O andan etibarən əsil sürət yarışı başlandı. İlk “Qran Pri” 1950-ci ildə Böyük Britaniyada Silverstoun trekində keçirilmişdi və yarışı “Alfa Romeo” pilotu italiyalı Cüzeppe Farina qazanmışdı. C.Farina komanda yoldaşı Xuan Manuel Fanqionu qabaqlayaraq qalib gəlmişdi. Yeri gəlmişkən, X.Fanqio sonradan beş dəfə dünya çempionu adını qazanmağa müvəffəq olmuşdu. Maraqlıdır ki, 1958-1969-cu illərdə yalnız ingilisdilli pilotlar dünya çempionu olmuşdular: britaniyalılar, avstraliyalılar, yeni zelandiyalılar və amerikalılar.

Ümumiyyətlə, Formula 1-in qızıl dövrü 1980-ci illərin əvvəllərinə təsadüf edir. Məhz o dövrdə “Ferrari”, “McLaren”, “Lotus and Uilyams” komandaları, A.Senna, A.Prost, H.Berqer kimi məşhur pilotlar yarışlara marağı artırmışdılar.

Formula 1-in tarixində cəmi beş qadın pilotun olduğu məlumdur. Kişilərlə mübarizəyə qoşulan zərif cinsin nümayəndələrinin heç biri əhəmiyyətli nəticələr əldə edə bilməyiblər.

Tarix boyu Formula 1 yarışlarında 34 nəfər dünya çempionu olub. Qələbələrin sayına görə rekordçular alman Mixael Şumaxer və britaniyalı Lyuis Hamiltondur. Onların hər birinin yeddi titulu var. Eyni zamanda L.Hamilton podiumların sayına görə rekordçudur. Ölümündən sonra yeganə qalib kimi tarixə düşən pilot avstriyalı Yoxen Rindt olub. 1970-ci ildə o, İtaliya Qran Prisi zamanı qəzaya uğramışdı.

Formula 1 tarixində əfsanəvi pilotlardan biri də üç dəfə (1988, 1990 və 1991) dünya çempionu olmuş braziliyalı Ayrton Sennadır. “Kral yarışında” mübarizə apardığı cəmi on il ərzində o, 41 yarışda qalib gəlmişdi. Ümumiyyətlə, Ayrton Senna kifayət qədər riskli idarəetmə tərzinə malik idi və istənilən havada avtomobili məharətlə idarə edirdi və buna görə “Yağış adamı” ləqəbini almışdı. Eyni zamanda argentinalı pilot trasda təhlükəsizlik standartlarını fəal şəkildə təbliğ edirdi. Amma onun ölümündən sonra yüz minlərlə insan dəhşətli qəzanı canlı gördükdə Formula 1-in təhlükəsizlik standartları həmişəlik dəyişdi. Belə ki, pilotun kabinetində əlavə təhlükəsizlik tədbirləri görüldü. Təkərlər üçün təhlükəsizlik kabelləri bütün bolidlərə quraşdırıldı, karbon lifli gövdələr möhkəmləndi, relslərdə metal bamperlərin əvəzinə təkər maneələri qoyuldu. Xatırladaq ki, A.Senna 1994-cü ildə San-Marino Qran Prisində qəza nəticəsində həlak olmuşdu.

Yarışlarda komandalar iştirak edirlər, onlara konstruktorlar da deyirlər. Komandanın vəzifələrinə avtomobilin yaradılması və onu yarışa hazırlamaq xidməti daxildir. Yarışlarda qalib gəlmək üçün bütün öhdəliyin yalnız yarışçıya aid olduğunu düşünmək səhvdir. Avtomobili dizayn etmək və qurmaq, hər yarışa mühəndisləri və avadanlıqları çatdırmaq, çox sayda davranış məlumatlarını təhlil etmək, texniki xidmət göstərmək komandanın məsuliyyətidir. Yarışlarda hər komandadan iki avtomobil iştirak edir. Pilotların bu dəzgahlarda qazandıqları xalların məbləği komandanın xəzinəsinə daxil olur, onların sayına uyğun olaraq komanda yarışında qalib olan Konstruktorlar Kuboku müəyyən edilir.



Bu gün Formula 1-i “avtomobil idmanlarının kralı” adlandırırlar. Çünki “kral yarışları” dünyanın ən prestijli, möhtəşəm və bahalı yarış seriyalarından biridir. Pilotların maaşları və komandaların büdcəsi ildə milyonlarla dollar qiymətləndirilir. Digər kateqoriyalarda yarışan bir çox pilot Formula 1 yarışlarına qatılmağı xəyal edir. Bəziləri üçün isə bu, ömürlük hədəfə çevrilir.

Formula 1 yarışları 2016-cı ildən Azərbaycanda keçirilir. Yarışın ilk Bakı mərhələsi Avropa Qran Prisi adlanırdı və onun ulduz səfiri ikiqat dünya çempionu Fernando Alonso olmuşdu. 2017-ci ildən Bakı yarışı Azərbaycan Qran Prisi adlanır. Həmin il Bakıda keçirilən yarış mövsümün ən maraqlı yarışı kimi yadda qalmışdı.

Azərbaycan Qran Prisinin trekin uzunluğu 6,003 kilometrdir. Trasın layihəsi almaniyalı mütəxəssis Hermann Tilke tərəfindən hazırlanıb. Mütəxəssislərin fikrincə, Bakı yarışı ən sürətli şəhər yarışlarından biri hesab olunur. 2017-ci il Azərbaycan Qran-Prisi azarkeş tərəfindən ilin ən yaxşı yarışı adına layiq görülüb. Formula 1 təqvimindəki ən uzun treklərdən sayılan Bakı trasının 20 döngəsi var. Tarixiliyin və müasirliyin vəhdətini uğurlu şəkildə bir araya gətirən Bakı Şəhər Halqası saatın əksi istiqamətində hərəkət edir. Trek ətrafında 3 min 600-ə yaxın blok quraşdırılıb və bu beton bloklar azarkeşlərin, marşalların təhlükəsizliyini təmin edir.

Azərbaycan Qran Prisində 52 dövrə var və indiyədək heç bir F-1 pilotu Bakıda iki dəfə qalib gəlməyib. Bunu, hətta, “Bakı sindromu” da adlandırırlar.

***Hazırladı:
S.ELAY, “Xalq qəzeti”***

# Formula 1 yarışlarının su təminatı yüksək səviyyədədir

**Bakı şəhərində növbəti Formula-1 yarışlarının keçirildiyi ərazilərin, idman, turizm, ictimai-iaşə obyektlərinin içməli və tullantı su sistemlərinin fəaliyyətinin dayanıqlığını təmin etmək istiqamətində işlər davam etdirilir.**



Tədbirə yüksək səviyyədə hazırlaşmaq və qarşıya çıxa biləcək problemlərin operativ qaydada həlli məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyində komissiya yaradılıb, Tədbirlər Planı təsdiq edilib. Eyni zamanda, işlərin operativ və koordinasiyalı aparılması məqsədilə işçi qrup yaradılıb.

Tədbirlər Planına uyğun olaraq yarışların keçiriləcəyi ərazilərdə içməli və tullantı su infrastrukturlarının normal fəaliyyətini təmin etmək və yarana biləcək qəza hallarının operativ aradan qaldırılması məqsədilə monitorinq və qiymətləndirmə işləri aparılıb. Bu ərazilərdə içməli su xətləri üzərində siyirtmələrin istismar vəziyyəti yoxlanılıb. Marşrut boyu bütün siyirtmə quyuları və yanğın hidrantları təftiş olunub, mövcud siyirtmələrin və yanğın hidrantlarının işlək vəziyyətdə olması üçün tədbirlər görülüb.

Mexaniki vasitələrlə və xüsusi təmizləyici maşınlarla 20 kilometr kanalizasiya xətti və 540 kanalizasiya baxış quyusu, eləcə də yağış barmaqlıqları təmizlənib, istismar tələblərinə cavab verməyən siyirtmə və xətlər dəyişdirilib.

Yarışların keçiriləcəyi günlərdə ehtimal olunan qəza hallarının operativ aradan qaldırılması məqsədilə xüsusi briqadalar yaradılıb və dislokasiya yerləri müəyyən edilib. Qəza briqadalarının maşın və avadanlıqlarla, mal-materialla təmin olunması üçün zəruri tədbirlər görülüb.

Eyni zamanda, qəzaların aradan qaldırılması üzrə nümunəvi qəza-bərpa briqadaları üçün təlimlər keçirilib. Təlimlərdə “Bakı Sukanal”, Səbail, Yasamal və Nəsimi sukanal idarələrinin 152 əməkdaşı iştirak edib. Təlimlərdə qəzaların operativ aradan qaldırılması, əməyin təhlükəsizliyi və digər məsələlərlə bağlı məlumatlar verilib. Təlimə cəlb olunan işçilər nəzəri biliklərlə yanaşı, praktiki məşqlərdə də iştirak ediblər.

***“Xalq qəzeti”***

# Türkiyə daha bir meqalayihəni uğurla gerçəkləşdirdi

## Ankara–Sivas dəmiryolu yüksək sürət magistralıdır

**Türkiyədə Ankara–Sivas yüksək sürətli qatar xəttinin tikintisi yekunlaşıb. "TurkicWorld"un məlumatına görə, aprelin 26-da bu münasibətlə açılış mərasiminin keçirilməsi nəzərdə tutulub.**



Xatırladaq ki, inşasına 2007-ci ildə başlanılan və uzunluğu 393 kilometr olan və 66 kilometr uzunluğunda 49 tunelə, 611 körpü və suötürücüyə, 217 ədəd alt keçidə malik xətdə qatar saatda 250 kilometr sürətlə hərəkət edəcək və marşrut 8 dayanacaqdan ibarət olacaq. Məlumat üçün qeyd edək ki, bu layihə əsasında təxminən 110 milyon kubmetr qazıntı işi görülüb, 30 milyon kubmetr doldurma istehsalı reallaşdırılıb. Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə aprelin 26-da istifadəyə veriləcək ümumi dəyəri 10 milyard lirə olan qatar xətti Ankara ilə Sivas arasındakı məsafəni 603 kilometrdən 405 kilometrə endirməklə səyahət vaxtını azaldacaq.

Qeyd edək ki, 2009-cu ildə Ankara–Eskişehir xəttinin istifadəyə verilməsi ilə Türkiyə yüksək sürətli qatar texnologiyasının tətbiqinə başlayıb. Daha sonra bu xəttin ardınca 2011-ci ildə Ankara–Konya, 2013-cü ildə Əskişəhər–Konya, 2014-cü ildə Ankara–İstanbul və Konya–İstanbul xətləri istifadəyə verilib. Nəhayət, 2022-ci ilin yanvar ayında Konya–Karaman xətti işə salınıb. Türkiyəli mütəxəssislərin bildirdiyinə görə, Ankara–Sivas yüksək sürətli qatar xəttinin tikinti layihəsi Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə gerçəkləşdirilib və türk əsrinin lokomotiv təşəbbüslərindən biri kimi dəyərləndirilib.

Qardaş ölkənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu bu meqalayihə haqqında deyib: "Ankara–Sivas yüksək sürətli qatar xəttinin istismara verilməsi bu bölgəyə böyük töhfə verəcək, eyni zamanda, beşillik strateji planda nəzərdə tutulan bu nəqliyyat layihəsi qatarın vaxtında reallaşdırılması Türkiyənin nüfuzunu daha da gücləndirəcək".

Yeri gəlmişkən, son 20 ildə Türkiyədə nəqliyyat layihələrinin reallaşdırılması nəticəsində mühüm uğurlar əldə edilib. Bu potensiala əsaslanaraq, dəmir yolu sektorunda 2035-ci ildə 220 milyon, 2053-cü ildə isə 448 milyon ton yükdaşımaya nail olmaq qarşıya önəmli vəzifə kimi qoyulub.

**Sonda Türkiyənin dəmiryolu, ümumiyyətlə, nəqliyyat sektorunda son 20 ildə əldə edilən uğurları diqqətə çatdırmaq istərdik:**

– beynəlxalq reytinq agentlikləri tərəfindən Ankara–İstanbul və Ankara–Konya yüksək sürətli qatar xəttinin çəkilişinə əsasən, qardaş ölkə Avropada 6, dünyada 8 ölkədən biri kimi qeydə alınıb;

– Türkiyə nəqliyyat və kommunikasiya sahələrində 1 trilyon lirə dövlət sərmayəsi həyata keçirib;

– Karayolunda bölünmüş yolun uzunluğu 6 kilometrdən 101 kilometrə, avtomobil yolunun uzunluğu 28 kilometrdən 340 kilometrə çatdırılıb.

– Türkiyədə tunellərin ümumi uzunluğu 50 kilometrdən 631 kilometrə, körpülərin və viyadüklərin uzunluğu 311 kilometrdən 710 kilometrə qədər artırılıb;

– 12 min 803 kilometrlik dəmir yolu şəbəkəsi tamamilə yenilənib, mövcud xətlərdə siqnalizasiya və elektrikləşdirmə işlərində əhəmiyyətli irəliləyiş əldə olunub;

– Bakı–Tbilisi–Qars dəmiryolu xətti sayəsində Qərbi Avropadan Uzaq Asiyanın ən ucqar nöqtəsinə qədər fasiləsiz qatar xidmətinin göstərilməsinə başlanıb;

– qardaş ölkədə hava limanlarının sayı 26-dan 56-ya çatdırılıb;

– 50 ölkədən və 60 istiqamətdən beynəlxalq uçuşların sayı 127 ölkəyə və 329 istiqamətə artırılıb;

– İstanbul Hava Limanı dünyanın ən yaxşıları arasında ikinci, Avropanın ən işlək aeroportları siyahısında birinci yerdə qərarlaşıb;

– Türkiyənin xarici ticarətində dəniz nəqliyyatının payı 4 dəfə yüksəlib.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

# Sudanda 3 sutkalıq atəşkəs davam edir



**Sudanda hərbi münaqişə tərəfləri arasında atəşkəslə bağlı razılaşma əldə olunub. Bu barədə ABŞ-ın dövlət katibi Entoni Blinken bəyan edib. Məlumatı "Anadolu" verib.**

Blinkenin sözlərinə görə, qarşıduran tərəflər intensiv danışıqlar nəticəsində razılığa gəliblər. Atəşkəs rejimi isə aprelin 25-i gecə saatlarından başlanır və 72 saat müddətində davam edəcək. "Birləşmiş Ştatlar Sudanın Silahlı Qüvvələrini və Çevik Reaksiya Qüvvələrini həmin müddətdə atəşkəs rejiminə sözsüz əməl etməyə çağırır", – deyə Blinken qeyd edib.

Dövlət katibi əlavə edib ki, Vaşinqton hərbi əməliyyatların tamamilə dayandırılması üçün səylərini regional və beynəlxalq tərəfdaşlarla, Sudanın mülki institutlarının nümayəndələri və digər maraqlı tərəflərlə əlaqələndirmək niyyətindədir.

Liviya isə Sudanda davam edən silahlı toqquşmalar səbəbindən bu ölkə ilə sərhədlərini bağlayıb. Bu barədə Liviya Silahlı Qüvvələrinin Baş komandanlığına istinadla məlumat yayılıb. Liviya ordusunun ölkənin cənub-şərqinə, Sudanla sərhəd yaxınlığındakı Kufra şəhərinə əlavə qüvvələr göndərdiyi bildirilir.

Qeyd edək ki, Liviya ilə Sudan arasında sərhədin uzunluğu 382 kilometrdir. Həmin rayon qaçaqmalçılıq və insan alveri ilə məşğul olan silahlı qruplaşmalar və kriminal bandalar tərəfindən istifadə edilir.

Türkiyə və Səudiyyə Ərəbistanı da vətəndaşlarını Sudandan çıxarır. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu bildirib ki, Ankara 1490 vətəndaşının evakuasiyası ilə məşğuldur. Ər-Riyad isə 385 nəfəri çıxarır. Sudan Suveren Şurasına rəhbərlik edən Silahlı Qüvvələrin komandanı Əbdül Fəttah əl-Burhanla həmin şurada onun müavini olan xüsusi təyinatlı qüvvələrin başçısı Məhəmməd Həmdan Daqalo arasında fikir ayrılığı səbəbindən ölkədə hərbi vəziyyət gərginləşib. Aprelin 15-də iki güc strukturu arasında Merove şəhərindəki hərbi baza yaxınlığında və paytaxt Xartumda toqquşmalar başlayıb.

Sudan Səhiyyə Nazirliyinin son məlumatına görə, aprelin 15-dən davam edən döyüşlər nəticəsində 600-dən çox insan həlak olub.

*"Xalq qəzeti"*

# Moskvada dördtərəfli görüş

**Moskvada Rusiya Federasiyası, İran İslam Respublikası, Suriya Ərəb Respublikası və Türkiyə Respublikasının müdafiə nazirləri arasında dördtərəfli danışıqlar keçirilib.**



TASS xəbər verir ki, danışıqlar zamanı Suriya Ərəb Respublikasında təhlükəsizliyin möhkəmləndirilməsi və Suriya-Türkiyə münasibətlərinin normallaşdırılması sahəsində əməli addımlar müzakirə edilib. Terror təhdidlərinin bütün təzahürlərinə qarşı mübarizə, Suriyada bütün ekstremist qruplarla mübarizə məsələlərinə xüsusi diqqət yetirilib.

Danışıqlardan sonra tərəflər Suriyanın ərazi bütövlüyünü qorumaq istəklərini, həmçinin suriyalı qaçqınların vətənlərinə tezliklə qayıtması üçün səylərin gücləndirilməsinin zəruriliyini bir daha təsdiqləyiblər.

Müdafiə nazirliklərinin rəhbərləri bu formatda keçirilən dialoqun konstruktiv xarakterini və Suriya Ərəb Respublikasında və bütövlükdə regionda vəziyyətin daha da sabitləşdirilməsi maraqları naminə davam etdirilməsinin zəruriliyini xüsusilə vurğulayıblar.

Həmçinin Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqu iranlı, suriyalı və türkiyəli həmkarları ilə ikitərəfli danışıqlar aparıb.

Görüşlər zamanı ikitərəfli əməkdaşlığın aktual məsələləri, o cümlədən qlobal və regional təhlükəsizliyin təmin edilməsinin müxtəlif aspektləri müzakirə olunub.

*"Xalq qəzeti"*

# Rusiya BMT TŞ-nin 77-ci sessiyasına sədrlik edir

## Dünyada gərginlik çox yüksək həddə çatıb

**Bu günlərdə Rusiyanın sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının növbəti 77-ci iclası keçirilib. İclası RF XİN başçısı Sergey Lavrov aparıb. O, "BMT Nizamnaməsinin prinsiplərini qorumaqla çoxtərəfli effektivlik" mövzusunda debatların açılışını edib. Nazir Baş katib Antonio Quterreşlə də görüşüb. Məlumatı AP verib.**



Lavrov jurnalistlərin suallarına cavab verərkən BMT-nin hazırda yerləşdiyi Nyu-York şəhərindən köçürülməsinə müsbət münasibət bildirib: "Düşünürəm ki, bu yaxşı olardı", – deyə nazir qeyd edib. Rusiyanın narazılığı həm də ABŞ-ın rusiyalı jurnalistlərə BMT TŞ-nin iclasını işıqlandırmaq üçün Nyu-Yorka gəlməyə viza verməməsi ilə əlaqədar olub. ABŞ-ın Moskvadakı səfirliyi əvvəlcə viza verməyə hazır olduğunu bildirsə də, sonradan Rusiya nümayəndə heyəti uçuşa başlayana qədər məsələnin həlli uzadılıb. Lavrov isə bildirib ki, "Moskva bunu unutmayacaq və bağışlamayacaq".

RF XİN başçısı BMT baş katibi ilə görüşdən sonra bəyan edib ki, Quterreş taxıl sövdələşməsinin tam reallaşdırılması ilə bağlı Rusiya Prezidenti Vladimir Putinə məktub göndərib. Rusiyanın xarici işlər naziri BMT TŞ-nin iclasında çıxışı zamanı bildirib ki, BMT Təhlükəsizlik Şurasında Asiya, Afrika və Latın Amerikası ölkələrinin təmsilçiliyi genişləndirilməlidir. "Hazırda Qərb orada çox güclü şəkildə təmsil olunur. 2021-ci ildə Rusiya Prezidenti Vladimir Putin BMT Təhlükəsizlik Şurası üzvlərinin sammitinin çağırılmasını təklif etdi, təəssüf ki, bu təşəbbüs hələ də həyata keçirilməyib. Bu mövzu birbaşa çoxtərəfliliklə bağlıdır və bu vəziyyətlə bağlı narahatlıqlar Cənub-Şərqi Asiya, ərəb və müsəlman dünyasından Afrika və Latın Amerikasına qədər çoxsaylı təşəbbüslərdə getdikcə daha çox eşidilir", – Lavrov qeyd edib.

Rusiyalı diplomat ölkəsinin Ukraynada həyata keçirdiyi xüsusi hərbi əməliyyat məsələsinə də toxunub. Onun sözlərinə görə, Rusiya xüsusi hərbi əməliyyat zamanı qarşıya qoyduğu vəzifələri bütün dünyaya aydın şəkildə izah edib. Məqsəd "insanları Kiyev rejimi tərəfindən məhv edilməkdən qorumaq, NATO-nun təhdidlərini aradan qaldırmaqdır".

Nazir deyib: "Hazırkı Ukrayna hakimiyyəti 2014-cü il çevrilişinin nəticələrini qəbul etməkdən imtina edən Donbas sakinlərinin maraqlarını təmsil edə bilməz".

Lavrov TŞ-nin 77-ci sessiyasının nümayəndələrinə müraciətində dünyadakı durumu dramatik adlandırıb: böhran vəziyyətləri artır, beynəlxalq təhlükəsizlik sahəsində vəziyyət ciddi şəkildə deqradasiyaya uğrayır, səmimi dialoq və kompromis əvəzinə təxribatlar və kobud riyakarlıqla müşayiət olunan dezinformasiya ilə qarşılaşırıq.

O deyib: "Yüksək gəlirləri yüz illərlə Asiyanın, Afrikanın və Latın Amerikasının ehtiyatları hesabına təmin olunan Qərbin – "qızıl milyard"ın maraqlarına xidmət edən birqütblü dünya modeli keçmişdə qalır. Bu gün milli maraqlarını qorumağa hazır olan suveren dövlətlərin yaranması bərabərhüquqlu, sosialyönümlü və dayanıqlı çoxqütblü arxitekturanın formalaşmasına aparır".

Onun sözlərinə görə, Qərb birqütblü modeli dirçəltməyə çalışır, blok qarşıdurması, "bölücü xətlər" qurur, NATO-nun şərqə doğru genişləndirilməsi ilə bağlı ağılsız kurs həyata keçirir, blokun hərbi infrastrukturunu Rusiyanın sərhədlərinə yaxınlaşdırır, Avroatlantik və Hind-Sakit okean regionunun təhlükəsizliyini bölünməzliyini bəyan edərək, Asiya məkanını özünə tabe etmək vəzifəsini qarşıya qoyur.

Qeyd edək ki, ABŞ dövlət katibi Entoni Blinken və Qərb ölkələrinin xarici işlər nazirləri Lavrovun sədrliyi ilə keçirilən iclasda iştirak etməyiblər. İclasda yalnız ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild iştirak edib. Böyük Britaniya və Fransa da daimi nümayəndələr səviyyəsində iştirak edib.

Bununla belə, BƏƏ-nin dövlət naziri Xəlifə Şahin əl-Marar, Qabonun xarici işlər nazirinin müavini Erman İmmonqo, xarici işlər və regional inteqrasiya nazirinin müavini Tomas Mbomba, Kuba xarici işlər nazirinin birinci müavini Xerardo Penalver Portal iclasa qatılıblar.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə özünün paylaşımında qeyd edib ki, Lavrovun Nyu-Yorka uçması dünyada ən çox izlənən video olub. Onun sözlərinə görə, Lavrovun səfərini eyni vaxtda 700 mindən çox insan izləyib. Ümumilikdə isə, uçuşa 3 milyon insan baxıb. Zaxarovanın fikrincə, bu, rekord hesab olunmalıdır.

BMT-nin Baş katibi Antonio Quterreş də böyük dövlətlər arasında gərginliyin bütün zamanlarda olduğundan yüksək həddə çatdığını bəyan edib: "Biz görünməmiş və bir-biri ilə əlaqəli böhranlarla üzləşirik. Çoxtərəfli sistem BMT-nin yaranmasından bəri ən böyük gərginlik altındadır. Böyük dövlətlər arasında gərginlik tarixi zirvəyə çatıb".

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*

# Qazaxıstanda 4 günlük iş həftəsi

**Bu il iyulun 1-dən etibarən Qazaxıstanda dördgünlük iş həftəsi tətbiq ediləcək. Bununla bağlı respublikanın Əmək Məcəlləsinə müvafiq dəyişikliklər edilib. Prezident Kasım-Jomart Tokayev bu dəyişiklikləri bəyənib. Məlumatı Qazaxıstan kütləvi informasiya vasitələrinə istinadən TASS verib.**

Məlumata görə, Qazaxıstanın əmək qanunvericiliyinə edilən yeniliklərin məqsədi ölkə sakinlərinə istirahət üçün daha çox vaxt verməkdir. Əmək Məcəlləsində beşgünlük və altıgünlük iş həftələri də nəzərdə tutulub. Qeyd edilir ki, iş həftəsinin müddəti tərəflər arasında razılaşmaya əsasən müəyyən olunur. Bəzi təşkilatlarda beşgünlük və altıgünlük iş həftələri növbələşdirilə bilər.

İş həftəsinin uzunluğundan asılı olmayaraq bazar günü ümumi istirahət günüdür. Beşgünlük və altıgünlük iş həftəsində ikinci və üçüncü istirahət günləri kollektiv müqaviləyə və ya əmək intizamı qaydalarına əsasən müəyyən olunur.



Dördgünlük, beşgünlük və altıgünlük iş həftələrində iş günündən əlavə iş müddəti ayda 12 saatdan çox, iş vaxtının məcmu uçotu müəyyən edilən hallarda isə ildə 120 saatdan çox olmamalıdır.

*"Xalq qəzeti"*

# Azərbaycan kinosu inkişaf yolları axtarışında



**Ötən həftə ilk dəfə olaraq Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ikigünlük "Azərbaycan Kinosu – 125. Reallıq, çağırışlar və hədəflər" mövzusunda Kino Forumu keçirilib. "Xalq qəzeti" olaraq həmin ərəfədə redaksiyamızda tanınmış kino xadimlərini dəyirmi masa ətrafında müzakirələrə dəvət etmiş, sonra isə forumun gedişi haqqında ətraflı məlumat vermişdik. Bəs, artıq tarixə çevrilmiş dövlət tədbiri necə keçdi, perspektiv üçün hansı vəzifələr müəyyənləşdirildi? Milli kinomuzla bağlı strategiyanın konturları nədən ibarət olacaq? Bu suallara aydınlıq gətirmək istərdik.**

Bəri başdan deyək ki, işgüzar şəraitdə keçən Forumda Mədəniyyət naziri Adil Kərimlinin, həmçinin kino təsərrüfatına cavabdehlik daşıyan ünlü sənət adamlarının çıxışları ümumi konsepsiyaya aydınlıq gətirib. Bildirilib ki, əsas məqsəd 125 yaşlı Azərbaycan kino sənətinin uğur yoluna nəzər salmaq, perspektivə baxmaq və problemlərə işıq tutmaqdır. Bundan bir qədər əvvəl Teatr Forumu da keçirilmişdi və il ərzində ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində mədəniyyətimizin digər sahələri ilə də bağlı analoji yaradıcı toplantılar təşkil ediləcək, son olaraq, mədəniyyətimizin İnkişaf Strategiyası formalaşdırılacaq.

Forum öz işini dörd panel müzakirəsi üzrə davam etdirib. "İdeologiya. Milli Kino – dünən, bu gün və sabah" adlı ilk panelində "Mədəniyyət siyasətində kinonun rolu", "Milli kinoda mövzu seçimi. Cəmiyyətin gözləntisi və dövlət sifarişi", "Kino sahəsində peşəkar kadr hazırlığının mexanizmləri", "Yaradıcılıq. Müasir Azərbaycan kinosunun perspektivləri" adlı ikinci paneldə "Müəllif kinosunda uğur meyarları", "Kinofestivallar və kinofondlar – müştərək istehsal üçün zəruri platforma" və "Satış potensialı az olan filmlər üçün dəstək sistemi", "Biznes. Kino və digər audiovizual əsərlərin maliyyələşməsinin prinsip və mexanizmləri" adlı üçüncü paneldə "Kino sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi zamanı nələr nəzərə alınmalıdır?", "Tamaşaçının yerli filmlərə marağının artırılması necə tənzimlənməli?", "Azərbaycanfilm" kinostudiyasının 100 illik tarixi və gələcək perspektivləri" və Azərbaycan kinosunda beynəlxalq təcrübənin tətbiqi" adlı sonuncu paneldə isə "Kino sahəsində planlı iqtisadiyyat modelindən bazar iqtisadiyyat modelinə keçid", "Beynəlxalq kino kontekstinə inteqrasiyanın mexanizmləri", Xarici sərmayənin kino sənayesinə cəlb olunması prinsipləri" mövzularında müzakirələr aparılıb.

Xatırladaq ki, forum müddətində aparılan fikir mübadiləsi və müzakirələr əsasında toplanan təkliflər "Azərbaycan mədəniyyəti 2020-2040 dövlət strategiyası" ilə bağlı tərtib edilən tədbirlər planında nəzərə alınacaq.

Tədbirdə milli kinoya dövlət qayğısının davamlı olduğu təqdir edilib. Son illər ölkəmizdə istehsal olunan filmlərin dünya arenasına çıxarılması və bəzilərinin mükafatlandırılması, film çəkilişinə vəsait qoyuluşunun həcminin artması və tamaşaçı auditoriyasının genişlənməsi kinematoqrafiyamızın keyfiyyətcə yeni inkişafından xəbər verən amillər kimi vurğulanıb. Bildirilib ki, kinematoqrafiyada şəffaf idarəçilik mexanizmlərinin tətbiqi məqsədilə Kino Agentliyinin yaradılması irəliləyişə böyük təkan olacaq.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında kino sənətinin də inkişaf etdirilməsi konsepsiyasının öz əksini tapması nikbinlik yaradır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da bu sahəyə hərtərəfli diqqət göstərir.

Eyni zamanda mötəbər tədbirdə problemlər qabardılıb və rəqabət qabiliyyətli kinomuzun formalaşması istiqamətində atıla biləcək addımlar müzakirə olunub. Ayrı-ayrı çıxışlar, müsahibələr bu xüsusda bir sıra önəmli məsələlərə işıq salıb və forumdan ciddi gözləntilərin olduğunu göstərib. Fərəh doğuran hal budur ki, natiqlər diqqəti şəxsi müşküllərindən daha çox, ümumi məsələlərə cəlb edib, milli kino sənətimizi daha da canlandırmaq istəklərini dilə gətiriblər. Tərəqqiyə istiqamətlənmiş addımların daha inamla atılması zərurəti önə çəkilib. Ümid ifadə olunub ki, foruma toplaşan kino ictimaiyyəti, görkəmli mədəniyyət xadimlərimiz Azərbaycan kinematoqrafiyasının qarşısında dayanan problemləri aradan qaldırmaq üçün əməli olaraq birləşəcəklər. Çünki milli kinomuzun inkişafı, yeni mərtəbəyə qaldırılması bütün xalqın arzusudur.

Forumda kino sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi zamanı nələrin nəzərə alınmalı olduğu, tamaşaçının yerli filmlərə marağının artırılmasının necə tənzimlənməsi, "Azərbaycanfilm" kinostudiyasının 100 illik tarixi və gələcək perspektivləri, xarici sərmayənin kino sənayesinə cəlb olunması prinsipləri və sair mövzulara toxunulub.

Dövlət əhəmiyyətli tədbirdə ölkənin görkəmli mədəniyyət və incəsənət xadimləri ilə yanaşı, xarici ölkələrdən gəlmiş qonaqlar da iştirak edirdilər. Düşünürük ki, hər kəs məhz milli kino təəssübkeşliyimizin, ekrana xırda məişət məsələlərini deyil, ictimai önəm daşıyan mövzuları gətirmək istəyimizin və eyni zamanda mental dəyərləri qorumaq məramımızın şahidi oldu.

Deyilənlərin söz olaraq qalmayacağına ümid edirik. İnanmaq istərdik ki, Azərbaycan kinosunun tamaşaçı zövqünü yönləndirmək qabiliyyəti daha da artacaq, tezliklə milli filmlərimiz dünya mədəniyyətlərarası dialoqunda özəl mövqeyi ilə mütləq qaydada hesablaşılan tərəfə çevriləcək.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

# "Ölümcül həqiqətlər" cana gəldi

**Tanınmış jurnalist Bahəddin Həzi həyat həqiqətlərindən bəhs edən publisist yazıları hər zaman maraqla oxunur. Onun son illərdə qələmə aldığı məqalə, yol qeydləri, esse və hekayələri, həmçinin Qarabağ mövzusunda xatirə poemasını ipə-sapa düzərək, kitab halında çap etdirməsini məslək adamının, azad düşüncə sahibinin yaradıcılıq hesabatı kimi dəyərləndirə bilərik.**

Müəllifin yeni kitabı "Ölümcül həqiqətlər" adlanır. Kitaba ön söz yazmış filologiya elmləri doktoru, professor Qulu Məhərrəmlinin təbirincə desək, Bahəddinin yazılarının əksəriyyətinə zamanın ağrı-acıları hopmuşdur. Əsl mənada həqiqətə köklənmiş bu yazılara dövrün nəfəsi, adi insan yaşantılarından tutmuş milli tale ilə bağrıbadaş olmaq hissi də hakimdir. Gerçəkliyə obyektiv münasibəti yaradıcı məsləkin cövhəri sayan müəllif publisistrik yazılarını illərin müşahidələri və müşahidələrin hikmətləri üzərində qurub.

Kitabı oxuduqca "Bir səhər "Çahargah"a oyandıq", "İtirilmiş paradiqmalar", "Mərhəmət ətri" və digər bölümlərdə toplanmış ayrı-ayrı yazıların aurasına düşür və duyğulanırsan. 2019-cu ildə qələmə alınmış "Yadımdakı Qarabağ" xatirə-poemada uşaqlıq xatirələrindən başlamış, işğala məruz qalmış əzəli torpaqlarımızın düşməndən təmizlənməsi əzminə qədər lirik-obrazlı tərzdə poetik duyğu və düşüncələr toplu halında oxucuya təqdim olunub. Yaddaşdan boy göstərən əlvan təbiət lövhələri, etnoqrafik təsvirlər həm də "Uca tanrım, bitsin artıq doğma torpaq həsrətim" deyən müəllifin Qələbə müjdəli arzu və istəklərinin tərcümanı kimi maraq kəsb edir. Nə yaxşı ki, Bahəddin Həzinin həmin zəfər həsrətli poemasının da daxil edildiyi yeni kitabı artıq Qarabağda qazanılmış möhtəşəm qələbənin ruhuna bələndiyimiz hazırkı vaxta təsadüf edib. Başqa sözlə desək, müəllifin məcazi mənada "ölümcül" saydığı həqiqətləri cana gələrək dirçəlib, özünün əsl sahiblərinin qədəmləri üçün qəribsəmiş dağlarda, zirvələrin qaşında bayrağa dönüb qürurla dalğalanmağa başlayıb.




İnamla deyə bilərik ki, qələmdaşımızın araya-ərsəyə gətirdiyi bu yeni kitabını da oxucular maraqla qarşılayacaqlar.

*"Xalq qəzeti"*

**Azərbaycan kinosunun 125, milli kinostudiyamızın 100 illikləri ilə əlamətdar olan 2023-cü ildə həm də "Sabah" Yaradıcılıq Birliyinin 30 yaşı tamam olur. AzTV-nin nəzdindəki bu studiya, əsasən, televiziya tamaşaları, film-tamaşalar, bədii və sənədli televiziya filmləri hazırlayır.**

"Sabah"ın direktoru görkəmli teatr, kino və televiziya rejissoru, Xalq artisti Ramiz Həsənoğludur. Ünlü sənətkarlar – Həsənağa Mirzəyevlə Ətayə Əliyevanın ailəsində dünyaya gəlmiş Ramiz Həsənoğlu yarım əsrdən artıqdır ki, Azərbaycan mədəniyyətinə xidmət göstərir. İlk işləri "Mən, sən, o və telefon", "Dindirir əsr bizi", "Ötən ilin son gecəsi" teletamaşaları olub. "Qatarda" tamaşasından sonra daha artıq populyarlıq qazanıb. Onun tedalıqlardan çıxış etsin – bəzən bu xırda təfərrüatlar onların bütün həyat kredosunu olsun ki yığcam, amma daha dolğun şəkildə əks etdirir. Üstəlik, bütün bunlar 35-40 dəqiqəlik bir filmdə cərəyan edir. Beləliklə, gənc nəslə – başgicəlləndirici sürət nəslinə, KİV və sosial şəbəkələrdə informasiya və əyləncənin maarifçilyi üstələdiyi dövrün nəslinə böyük azərbaycanlıları tanıtmaq və sevdirmək mümkün olur.

# 30 yaşlı "Sabah"ın üfüqləri



letamaşaları sırasında ən uğurlu alınanlardan biri də Hüseyn Cavidin eyniadlı əsəri əsasında ekranlaşdırdığı "Topal Teymur"dur. "Günahsız Abdulla", "Evləri köndələn yar" və ilk Azərbaycan telemüzikli "Ordan-burdan" rejissora daha geniş şöhrət gətirib. Ramiz müəllimin zəngin filmoqrafiyası var, 200-dən artıq müxtəlif səpkili bədii, sənədli, musiqili proqramlara da quruluş verib.

"Sabah"ın ilk günündən R.Həsənoğlu onun sükanı arxasındadır. Obrazlı şəkildə "Azərbaycan teleməkanında üzən ada" adlandırılan "Sabah" çoxlarının üzünə işıqlı sabahlar açıb. Onun pəncərəsindən sabaha boylanan insanlar – dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli, Əməkdar artistlər Elxan Qasımov, Sənubər İsgəndərli, rejissor Şərif Qurbanəliyev, studiyanın veteranları operator, Əməkdar mədəniyyət işçisi Eldar Məmmədov və kino xadimi, Əməkdar mədəniyyət işçisi Arif Kərimov və başqaları "Sabah"a bağlılıqları ilə fəxr edirlər.

"Sabah"ın bu illər ərzində çəkdiyi "Kamança", "Ac həriflər", "Nigarançılıq", "Fatehlərin divanı", "Bala – başa bəla", "Yarımştat", "Nekroloq", "Yaşıl eynəkli adam - 2" kimi televiziya tamaşaları günbəgün daha artıq sevilir, daha böyük maraqla baxılır və Azərbaycan mədəniyyəti yaşadıqca baxılacaq və seviləcək.

Studiyada 44 günlük Vətən müharibəsi ərəfəsində quruluş verilmiş və şəhid atasının fədakarlığından bəhs edən "Yağlı boya ilə ailə portreti", müharibədən dərhal sonra Böyük Qayıdış mövzusunda çəkilmiş "Ocaq yeri" tammetrajlı bədii televiziya filmlərini də tamaşaçılar böyük rəğbətlə qarşıladılar.

"Sabah" bu il "Televizor" lirik komediyası ilə özünün "Yeni il bayramına – yeni əsər" ənənəsini bərpa etdi.

"Sabah"ın son layihələrindən olan Yaradıcılıq Studiyasının "Yad et məni" silsiləsinin də ideya müəllifi Ramiz Həsənoğludur. İlk dəfə məhz o təklif edib ki, görkəmli şəxsiyyətlərimizin ev və xatirə muzeylərində onların həyatından müəyyən hadisələri canlandırmaqla qısa bədii televiziya filmləri çəkilsin. Qərara alınıb ki, layihənin maarifçi yükünü artırmaq məqsədilə çəkiləcək filmlərdə müəyyən sənədliliyə yer verilsin. Beləliklə də sənədli hissələri əsas, faktların bədii bərpa hissələri isə köməkçi olan ənənəvi bədii-sənədli filmlərdən fərqli bir janr alınıb – bədii quruluş əsas olub, sənədli hissələrsə köməkçi, izahedici və maarifçi haşiyə rolunu oynayıb. Bu çərçivədə görkəmli şəxsiyyətlər haqqında bədii-sənədli filmlər davamlı olaraq çəkilir.

Bu layihənin qayəsi görkəmli azərbaycanlıların tərcümeyi-halını tam şəkildə əhatə etmək deyil, onların əksəriyyətinin bioqrafiyası çox geniş öyrənilib və çoxdan, özü də dəfələrlə işıqlandırılıb; yaradıcı heyət istəyir ki, qəhrəmanların həyatındakı ilk baxışda parlaq olmayan və adətən də üzərində çox dayanılmayan epizodlardan itələnsin, müəyyən xır-

İkincisi, bu filmlər həmçinin ev və xatirə muzeyləri kimi mədəniyyət ocaqlarının təbliğinə xidmət edir.

"Yad et məni" silsiləsinin ilk 5 bədii-sənədli filmi ömrünü bu xalqın yolunda çıraq etmiş Nəriman Nərimanovun ("Son səfər"), Abdulla Şaiqin ("Danışan xatirələr"), Mirzə Cəlilin ("Keçmişdən reportaj"), Üzeyir Hacıbəylinin ("Bir portretin ştrixləri"), Cəfər Cabbarlının ("Azad bir ruh") haqqındadır. Bu silsilədən olan filmlərdə "sabah"çıların artıq müəyyən bir üslubu formalaşıb və bu üslub filmdən-filmə cilalanır. Əlbəttə, bu üslubun çərçivələri kifayət qədər elastikdir və onda yaradıcı yeniliklərə və fərqliliklərə geniş meydan var…

"Sabah"ın bədii tərəfi sənədli tərəfindən ağır gələn filmlərində qəhrəmanları oynayan aktyorların onlara bənzər zahiri cəhətlərinin olması da əsas götürülür. Axı canlandırılan obrazlar gerçək və məşhur şəxsiyyətlərdir, onların fotoları, kino-xronikaları qalıb, rəsmlərini çəkiblər, heykəllərini ucaldıblar, haqlarında əvvəllər də tamaşalar, kinolar yaradılıb və s.

"Sabah"da Məmməd Səid Ordubadi ("Gələcəyə müsahibə"), Turan Cavid ("Sədaqət"), Abbas Mirzə Şərifzadə ("Sonuncu monoloq") haqqında filmlər də uğurlu alınıb.

"Sabah" dəst-xətli "Ustad sözü" verilişi də maraqlıdır. Orada görkəmli sənətkarlar – rəssamlar, bəstəkarlar, yazıçılar, müğənnilər, heykəltaraşlar, rejissorlar, operatorlar, aktyorlar öz sənət təcrübələrini tamaşaçılarla bölüşürlər.

Bundan başqa, çəkilməsi nəzərdə tutulan "Fatehlərin divanı. Qarabağ", "Fatehlərin divanı. Qərbi Azərbaycan" televiziya tamaşalarının, Kamal Abdullanın "Əsgər ağa və Gülçöhrə" telepovesti əsasında bədii filmin də "Sabah"ın şöhrətinə əlavə şan gətirəcəyi şəksizdir.

2023-ci il üçün quruluşlarla bağlı təkliflər üzrə yaxın planda M.Ə.Sabir və Niyazi haqqında bədii-sənədli filmlər də var.

"Sabah"ın yaradıcı heyət üzvləri – rejissorlar Anaxanım Abdullayeva, Sirac Mustafayev, Ramina Qarayeva, Adil Azay, Namiq Ağayev, ssenaristlər Seymur Şahbazzadə, Səxavət Sahil, Afaq Vasifqızı, Pərvin və digərləri burada öz potensiallarını hərtərəfli şəkildə göstərə bilirlər.

"Sabah" studiyası öz-özlüyündə bir məktəbdir. Studiyanın gəncləri – rejissor Fərəc Şirəlibəyov və montaj rejissoru Orxan İman yaradıcılıq yollarının başlanğıcında belə bir məktəbə tuş gəlmələrinin qürurunu yaşayırlar.

Ölkədə milli kinonun 125 illiyinin qeyd edildiyi bir vaxtda 30 yaşlı "Sabah"dan söz açmağımız həmçinin kinomuzun sabahına ümidlərimizin daha böyük olduğunu göstərən bir tutalqadır.

*Ə.ƏLİYEV,*
*"Xalq qəzeti"*


## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-yə məxsus gəmilərin ehtiyat hissələrinin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 16 may 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu-+994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010. Bakı, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələr üçün "GRACO" markalı avadanlıqların və onların ehtiyat hissələrinin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 3 may 2023-cü il saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1047.

Ünvan- AZ1003. Bakı, M.Useynov küçəsi 2.

## "Bakı Yastıq Zavodu" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 18.00-da "Bakı Yastıq Zavodu" ASC səhmdarlarının növbəti illik ümumi yığın¬cağı cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.**Təftiş komissiyasının hesabatı.
**2.** İdarə heyətinin hesabatı.
**3.** Digər məsələlər.

Telefon- 012-514-01-43.

Ünvan-AZ1031, Bakı şəhəri, Keşlə qəsəbəsi 31.

*İdarə heyəti*

## BİLDİRİŞ

"Xalq Həyat" Sığorta Şirkəti ASC 2023-cü il aprelin 17-dən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 106 A nömrəli ünvanda ( poçt indeksi AZ-1029) davam etdirir. Əlaqə telefonu- (012) 310 -05- 25.

*Xatirələr işığında...*

# Söhbət futboldan gedirdi...



**Ötən əsrin doxsanıncı illərinin ortalarından "Xalq qəzeti"nin baş redaktor müavini vəzifəsində çalışmış rəhmətlik Mahir Nəbili ilə (şəkildə sağdan birinci) 1995-ci ilin payızında tanış olmuşdum. Bu qəzetin humanitar redaksiyasının gənclik problemləri və idman şöbəsində işə qəbul olunduğum elə ilk günlərdən aydın hiss etdim ki, Mahir müəllim idmana bağlı adamdır, elə hər fürsətdə ölkədə və dünyada baş verən idman hadisələri haqqında danışmaq üçün vaxt ayırmağa heyfsilənmir. Hərdən, şahidi olduğum kimi, özü də "qollarını çırmalayıb" uzun vərəqlərdə iri hərflərlə geniş həcmli materiallar hazırlayıb, operativ şəkildə dərc etdirirdi.**

Həmin gün də "Xalq qəzeti"nin mətbuat mərkəzində futbolun işığına toplaşmışdıq. Digər KİV-lərdən də qonaqlarımız az deyildi. Əllərdəki, masaların üstündəki qəzet o vaxtlar hamının hər nömrəsini maraqla gözlədiyi, yığcam, amma qətiyyətli, cəsarətli "Səhər"in nüsxələri idi. Nəşrin baş redaktoru, əməkdaşlığa mən hələ "İdman"da işlədiyim illərdən başladığımız, "Xalq qəzeti" redaksiyasında bu görüşün keçirildiyi gündə isə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasında mətbuat xidmətinin rəhbəri, təəssüf ki, artıq bir ilə yaxındır qələmi ilə də, futbolla da vidalaşıb ömrünün yetmişinci ilində həyatı tərk etmiş Əməkdar mədəniyyət işçisi Məzahir Süleymanzadə tədbirin təşəbbüsçülərindən biri idi və bizimlə üzbəüz tərəfdə əyləşmişdi. Yığıncaqda ölkə futbolunda yaranmış vəziyyət, görülən işlər, bu yöndə mətbuatın köməyinin artırılması zərurəti haqqında ətraflı söhbət getdi. Bu zaman M. Nəbili və hazırda da "Xalq qəzeti"nin Gəncə bölgəsi üzrə təmsilçisi Hamlet Qasımov da (soldan birinci) müzakirə olunan məsələyə biganə qalmadılar.

Sonralar həmin tədbirin məqsədindən, amalından irəli gələn, Azərbaycan yığma komandasına dəstəyimizi ifadə edən "Milli komanda bütün millətin komandasıdır" başlıqlı, "Ona hamılıqla can yandırmasaq, hamıya uduzarıq" yarımbaşlıqlı bir yazı ilə də çıxış etdik. Təəssüf ki, o vaxtdan bəri heç nə dəyişməyib, nəsə bir irəliləyiş yoxdur. Komandada futbolçular, məşqçilər bir-birlərini əvəz etsə də, yenə dünya və Avropa çempionatlarının seçmə mərhələlərində turnir cədvəlinin sonuncu pilləsində qalırıq. Nə vaxtadək belə olacaq, nə vaxtadək mundial, Avropa çempionatı arzumuz gözümüzdə qalacaq?

Bayaq Hamlet müəllimi xatırladım. Futbol bizi hələ o illərdə yaxınlaşdırmışdı. Bu gözəl oyun sayəsində bir neçə dəfə Gəncəyə, "Kəpəz"in görüşlərinə, eləcə də, komandanın çempionluğu şərəfinə keçirilən şənliklərə dəvət olunmuşdum. Bir dəfə – 1997-ci ilin avqust ayında Gəncəni məyus halda tərk etməyim də yadımdadır. Onda "Kəpəz"in doğma azarkeşlər qarşısında UEFA Kuboku turnirinin ilkin mərhələsində Latviyanın "Dinaburq" (Riqa) komandasına uduzması bir qədər gözlənilməz olmuşdu. Slovakiyalı hakim Milan Mitroviçin idarə etdiyi oyunun taleyini qonaqların penalti ilə vurduqları yeganə qol həll etmişdi.

H. Qasımov "Kəpəz"in öz pərəstişkarlarına çempionluq sevinci yaşatdığı dövrdə komandanın uğurlarına klubun mətbuat xidmətinin rəhbəri kimi töhfəsini verirdi. Azarkeşlər həmkarımın fəal iştirakı ilə nəşr olunan və Gəncənin futbol həyatına xüsusi rövnəq verən "Kəpəz" qəzetini razılıqla qarşılayırdılar. Materialları ayda iki dəfə Gəncədən Bakıya gətirilib "Azərbaycan" nəşriyyatında rəngli şəkildə çap olunan 8 səhifəlik qəzetin redaksiya heyətinin üzvü kimi mən də onun nömrələrinin hazırlanması işinə cəlb edilmişdim. Maraqlı idi.

Futbolumuzun müstəqillik dövründə "Kəpəz"in uğurları və sevincləri az olmayıb. Gəncə təmsilçisi indi isə uzun fasilədən sonra yenidən güclülər dəstəsində oynayır. Təbii ki, komanda hələ medallar uğrunda mübarizə aparmır, Premyer Liqada yerini qorumağa çalışır. Özü də çox mürəkkəb şəraitdə. Bütün digər səbəbləri bir kənara qoyub, təkcə onu yada salaq ki, meydança yararsız vəziyyətdə olduğuna görə çempionatın əvvəlindəki kimi yenə komanda ev oyunlarını evdən kənarda, Qəbələ şəhər stadionunda oynamağa məcburdur. Halbuki futbolda "doğma divarlar" və ya "evdə divarlar da kömək edir" anlayışları təsadüfən "meydana" çıxmayıb. Heç olmasa, növbəti çempionatadək tribunalar, meydança, ot örtüyü böyük futbolun tələb etdiyi səviyyəyə çatdırılsın və stadion öz qapılarını pərəstişkarlarının üzünə taybatay açsın.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

*Sosial şəbəkələrdən seçmələr*

# ABŞ-ın "Qafqaz əsiri" 30 il əvvəl çəkilib

**Sosial şəbəkələr dəryadır. Burada bildiyimiz, bilmədiyimiz minlərlə informasiya, maraqlı hadisə ilə, dəyərli bilgilərlə tanış oluruq. Və təbii ki, dünyanın hər yerində yayılan xəbərlər bizi yeni bilgilərlə zənginləşdirir. Eyni zamanda, bəzən özümüzə, adət-ənənələrimizə də kənardan, başqa xalqların gözü ilə baxmaq imkanı qazana bilirik.**



Məsələn, hesab etmək olar ki, Azərbaycanda məşhur "Qafqaz əsiri" filminə baxmayan yoxdur. Bir çoxlarımız bu filmə hətta dönə-dönə tamaşa etmişik. Hər dəfə də film özünün bənzərsiz koloriti, Qafqazdakı adət-ənənələrin təkrarsızlığı, eləcə də yumoru ilə diqqətimizi cəlb edib, marağımıza səbəb olub.

Amma sən demə...

Bu günlərdə "facebook"dakı həmişə maraqla izlədiyim "Sosial media" səhifəsində rast gəldiyim kiçik bir informasiya bu filmlə bağlı təsəvvürlərimi yenilədi. Sən demə, eyni süjetli film keçən əsrin 1930-cu ilində ABŞ-da da çəkilibmiş. Filmin adı isə "Fırıldaqçının mahnısı" imiş.

Bir sözlə, sosial şəbəkədəki məlumatla tanış olaq:

"S.Lorell, L.Tibbet və O.Xardi. Bu üç aktyor ABŞ-da 1930-cu ildə çəkilmiş "Fırıldaqçının mahnısı" kinofilminin personajlarıdır. Rejissorlar Berrimor və Rouçun çəkdiyi bu filmdə Qafqazda bir qızın evlənmək üçün qaçırılmasından bəhs edilir. Ehtimal olunur ki, XX əsrin 60-cı illərində Leonid Qaydayın çəkdiyi "Qafqaz əsiri" kinofilminin motivləri məhz bu filmdən götürülmüşdür".

Səhifədə adı çəkilən aktyorların şəkilləri də verilib. Hətta ötəri nəzərlə baxanda belə "Qafqaz əsiri"ndəki aktyorların da bu şəkildəkilərə uyğun seçildiyini görmək mümkündür. Süjet də tamamilə eynidir...

İndi kimin süjetinin kim tərəfindən mənimsənildiyini bir tərəfə qoyaraq, başqa bir məsələyə diqqət çəkək: demək, Qafqaz yaxın Rusiya üçün olduğu kimi, uzaq ABŞ üçün də həmişə maraqlı olub – həm keçən əsrin 30-cu, həm də indi...

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

*İdman xəbərləri*




## Yeniyetmə sablyaçımızdan qızıl medal

***Yeniyetmə və uşaq qılıncoynadanlarımız Antalyada keçirilən beynəlxalq turnirdə iştirak ediblər.***

İdmançımızdan ən yaxşı nəticəni Səid Sultanlı göstərib. O, 10 yaşadək oğlan sablyaçıların şəxsi yarışında qızıl medal qazanıb.

Komandamızın digər üzvləri Züleyxa Sultanlı 14 yaşadək sablyaçının şəxsi mübarizəsində beşinci yeri tutub. Jasmin Vəliyeva isə 10 yaşadək sablyaçı qızların şəxsi yarışında əsas mərhələyə kimi yüksəlməyi bacarıb.

## Şahmatçımız dünya çempionatında ikinci olub



***Yunanıstanın Rodos şəhərində təşkil edilən məktəblilər arasında dünya çempionatında Azərbaycan şahmatçısı Süleyman Süleymanlı uğurla çıxış edib. Təmsilçimiz 17 yaşadək məktəblilərin yarışında gümüş medal qazanıb.***

Həmyerlimiz 7 xalla yaşıdları arasında ikinci olub. Bu yaş kateqoriyasında 7,5 xal toplayan Adar Tarhan (Türkiyə) qalib adına sahib olub. Rumıniya təmsilçisi Andrey Filip 6,5 xalla bürünc medala layiq görülüb.

Qeyd edək ki, mötəbər yarışda 51 ölkə iştirak edib.

## Avropa çempionatında gümüş medal qazanan güləşçilərimiz Vətənə qayıdıblar

***Xorvatiyanın Zaqreb şəhərində 6 medal qazanaraq komanda hesabında ikinci yeri tutan yunan-Roma güləşi üzrə yığma komandamızın üzvləri Vətənə qayıdıblar. Onları Heydər Əliyev Beynəlxalq Aeroportunda Gənclər və İdman Nazirliyinin və Azərbaycan Güləş Federasiyasının rəsmiləri, məşqçilər və idmançılar qarşılayıblar.***

**Milli komandanın baş məşqçisi Aleksandr Tarakanov** Avropa çempionatında komandanın çıxışı ilə bağlı müsahibə verib. Baş məşqçi komandasının Avropa çempionatında uğurla çıxış etdiyini bildirib: "Avropa çempionatına yaxşı hazırlaşmışdıq. Zaqrebdə keçirilən reytinq turnirindən sonra ölkə xaricində 2 təlim-məşq toplanışı keçdik. Xorvatiyada və Gürcüstanda hazırlıq prosesində iştirak etdik. Komandamız qitə birinciliyində uğurlu çıxış etdi. Bundan sonra bütün diqqətimizi sentyabrda keçiriləcək lisenziya xarakterli dünya çempionatına yönəldəcəyik".

**Avropa çempionu Ülvü Qənizadə** karyerasında ilk dəfə Avropa çempionu olduğunu, buna görə sevindiyini bildirib: "Məni ilk təbrik edən anam oldu. Qələbəmi şəhidlərimizin və atamın ruhuna həsr etdim. Növbəti hədəfim dünya çempionu olmaqdır. Arxayınlaşmaq olmaz. İnanıram ki, bu nəticələrin ardı gələcək".

**Avropa çempionatının gümüş medalçısı Taleh Məmmədov** deyib ki, İrəvandakı ağırlıqqaldırma üzrə Avropa çempionatında Azərbaycan bayrağının yandırılması güləşçilərimiz üçün ikiqat məsuliyyət oldu və komandanın əhvali-ruhiyyəsinə müsbət təsir etdi, idmançıları daha da ruhlandırdı: "Ermənistan idmançısı ilə artıq dördüncü dəfə idi qarşılaşırdım. Özüm elə taktika seçdim ki, birinci hissədə parterdə oturum, ikinci hissədə isə bütün var gücümü qoyaraq qələbə qazanım. Elə qurduğum taktika ilə də getdim. Rəqib bilirdi ki, bundan öncəki yarışda onu qaldırıb atmışam və bunu yenə etmək istəyəcəyəm. Ancaq ondan müdafiə olunurdu deyə başqa fənd tətbiq etməli oldum. Həmin fəndin üzərində işləmişdim. İcra edib qələbə əldə etdim və finala vəsiqə qazandım. Növbəti hədəfim dünya çempionu olmaqdır. Serbiyada qızıl medal qazanıb, karyeramı başa vurmaq istəyirəm".



Xatırladaq ki, Xorvatiyada Həsrət Cəfərovla (67 kq) Ülvü Qənizadə (72 kq) Avropa çempionu olub. Eldəniz Əzizli (55 kq), Taleh Məmmədov (63 kq) və Sabah Şəriəti (130 kq) gümüş, Nihat Məmmədli (130 kq) isə bürünc medal qazanıblar.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

## HAVA PROQNOZU

✓ **Aprelin 26-da**

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 9-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 7-12°, gündüz 20-25° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 10-15°, bəzi yerlərdə 18°-dək isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 9-14°, bəzi yerlərdə 17-19° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecəyə doğru ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 9-14°, gündüz 19-24° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarında, gündüz isə qərb rayonlarından başlayaraq arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 18-23°, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 21-26° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 10-13°, gündüz 15-18° isti olacaq.

## G 7-lərin süni intellekt planı

**G7 ölkələrinin rəqəmsallaşma və texnologiya üzrə nazirləri aprelin sonunda Yaponiyada keçiriləcək görüş zamanı süni intellektə dair fəaliyyət planı qəbul etmək niyyətindədirlər.**

Bu barədə "Yomiuri" qəzeti hökumətdəki mənbələrə istinadla məlumat yayıb. Məlumata görə, G7 nazirləri ChatGPT çat-botundan və digər analoqlardan istifadə zamanı məlumat sızması ilə bağlı narahatlıqlar fonunda "məsuliyyətli süni intellekt" konsepsiyasının həyata keçirilməsini istəyirlər. G7 nazirləri süni intellektin idarə edilməsi, habelə məlumatların şəbəkə məkanında etibarlı və sərbəst paylanması, yüksək sürətli 6G rabitəsinin yeni nəsli ilə bağlı ayrı-ayrılıqda bir neçə sənəd hazırlayacaqlar.



Xatırladaq ki, ChatGPT Amerika şirkəti OpenAI tərəfindən 2022-ci ilin sonunda istifadəyə verilib. Bu xidmət istifadəçi ilə dialoq rejimində qarşılıqlı əlaqə yaradır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 1017
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00